İnvestisiyalardan mənfəət və ya zərərin əldə olunmasını qiymətləndirmək üçün iqtisadçılar xüsusi yanaşma tətbiq edirlər, hansı ki, aktivdən gələcəkdə əldə oluna biləcək bir və yaxud bir neçə növ gəlirləri nəzərə ala bilir. Bu yanaşma gəlir normasının faiz nisbəti ilə ölçülməsidir. Gəlir normasının faiz nisbəti ilə ölçülməsi, aktivin alınmasına sərf olunmuş vəsait müqabilində bir il ərzində əldə olunmuş gəlir və yaxud zərərin faizlə ölçülən nisbəti kimi başa düşülür (Novruzov, Hüseynov, 2007).

Aktivlərin qiyməti və gəlirlilik norması maliyyə iqtisadiyyatın əsas fundamental qanunu bundan ibarətdir ki, müəyyən şərtlərin bərabərliyi şəraitində, investisiyaların gəlirlilik norması, investisiyaların dəyəri ilə tərs mütanasiblik təşkil edir. Başqa sözlərlə sabit gəlir gətirən aktivin alınmasına nə qədər böyük həcmdə vəsait sərf olunursa bir o qədərdə investisiyanın gəlirlilik norması aşağı düşür. Bu proses eyni olaraq əmlak icarəsində də təkrarlanır (Zeynalov, 2008). Əmlakın dəyəri artıqca ondan əldə olunan gəlir aşağı düşməyə başlayır. Bunların hamısınının əsas səbəbi bundan ibarətdir ki, aktiv üzrə ödənilən illik gəlirlər hər zaman sabit və öncədən təyyin olunmuş olur. Nəticədə investor nə qədər yüksək qiymətə aktiv əldə edərsə, bir o qədərdə həmin aktiv üzrə gəlirlilik norması aşağı səviyyədə olacaq (Məmmədov, 2021).

Arbitraj-eyni risk kateqoriyasına aid edilən lakin müxtəlif gəlirlilık norması ilə fərqlənən maliyyə aktivlərinin alqı-satqı əməliyyatı nəzərdə tutulur, hansının ki, təsiri nəticədə həmin aktivlər üzrə gəlirlilik norması bərabərləşir.

Məsələn, zənn edək ki, iki fərqli bazarda idman ləvazimatları istehsal edib satan ***A*** və ***B*** şirkətləri mövcuddur. Həmin şirkətlərin səhmlərinin dəyəri eyni olmasına baxmayaraq, ***A*** şirkətin səhmləri üzrə illik gəlirlilik norması 15%, ***B*** şirkənin isə- 10% təşkil edir. İnvestorlar bu halda ***B*** şirkətinin səhmlərini satıb ***A*** şirkətinin səhmlərini almağa çalışacaqlar. Nəticədə maliyyə aktivlərinin tərs mütanasiblik qanununa əsasən ***A*** şirkətinin səhmləri bahalaşacaq və gəlirlilik norması aşağı düşəcək, ***B*** şirkənin isə səhmləri ucuzlaşacaq lakin gəlirlilik norması artacaq (MakKonnell, Stenli, Bryu, 2009; 14).

**A** şirkəti - 1səhm = 100 $, illik gəlirlilik 15$ və yaxud 15% təşkil edir.

**B** şirkəti - 1səhm = 100 $, illik gəlirlilik 10$ və yaxud 10% təşkil edir.

Arbitraj vəziyyətinin nəticəsi:

**A** şirkəti - 1səhm = 120 $, illik gəlirlilik 15$ və yaxud 12.5% təşkil edir.

**B** şirkəti - 1səhm = 80 $, illik gəlirlilik 10$ və yaxud 12.5% təşkil edir.

Burada maraq doğuran amilin biri də budur ki, bəzən maliyyə bazarlarında aktivlərin gəlir normalarının bərabərləşməsi çox böyük sürətlə baş verir. Sövdələşmələrin bağlanma dinamikasından aslı olaraq bir çox hallarda bu proses bir neçə saat və yaxud bir neçə dəqiqə çəkir. Arbitraj prosesi xırda investorlar üçün çox böyük imkanlar yaradır, belə ki, onlar çəkinmədən alternativ şirkətlərin səhmlərinə investisiya edə bilərlər, əmin olaraq ki, arbitraj gəlirlik normalarını bərabərləşdirəcək (Qruber, 2021: 896).

## Nəticə

Maliyyə strukturu əmsalları – müəssisənin öz öhdəliklərinin icra etmək (ödəmək) səviyyəsini ifadə edir.

Maliyyə strukturu əmsalları iki hissəyə ayrılır:

- ödəmə qabiliyyəti əmsalları;
- əhatəlik əmsalları.

**Ödəmə qabiliyyəti əmsalları.**

$$\text{1. Aktivlərin borclanma əmsalları} = \frac{\text{Cəmi borclar mühasibat tarixinə}}{\text{Cəmi aktivlər mühasibat tarixinə}}$$

$$\text{2. Aktivlərin üzun müddətli borclanma əmsalı} = \frac{\text{Uzun müddətli borcların cəmi müh. tarixinə}}{\text{Cəmi aktivlər mühasibat tarixinə}}$$

$$\text{3. Səhmdar kapitalın borclanma əmsalı} = \frac{\text{Cəmi borclar mühasibat tarixinə}}{\text{Cəmi səhmdar kapital mühasibat tarixinə}}$$

$$\text{4. Maliyyə levereci} = \frac{\text{Cəmi aktivlər mühasibat tarixinə}}{\text{Cəmi səhmdar kapital mühasibat tarixinə}}$$

Bu əmsal müəssisənin mənfəət əldə edilməsində, cəlb olunmuş kapitaldan istifadə səviyyəsini ifadə edir.

Əhatəlik əmsalları.

$$\text{1. Faizlərin ödəmə əmsalı} = \frac{\text{Mənfəət (EBİT) müh. tarixinə}}{\text{Öhdəliklər üzrə hesablanmış faiz borcu müh. tarixinə}}$$

$$\text{2. Öhdəliklər üzrə sabit ödənişlərin əhatalik əmsalı} = \frac{\text{Mənfəət EBİT + Lizinq üzrə ödənişlər (muh.tarixinə)}}{\text{Öhdəliklər üzrə hesablanmış faiz borcu + Lizinq üzrə ödənişlər (m.t.)}}$$

$$\text{3. Əməliyyat pul axınının} = \frac{\text{Əməliyyat pul axını (CFO) + Öhdəliklər üzrə hesablanmış faiz borcu +Mənfəət vergisi faiz borcu əhatalik əmsalı}}{\text{Öhdəliklər üzrə hesablanmış faiz borcu}}$$

Bu əmsal Əməliyyat Pul axınının faiz borclarını ödəmək qabiliyyətini ifadə edir.

Əməliyyat pul axını (CFO)= Xalis mənfəət +Amortizasiya+ İşçi kapitalda artım (azalma)

$$\text{4. Əməliyyat pul axınının borc əhatəlik əmsalı} = \frac{\text{Əməliyyat pul axını (CFO)}}{\text{Cəmi borclar mühasibat tarixinə}}$$

Bu əmsal Əməliyyat Pul axını hesabına müəssisə borclarının tam ödənilməsinə hansı müddətin tələb olunmasını ifadə edir (Frederik, Mişkin, 2021).

İnvestisiyaların səmərəlilik göstəricilərinə inflyasiyanın təsiri. İstənilən halda sahibkarları investisya etməyə sövq edən əsas amil mənfəət normasıdır. Mənfəət normasının yüksək olması, istehsal olunan məhsulun məhsuldarlıq və keyfiyyət göstəricilərindən aslıdır. Yüksək mənfəət norması investisiyaların qısa müddətdə özünün doğrultmasına səbəb olur. İnvestisiyaların səmərəlilik göstəriciləri sadə və mürəkkəb üsulla müyyən edilir. Sadə üsulla investisiyaların rentabelik və özünü doğrultmaq müddəti aşağıdakı kimi hesablanır (Sadıqov, Hüseynov, Zeynalov, 2007):

$$\dot{I}r=\frac{Mənfəət}{\dot{I}nvestisiya\ məbləğinə};\quad Ti=\frac{\dot{I}nvestisiya\ məbləği}{Mənfəət}$$

Lakin bu düsturlar qısa müddətli investisiyaların səmərəlilik göstəricilərinin hesablanmasında daha çox istifadə olunur və inflyasiya səviyyəsinin aşağı olmasından onu nəzərə almır. Lakin inflyasiyanın ümumi investisiyalara təsiri çox mənfi qiymətləndirilir. Belə ki, inflyasiyanın təsiri nəticəsində amortizasiya fondunun dəyərsizləşməsi baş verir və əsas fondların yenilənməsində vəsait çatışmamazlığı yaranır (surətləndirilmiş amortizasiya bu halda tətbiq olunur). Başqa bir problem bundan ibarətdir ki, sahibkar investisiyanı indiki zamanda həyata keçirir, lakin investisiyadan əldə olunan səmərə ona dəyərsizləşmiş vəsait formasında qayıdır. Hesab edilir ki, inflyasiya dövründə özünü ödəmə müddəti qısa olan investisiyalara üstünlük verilməlidir.

İnflyasiya amilinin zərərini dəqiq müəyyənləşdirmək üçün diskontlaşdırma düsturlarından istifadə edək (Məmmədov, 2021).

## Ədəbiyyat


1. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.
2. Ataşov, B., Novruzov, N., İbrahimov, E. (2014). Maliyyə nəzəriyyəsi. Bakı.
3. Abbasov, A.N. (2005). Qiymətli kağızların formalaşması və inkişafı. Bakı.
4. Ataşov, B.X., Novruzov, N.A., İbrahimov, E.Ə. (2009). Müəssisənin maliyyəsi. Bakı, 85 s.
5. Kərimov, A.E., Babayev, A.A. (2007). Qiymətli kağızlar bazarı. Bakı.
6. Sadıqov, M.M., Bədəlov, Q. (2003). Maliyyə resursları və maliyyə bazarı. Bakı.
7. Bağırov, D, Həsənli, M. (2011). Maliyyə. Bakı, 184 s.
8. Zeynalov, V.D. (2008). Maliyyənin əsasları. Bakı.
9. Zeynalov, V.D. (2008). Beynəlxalq maliyyə. Bakı.
10. Məmmədov, S.M. (2021). Rəqəmsal keçid və elmi texnoloji inkişafın sürətləndirilməsi zəruriliyi. Bakı.
11. Məmmədov, Z.F., Zeynalov, V.Z. (2007). Maliyyə pul tədavülü və kredit. Bakı.
12. Novruzov, N.A., Hüseynov, X.Ə. (2007). Maliyyə. Bakı.
13. Mak Konnell, R., Stenli, L., Bryu. (2009). Ekonomika, 19-ye izdaniye.
14. https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/
15. Qruber, C. (2021). Dövlət maliyyəsi və dövlət siyasəti. Bakı: Worth Publishers, TEAS Press Nəşriyyat evi, 896 s.
16. Frederik, S., Mişkin. (2021). Pul, bank və maliyyə bazarlarının iqtisadiyyatı. Bakı: TEAS Press Nəşriyyat evi, 700 s.
17. Sadıqov, M., Hüseynov, A., Zeynalov, V. (2007). Korporativ maliyyə. Bakı.


Göndərilib: 07.11.2023 Qəbul edilib: 02.01.2024

DOI: https://doi.org/10.36719/2663-4619/98/19-26

**Sevinc Əliyeva**
Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
sevinc.k.aliyeva@gmail.com

# FOLKLOR VƏ ORTA ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATININ QARŞILIQLI ƏLAQƏLƏRİ

**Xülasə**

Folklor və orta əsrlər Azərbaycan yazılı ədəbiyyatının qarşılıqlı əlaqələrinin nəzəri əsasları bir sıra araşdırmaların tədqiqat obyekti olmuş, müxtəlif istiqamətlərdə təhlil edilmişdir. Lakin folklor formul, obraz və motivlərinin orta əsrlər Azərbaycan ədəbiyyatina transformasiyası əsaslı şəkildə tədqiq edilməmişdir. Tədqiqat işində əsas məqsəd qeyd etdiyimiz araşdırma əsasında orta əsrlər Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan şifahi xalq ədəbiyyatının rolunu öyrənib tədqiq etmək, onların bir-birinə bağlılığını araşdırıb üzə çıxarmaqdır. Folklorun və orta əsrlər Azərbaycan ədəbiyyatının tədqiqində aparılan nəzəri-təcrübi araşdırmaların əsas istiqaməti hər iki ədəbiyyatın qarşılıqlı əlaqələrinin nəzəri əsaslarını öyrənmək, eləcə də sənətkarların bədii yaradıcılığında folklor formul, obraz və motivlərindən bəhrələnmə məqamlarını aşkar etməkdir. Klassik ədəbiyyat və xalq sənətinin mənşəyi ilə bağlı tədqiqatçıların mülahizələri , onların bu problemin elmi-nəzəri və bədii estetik əhəmiyyətinə yanaşmaları da tədqiqatımızda özünə yer almışdır. XIII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı ilə bağlı araşdırmalara ümumi şəkildə nəzər saldıqda görürük ki, bu dövr yazıb-yaradan sənətkarlarımızın yaradıcılığının öyrənilməsi, bu istiqamətdə görülən işlər, tarixi-müqayisəli və nəzəri tipoloji təhlillər əsasında işıqlandırılmışdır. Klassika, ənənə və müasirliyin vəhdəti başlıca elmi-nəzəri prinsip kimi ön planda dayanır.

***Açar sözlər:*** *folklor, yazılı ədəbiyyat, orta əsrlər Azərbaycan ədəbiyyatı, klassik ədəbiyyat, mənəvi irs, ədəbi nümunələr, nəzəri-tipoloji yanaşma, xalq şeirinin formaları*

**Sevinj Aliyeva**
Azerbaijan National Academy of Sciences Institute of Folklore
PhD in Philology
sevinc.k.aliyeva@gmail.com

## Mutual relationships of folklore and medieval Azerbaijan literature

**Abstract**

The theoretical foundations of mutual relations between folklore and Azerbaijan written literature of the middle age have been the object of a number of the scientific research and have been analyzed in different directions. But the transformation of folklore formulas, images and motifs in Azerbaijan written literature of the middle age has not been thoroughly researched. The main goal of the research work is to research the role of oral folk literature, which has a special place in Azerbaijan written literature of the middle age, to investigate and reveal their interdependence based on the research we have mentioned. The main direction of the theoretical and experimental studies conducted in the study of folklore and Azerbaijan written literature of the middle age is to study the theoretical foundations of the mutual relations of both literatures, as well as to discover the moments of using folklore formulas, images and motifs in the literary creativity of poets. The opinions of researchers regarding the origin of classical literature and folk art, their approach to the scientific-theoretical and literary aesthetic importance of this problem have also taken place in our research. When we take a general look at the research on Azerbaijani literature of the 13th-18th centuries, we see that the study of the creativity of the poets who wrote and created in this period, the works done in this direction are highlighted on the basis of historical-comparative

and theoretical typological analyses. The unity of classics, tradition and modernity is in the foreground as the main scientific-theoretical principle.

***Keywords:*** *folklore, written literature, Azerbaijan literature of the middle age, classical literature, spiritual heritage, literary examples, theoretical-typological approach, forms of folk poetry*

## Giriş

Orta əsrlər deyəndə, eramızın V əsrindən XV əsrinə qədərki dövr nəzərdə tutulmalıdır. Lakin feodalizm quruluşu, feodal-monarxiya üsul-idarəsi və məfkurəsi XVIII əsrə qədər dəyişməz formada davam etdiyindən bizim eranın orta çağı V-XVIII əsrlər götürülür. Erkən orta əsrlər V-X, Şərqdə intibah dövrü XI-XIV, milli dildə yazılı ədəbiyyatın təşəkülü XIII-XIV, ürfan-təsəvvüf-divan ədəbiyyatı çağı XI-XVIII yüzillikləri əhatə edir. Orta əsrlərdə (V-XVIII əsrlər) Azərbaycanda ədəbiyyat üç dildə yazılmışdır: ərəb, fars, türk. Folklorun formul, obraz və motivləri hər üç formada yaranan ədəbiyyatda özünü göstərir. Çünki Azərbaycanda fars və ərəbcə yaranan ədəbiyyatın da əsas qaynağı ana dilli poetik şifahi xalq yaradıcılığı nümunələri olmuşdur. Janr baxımından orta əsrlərdə üç dilli Azərbaycan ədəbiyyatının lirik və epik şeirin müxtəlif şəkilləri və klassik orijinal nümunələri meydana gətirilmişdir. Qəsidə, qəzəl, rübai, qitə, tərkibənd, tuyuq, məsnəvi, hekayət, qissə, dastan və s. Eləcə də orta əsrlərin ikinci yarısında xalq şeirinin formaları: bayatı, qoşma, gəraylı, müxəmməs, deyişmə və b. şəkillər yazılı ədəbiyyata transformasiya olunmuşdur. Qeyd edək ki, orta əsrlər Azərbaycan ədəbiyyatında xalq bədii təfəkkürünün və qaynaqlarının çoxçalarlı olduğunu akademik Muxtar Kazımoğlunun tədiqatlarında da görürük: “Klassik ədəbiyyatımızın qədim dövrünə nəzər salanda diqqətdən yayınan bir məsələyə heyran qalmamaq mümkün deyil. İndiyədək yazılı epik ənənədə “rəsmi hissə” kimi qəbul edilən (minacat, tovhid, nət, sitayiş, yaradan haqqında) poema, dastan başlanğıclarına dini don geyindirib, təhlildən kənarda qoymuşuq. Lakin Qətran Təbrizi, Xaqani Şirani, Nizami Gəncəvi, Marağalı Əhvədi kimi sənətkarların poetik irsinin həmin hssəsində islam mifoloji görüşləri ilə yanaşı, dünyanın yaranması haqqında xalqımızın daha qədim spesifik inamlarına rast gəlirik. Onların əsərlərinin süjetində mühüm əhəmiyyət kəsb edən hadisələrin də əksəriyyətinin miflərdən yoğrulduğunu görməmək mümkün deyil” (Kazımoğlu, 2006: 470). Akademik Muxtar Kazımoğlu XIII-XVIII əsrlər klassik Azərbaycan ədəbiyyatından söhbət açanda o dövrün sənətkarlıq xüsusiyyətlərini, milli koloritini ustalıqla təhlil edir, tutarlı faktlar gətirib oxucunun xəyalında orta əsrlər Azərbaycan ədəbiyyatı haqqında başqa bir aləm canlandırmağa nail olur.

Məlumdur ki, komik əsərlərdə nəzəri təfəkkür sahiblərimiz də orta əsrlər Azərbaycan ədəbiyyatının bədii-poetik fikrinin müxtəlif tərəflərini incələyərək janr, poetika, milli keyfiyyətlərini öyrənib folklor və klassik ədəbiyyat və onların ayrı-ayrı nümayəndələri arasında ədəbi əlaqələrin, hər iki ədəbiyyatda yer almış örnəklərin xüsusiyyətlərini araşdırmağa müvəffəq olmuşdular. Lakin folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrinin nəzəri əsasları, ədəbi əlaqələri həm praktik tərcümələr fonunda, həm də klassik ədəbiyyatın nəzəri məsələlərinin, poetikasının öyrənilməsi istiqamətində ardıcıl tədqiqatlar aparılsa da, folklor formul, obraz və motivlərinin orta əsrlər Azərbaycan ədəbiyyatına transformasiyası, bu əlaqələrin aktuallığı yetərincə incələnməmişdir. Elə bu nöqteyi-nəzərdən, orta əsrlər Azərbaycan ədəbiyyatı ilə xalq yaradıcılığının ədəbi əlaqələrinin təşəkkülü və inkişafının izlənilməsi günümüz üçün əhəmiyyət kəsb edən tədqiqatdır. Hansı mədəni-mənəvi şəraitdə, ictimai-siyasi dönəmlərdə yaşamağımızdan asılı olmayaraq, klassik Azərbaycan ədəbiyyat bütün tarixi dönəmlərdə şifahi xalq ədəbiyyatı ilə öz mədəni-ədəbi ənənələrini qoruyub saxlamış, folklor örnəklərindən bəhrələnərk onları cilalamaqla inkişaf etmişdir. Bu səbəbdən folklorda və yazılı ədəbiyyatda lirik janrları formalaşdıran amillərin də ədəbi nümunələr əsasında daha dərindən öyrənilməyə ehtiyacı vardır. Tədqiqatımızda folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrinin nəzəri əsasları həm də orta əsrlər Azərbaycan ədəbiyyatının poetikasının öyrənilməsi istiqamətində tədqiq edilmiş, aktuallığı yetərincə qeyd edilmişdir. Bu mənada bir daha qeyd edək ki, folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrinin nəzəri əsaslarının tədqiq edilməsi, formalaşması bu günümüz üçün də xüsusi maraq doğuran və öz həllini gözləyən

önəmli mövzulardan biridir. Professor Qara Namazovun fikrincə, bu dövrlərdə poeziyaya meyl güclənmişdi. Doğma dilimizdə yalnız şifahi ədəbiyyat deyil, yazılı söz sənəti də inkişaf edirdi" (Namazov, 2007: 36). Professor Yaşar Qarayev isə bu məqama fərqli istiqamətdən yanaşaraq qeyd edir ki, Azərbaycan ədəbiyyatşünaslığının həll etməli olduğu ən mühüm problemlərdən biri orta əsrlərin klassik poeziyasında bədii metod məsələsidir. Həmin sahədəki bəzi təşəbbüsləri, xüsusən, Füzuli yaradıcılığında bədii metod məsələsini ilk dəfə olaraq elmi şəkildə irəli sürən professor M.Quluzadənin bir sıra tədqiqlərini qeyd etməklə bərabər, demək lazımdır ki, Azərbaycan ədəbiyyatında romantizmin hüdudları məsələsi, "klassik poeziya və romantizm" problemi hələ öz əsaslı həllini gözləyir (Qarayev, 1976: 70). Qədim zamanlardan bu günə kimi xalqımız ədəbiyyata yüksək dəyər vermiş, özünün mənəvi dünyasını, əxlaqi-mədəni baxışlarını, milli-fəlsəfi fikirlərinin ifadəsini məhz ədəbiyyatla gercəkləşdirmişdir. Ədəbiyyatın folklor və yazılı ədəbiyyat olaraq iki qrupa bölünməsi belə onun bədii əhəmiyyətini və təsir gücünü azaltmamış, əksinə oxucuya estetik zövq vermişdir, bu gün də verir. Çünki həm folklor, həm də yazılı ədəbiyyat nümunələrində ifadə olunan gerçəklik insanların arzu və istəklərinin ideya-mənəvi qaynağıdır. Folklorun bədii gücü yazılı ədəbiyyat nümunələrini də xalq ruhu, xalq abu-havası ilə də təmin etməsindədir.

Bilirik ki, folklorşünaslıq bir elm olaraq şifahi xalq ədəbiyyatı nümunələrinin tədqiqi və öyrənilməsi, xalq yaradıcılığı nümunələrinin araşdırılması ilə məşğuldur. Folklor minillik tarixi olan və bitməyən mənəvi bir sərvətdir. Sənətkarların yaradıcılığında folklor elementləri, motivləri, formul və obrazlarının işlənməsini xüsusi vurğulayan filologiya elmləri doktoru Ağaverdi Xəlil "Folklorşünaslığa giriş" adlı kitabında yazır ki, folklorun estetik əhəmiyyəti ilk öncə onunla şərtlənir ki, o dil, fikir və bədii düşüncənin əsasında xalqın yaratdığı mükəmməl bir söz sənətidir. Folklor xəyal, təxəyyül, fantaziya və simvolikadan sənətkarlıqla istifadə edərək gerçəkliyi dolayı yolla motivləndirir və onu poetikləşdirir. Bu poetikləşdirmə, sənət yaratma prosesində əsas vəzifəni xalqın bədii zövqü yerinə yetirir. Yəni xalqın bədii zövqü folklorun estetik ölçülərini müəyyənləşdirən və modelləşdirən əsas faktor rolunda çıxış edir. Folklor formaları əsrlərlə xalq sənətkarları tərəfindən cilalanıb və estetik ölçülərini sabitləşdirib. Ona görə də folklor estetik hissi, gözəllik hissini, dil, ritm və forma gözəlliyi duyğusunu inkişaf etdirir. Folklorun estetik gücü ədəbiyyat, musiqi, teatr və s. kimi sənət növlərinin inkişafında böyük əhəmiyyət daşıyır. Nizami kimi dahi şairin əsərlərinin əsas qaynağı folklordur. Füzulinin yaradıcılığında folklordan yaradıcı şəkildə istifadə olunur və bu ədəbi ənənə şəklini alır və müasir dövrdə də davam edir. Müasir ədəbiyyatda Sabirin, Cəlilin, Cəfərin, Cavidin, Səmədin, Mir Cəlalın, Bəxtiyarın və başqa onlarla ədibin yaradıcılığında folklor elementləri, motivləri bu və ya başqa şəkildə işlənmişdir (Xəlil, 2014: 22). Bunu da qeyd edək ki, ağsaqqal və ağbirçəklərimiz, eləcə də müdriklərimiz də müdrik fikirlərini, duyğu, hiss və həyacanlarını ifadə etmək üçün xalq ədəbiyyatına müaciət etmiş, bununla folklorun öyrənilməsi, qorunması üçün həm xidmət göstərmişlər, həm də cəmiyyətin, insanlığın nəaliyyəti, inkişafı folklor vasitəsilə gələcək nəsillərə ötürülmüşdür. Folklor tariximizi, ədəbiyyatımızı qoruyaraq yaşadan, yaşadaraq dünyada gedən mədəni inteqrasiyanın ədəbiyyata da müsbət təsirinə səbəb olur. Klassiklərimizin hər birinin yaradıcılığında xalq ədəbiyyatına müxtəlif aspektlərdən müraciət olunur. İzzətdin Həsənoğlu, İmadəddin Nəsimi, Qazi Bürhanəddin, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli və sair yaradıcılığında folklorun özünəməxsus yeri var və bu özünəməxsusluq gələcək xalq ədəbiyyatının bünövrəsinin möhkəm təməl üzərində qoyulduğunu nişan verir. Klassik ədəbiyyatımıza, tarixi keçmişimizə bağlı olan professor Ramazan Qafarlı nəsrin klassik və müasir təcrübəsindən çıxış edərək yazır: "Nəsrin klassik və müasir təcrübəsindən aydın olduğu kimi, daxili monoloqun məzmun və forması düşünən qəhrəman tipindən çox asılıdır. Düşünə bilmək söz sənəti tarixində xüsusi estetik mahiyyət kəsb edir: adətən, o qəhrəmanlar düşünürlər ki, onlar özlərini və ətraf mühit hadisələrini qiymətləndirməyi bacarırlar; düşünən qəhrəman sadəcə olaraq mühitin sıravi nümayəndələrindən biri deyil, mühitlə konfliktə girə biləcək bir adamdır; o, daxili konflikt, ikiləşmə anları yaşayır, özünü yad bir adam kimi götür-qoy və ittiham edə bilir" (Qafarlı, 2011: 110-111).

Folklorun tarixi çox qədimdir. Buna görə də onun dəyəri hər şeydən əvvəl uzun bir inkişaf yolu keçməyi ilə müqayisə edilir. Xalq ədəbiyyatı nümunələri tariximizin ayrı-ayrı dövrlərində qədim

adət-ənənələrə əsaslanaraq yaranmış və hər biri tarixi dövrdə yeni məna və məzmun qazanaraq formalaşmışdır. Yazılı ədəbiyyatda isə xalq ədəbiyyatı nümunələri yeni şəkildə ifadə olunur və canlandırılır. Şifahi xalq ədəbiyyatı tarixən çox qədimdir. Xalq ədəbiyyatının ilk nümunələri insan cəmiyyətinin formalaşdığı ən qədim vaxtlara təsadüf edir. Hələ yazının olmadığı vaxtlarda insanlar öz duyğularını, hisslərini, düşüncələrini müxtəlif bədii formalarda ifadə etmiş və şifahi xalq ədəbiyyatı yaranmışdır. Sonra isə get-gedə formalaşaraq yazılı ədəbiyyata keçmişdir. Bu gün Azərbaycanın görkəmli klassikləri dünyanın hər yerində tanınır. Klassik ədəbiyyatın mahir araşdırmaçılarından olan professor Mir Cəlal yazır: “Klassik ədəbiyyatı öyrənmək yalnız “tarix ilə məşğul olmaq”, keçmişi öyrənmək deyil, eyni zamanda, bugünkü ədəbi mübarizələrdə fəal surətdə iştirak etmək, müasir ictimai-siyasi tələblər səviyyəsində əsərlər yaratmaq və inkişaf etdirmək işində də zəruri bir şərtdir” (Paşayev, Xəlilov, 1998: 51). Folklorun əsas sütunu olan xalq ədəbiyyatı nümunələri rəngarəng məna tutumu ilə fərqlənir. Folkloru qorumaq, xalq ədəbiyyatı nümunələrinə sahib çıxmaq, xalqına, vətəninə, mədəniyyət və ədəbiyyatına bağlı olmaq hər bir vətəndaş üçün başlıca şərtlərdəndir. Mənbələrdə də göstərilir ki, Azərbaycan ədəbiyyatının qədim və orta yüzilliklər dövrünün öyrənilməsi XX yüzilliyin əvvəllərində başlanmış və bu sahədə F.Köçərli xeyli iş görmüşdür. Onun 1903-cü ildə rus dilində çap etdirdiyi “Azərbaycan tatarlarının ədəbiyyatı” və 20-ci illərdə çap edilən “Azərbaycan ədəbiyyatının tarixi materialları” adlı əsərləri bu sahədə atılmış ilk addımlardır. Ancaq F.Köçərli Vaqif və Vidadini Azərbaycan ədəbiyyatının baniləri sayır, ədəbiyyatımızın tarixini də məhz onlarla başlayır (Səfərli, Yusifli, 2008: 5). Qeyd etdiyimiz kimi, üç dildə yazılmış orta əsrlər Azərbaycan ədəbiyyatı lirik və epik şeirin müxtəlif şəkilləri və klassik orijinal nümunələri- qəsidə, qəzəl, rübai, qitə, tərkibənd, tuyuq, məsnəvi, hekayət, qissə, dastan və s. ilə meydana gəlmişdir. Eləcə də orta əsrlərin ikinci yarısında xalq şeirinin formaları: bayatı, qoşma, gəraylı, müxəmməs, deyişmə və b. şəkillər yazılı ədəbiyyata transformasiya olunmuş və yazılı ədəbiyyatla folklor münasibətlərində ən geniş yayılmış janrlar kimi klassik ədəbiyyatla xalq ədəbiyyatının tədqiqi təcrübəsində mühüm yer tutaraq çoxsaylı tədqiqatların əsas predmeti olmuşdur. Ədəbiyyatın daşıyıcısı olan söz öz zəngin məna tutumu ilə seçilərək Azərbaycan folklorunun və eyni zamanda klassik ədəbiyyatının təməl sütunu və əsas ölçü meyarı kimi çıxış edir. Şifahi xalq ədəbiyyatı nümunələri tarixin, zamanın hüdudlarından keçərək əbədi olaraq folkorun yaddaşına həkk olundu. Şifahi xalq ədəbiyyatı nümunələri zaman-zaman müxtəlif təziqlərə məruz qalsa belə, onlara sahiblənmək folklor araşdırmaçılarının ən ümdə vəzifələrindən biri olmuşdur. Tarixi, ədəbi mənbələrdən də bəllidir ki, klassik ədəbiyyatda da daim xalq ədəbiyyatı nümunələri öz əksini tapmış və bədii düşüncənin özülünü təşkil etmişdir.

XVIII əsrin sonu XIX əsrin əvvəllərindən başlayarq Azərbaycan ədəbi düşüncəsinin inkişafında ciddi dəyişiklik baş verir. Belə ki, zamanın, ədəbi fikrin istəyi ilə sadə dildə yeni məzmunlu yazılı ədəbiyyat nümunələri yaranırdı. Ancaq ədəbi fikir tarixində baş verən sadə dil və məzmun klassik ədəbi ənənələri əsla inkar etmir, çünki Azərbaycan ədəbiyyatında dramaturgiyanın banisi M.F.Axundovdan başlamış, XX əsrin yazılı ədəbiyyatda öz sözünü demiş sənətkarlarının hər biri bu klassik ənənəyə sadiq qalmışlar. Amma bir məqamı da xüsusi vurğulamalıyıq ki, XIX əsrin otuzuncu illərindən bəri klassik ədəbi ənənələrin bir çoxu itməyə başladı, bunlar arasında bədii əsərlərin ideya məzmununu arxa plana verib, formanı üst qata qaldıran bədii-estetik meylə dönüşü qeyd edə bilərik. Bu isə əski əlifbanın xüsusiyyətlərindən irəli gələn sənətkarlıq formalizmi ilə əlaqədar olan məsələlərdən biridir. Onu da bilirik ki, orta əsrlərin tədqiqat əsərlərində klassik ədəbi nümunələr, xüsusilə poetika öz kökündən ayrılıb fərqli formalarda tədqiq olunurdu. Amma milli ədəbi nümunələrimizin özünəməxsus cəhətləri saxlanılmaqla, həm bədii-üslub cəhətdən, həm də poetik quruluş cəhətdən tədqiq edilməlidir. Bəli, ədəbiyyatşünaslıq inkişaf etdikcə başqa sistemlərdən istifadə etmək təbiidir, məsələn, rus-avropa sistemlərini nümunə göstərə bilərik, lakin qeyd etdiyimiz kimi, milli özəlliklərdən uzaqlaşmamaq şərtilə bunu etmək lazımdır. Bu nöqteyi-nəzərdən orta əsrlər Azərbaycan ədəbiyyatı nümunələri forma və məzmun baxımından fərqlənmiş, milli sərvətə çevrilmişdir.

Qeyd etmək istədiyimiz əsas məqamlardan biri də budur ki, ədəbi əsərləri təhlili zamanı vacib məqamlar nəzərə alınmalıdır:

1. Milli-düşüncə, tarixi köklərə bağlılıq.
2. Nəzəri tipoloji yanaşma.
3. Bədii poetik spesifikası.

Belə qənaətə gəlirik ki, şifahi xalq ədəbiyyatı nümunələrinin tarixi-nəzəri köklərinin tədqiqi və onun klassik ədəbiyyat nümunələri ilə əlaqə və münasibətlərinin öyrənilməsi mühüm məsələlərdən biridir. Folklor və klassik ədəbiyyatın qarşılıqlı əlaqələrinin bütövlüyünü və incəliklərini məhz bu dövrü öyrənib tədqiq edən alimlərimizin sayəsində qoruyub gələcək dövrə çatdıra bilərik. Belə ki, Həmid Araslı, Məmməd Arif, Mirzağa Quluzadə, Mir Cəlal Paşayev, Məmməd Cəfər, Əziz Mirəhmədov, Əlyar Səfərli, Pənah Xəlilov, Mahirə Quliyeva, Muxtar Kazımoğlu, Vaqif Sultanlı, Əfzələddin Əsgər, Seyfəddin Rzasoy, Ağaverdi Xəlil, Ramazan Qafarlı və sair Azərbaycan klassik ədəbiyyatının tədqiqi və öyrənilməsində böyük xidmətləri olan alimlərimizdir. Folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrinin nəzəri əsaslarını öyrənib araşdırmaq, sənətkarlıq məsələlələrinə istinad edib klassik irsin öyrənilməsi, eyni zamanda onlara xas xüsusiyyətləri görmək bu mövzuya həsr olunmuş yeni bir tədqiqat əsərinin ərsəyə gəlməsi deməkdir. Klassik ədəbiyyatımız zaman-zaman tədqiqat obyektinə çevrilsə də, folklorun formul, obraz və motivlərinin klassik söz ustalarının yaradıcılığına transformasiyası və bu istiqamətdə gerçəkliyin insan, zaman və məkan kontekstində bədii-fəlsəfi təcəssümü problemi ilk dəfə sistemli şəkildə elmi tədqiqata cəlb olunur.

Klassik ədəbiyyatı tədqiq etmək ona xas olan gözəlliklərə sahiblənmək deməkdir. Klassik zəmin və sənətkarlıq xüsusiyyətlərinin əsas götürülməsi folklor formul, obraz və motivlərinin orta əsrlər Azərbaycan ədəbiyyatına transformasiyasının gələcək hədəflərinin müəyyənləşməsi məsələsində də mühüm rol oynayır. Folklor formul, obraz və motivlərinin orta əsrlər Azərbaycan ədəbiyyatına transformasiyasının tədqiq edilib öyrənilməsi bilavasitə folklorda və yazılı ədəbiyyatda lirik janrları formalaşdıran amillərin, epik ənənələrin öyrənilməsində əvəzsiz xidmətdir. XX əsrin 50-ci illərindən bu günümüzə qədər aparılmış tədqiqatlar diqqətimizi daha çox çəkir. Çünki orta əsrlər Azərbaycan ədəbiyyatı ilə bağlı aşkar edilmiş mənbələrin ilkin nüsxələr əsasında yenidən mükəmməl hala gətirilməsi məhz bu dönəmə təsadüf edir. Təbii ki bu təkmilləşdirmənin əsasını əski əlifba ilə yazılmış qaynaqlar, müəllif mətnləri, eləcə də əlyazmalar təşkil edir. Bunu da qeyd edək ki, orta əsrlər Azərbaycan ədəbiyyatına aid ədəbi nümunələrin böyük hissəsi nadir nüsxələrə çevrilmişdir.

1982-ci ildə ulu öndərimiz Heydər Əliyevin sərəncamı ilə Əlyazmalar fondunun Ali sovetin binasına köçürülməsi, ardınca 1985-ci ildə yenidən prezidentin təşəbbüsü ilə Əlyazmalar fondunun Məhəmməd Füzulinin adına Əlyazmalar İnstitutu kimi fəaliyyətini davam etdirməsi diqqəti orta əsrlər Azərbaycan ədəbiyyatına aid mətnşünaslıq və mənbəşünaslıqla bağlı tədqiqatlara, eləcə də arxiv materiallara və əski əlifba ilə yazılmış kitablara yönəldir. Qeyd etdiyimiz bu məqamlar isə müqayisəli tədqiqatların aparılmasına böyük zəmin yaradır. Lakin bu tədqiqatlarda əsərin orijinal variantları və müəlliflərin fikri, məqsəd və məramı arxa plana keçsə də, əsas odur ki, mövzunun aktuallığı hər zaman diqqət mərkəzindədir. Çünki Azərbaycanda farsca və ərəbcə yaranan ədəbiyyatın da əsas qaynağı ana dilli poetik şifahi xalq yaradıcılığı nümunələri olmuşdur. Janr baxımından orta əsrlərdə üç dilli Azərbaycan ədəbiyyatının lirik və epik şeirin müxtəlif şəkilləri və klassik orijinal nümunələri meydana gətirilmişdir. Qəsidə, qəzəl, rübai, qitə, rübai, tərkibənd, tuyuq, məsnəvi, hekayət, qissə, dastan və s. Eləcə də orta əsrlərin ikinci yarısında xalq şeirinin formaları: bayatı, qoşma, gəraylı, müxəmməs, deyişmə və b. şəkillər yazılı ədəbiyyata transformasiya olunmuşdur. Təqribən 2000-ci illərdən başlayaraq klassik Azərbaycan ədəbiyyatının öyrənilməsində milli kökə, milli ruha və maraqlara bağlılıq ön plana keçdi. Araşdırdığımız mövzunu folklor və yazılı ədəbiyyatın qovşağında tədqiq etməklə bu sistemli tədqiqatın araşdırmasını təmin etmiş oluruq. Folklor və yazılı ədəbiyyat nümunələri bu tədqiqatı yerinə yetirmək üçün ən optimal vasitələrdən biri hesab olunur. Professor Seyfəddin Rzasoy folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrinin nəzəri xüsusiyyətlərini araşdıraraq müəyyən müqayisələr aparmışdır: "Tarixi həqiqət və ədəbi-tarixi faktlar göstərir ki, yazılı ədəbiyyat meydana gəldikdən sonra şifahi xalq ədəbiyyatı aradan çıxmamış, yazılı ədəbiyyatla yanaşı yaşamış, inkişaf edib zənginləşmişdir. Maddi və mənəvi sərvətləri yaradan xalqın bilavasitə universal poetik sənəti kimi

folklor yaşamış, forma və janr müxtəlifliyi saxlamaqla yeni motivli əsərlər hesabına zənginləşmişdir ("Nizami Gəncəvi və folklor", 2013: 175).

Klassik ədəbiyyatımızın, mənəvi irsimizin öyrənilməsinə Azərbycanda sovet hakimiyyətinin qələbəsinin ilk illərindən başlanmışdır. Dövlət əhəmiyyətli bu məsələyə klassik ədəbiyyat nümunələrinin nəşri də daxil olmaqla görülən işlər öz bəhrəsini vermişdir. Nəticədə isə folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrinin nəzəri əsasları fonunda klassik ədəbiyyat nümunələrinin öyrənilməsi, nəşri və təbliği klassik irsə münasibətin parlaq təzahürü kimi ədəbiyyat tarixinə həkk olunmuşdur. Klassik irsimizə aid bu qərarın elmi-nəzəri, ədəbi-bədii, ictimai-siyasi, əhatə dairəsi və praktik əhəmiyyəti çox genişdir. Onu da qeyd edək ki, klassik irsimizin tədqiqi ilə məşğul olmuş, bu sahədə çoxlu namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir. Lakin folklor formul, obraz və motivlərinin orta əsrlər Azərbaycan ədəbiyyatına transformasiyası adlı tədqiqat işimiz aktual tədqiqat isiqamətlərindən biridir. Bu tədqiqat mövzusu bütövlükdə orta əsrlər Azərbaycan ədəbiyyatının daha köklü şəkildə araşdırılmasına, Qətran Təbrizinin "Divanı", Nizami Gəncəvinin "Xəmsə"si, Xaqani Şirvaninin poema və şeirləri, Məhsətinin rübailəri, İmadəddin Nəsiminin külliyyatı, Marağalı Əhvədinin "Cami-cəmi", eləcə də Fədai və Qövsinin, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Vidadi və Vaqifin, Nəbatinin, Qasım bəy Zakir və Seyid Əzim Şirvaninin, Mirzə Şəfi Vazehin və s. şair və yazıçılarımızın əsərlərinin nəşri və təbliğinə nəzər salmağı, bu mövzuda görüləsi işləri müəyyənləşdirib həyata keçirməyi aktual bir araşdırma mövzusu kimi qarşımıza qoyur. Pedaqogika üzrə fəlsəfə doktoru Fəxrəddin Yusifov isə orta əsrlər Azərbaycan ədəbiyyatına aşağıdakı istiqamətdə yanaşmışdır: "Digər tərəfdən, orta əsrlərdə hakim olan ideologiyanın ağır təzyiqləri XIV əsrlərdə açıq və gizli mübarizə üçün zəmin oldu. Müxtəlif təriqətlərin, cərəyanların yaranmasının bir mühüm səbəbi də məhz bu idi. Azərbaycanda, eləcə də yaxın və orta şərqdə ən geniş yayılmış təriqət isə hürufilik idi. Bu təriqətin başçısı və nəzəriyyəçisi Azərbaycan alimi və şairi Şeyx Fəzlullah Nəimi olmuşdur (Yusifov, 2022: 238).

Təbii ki, klassik Azərbaycan ədəbiyyatı incilərinin tədqiqi və nəşr işinin bir hissəsi olan "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanlarının, atalar sözləri və məsəllərin, nağılların, aşıq ədəbiyyatının, bayatıların müxtəlif zamanlarda nəşri klassik ədəbiyyatla yazılı ədəbiyyatın qarşılıqlı tədqiqinin diqqət mərkəzində olduğunun bariz nümunəsidir. Bunlarla bərabər, klassik ədəbi irsimizin böyük bir qismi hələ də nəşr olunmayıb. Belə ki, onların sətri və poetik tərcümələrini nəşr etdirmək gərəkdir. Bu baxımdan görüləsi işlər çoxdur. Tədqiq etdikcə görürük ki, bunlar arasında Azərbaycan dilində olan əsərlər daha çox diqqətimizi cəlb edir. Bu dildə ilk yazılı ədəbiyyat nümunəsi kimi bizə çatan və Şərqdə "Yusif və Züleyxa" dastanı kimi şöhrət qazanan bu mövzunun türk aləminə ilk dəfə qələmə alan Qul Əlinin "Qisseyi-Yusif" poeması, Qazi Bürhanəddinin lirikası, Şəmsin "Yusif və Züleyxa", Yusif Məddahın "Vərqa və Gülşa" poemaları, Həqirinin Azərbaycan dilində ilk "Leyli və Məcnun" poeması, Kişvərinin Azərbaycan dilindəki "Divan"ı, Əmaninin və Sadıq bəy Əfşarın şeirləri, Məhcur Şirvaninin "Qisseyi Şirzad" poeması, eləcə də Azərbayan dilində yazıb yaradan başqa sənətkarların əsərləri orta əsrlər Azərbaycan ədəbiyyatının tədqiqi üçün nə qədər əhəmiyyətlidirsə, ədəbi dil tarixi üçün də o qədər faydalıdır. Tədqiqini gözləyən əsərlərin digər qismi isə fars və ərəb dillərində yazılmışdır. Şah Qasim Ənvarın külliyyatı, Saib Təbrizinin üç yüz min beytdən ibarət şeirləri, Əssar Təbrizinin "Mehr və Müştəri" əsəri, Kişvərinin fars dilindəki "Divan"ı, Əhməd Təbrizinin "Əsrarnamə"si, Arif Ərdəbilinin "Fərhadnamə" poemasını oxuduqca onlarda folklor janrlarından istifadə yollarını, eləcə də sənətkarların özlərinin yaratdıqları poetik nümunələrin çalarlarını aydın şəkildə görürük. Bütün bunlarla bərabər qeyd etməliyik ki, bu günə qədər nəşr olunmayan orta əsrlər Azərbaycan ədəbiyyatına aid ədəbi nümunələr də var. Onlardan Xaqani Şirvanini nümunə göstərə bilərik. Şairin iyirmi beş min beytdən artıq irsindən beş min beytə qədəri Azərbaycan dilində çap olunmuşdur. Xaqanin Şirvaninin məktublarının çapı da böyük əhəmiyyət kəsb edir. Marağalı Əhvədinin "Cami-Cəm" əsəri də oxucuların daim marağına səbəb olub. Əski ədəbiyyat, klassik ədəbiyyat, islami ədəbiyyat, zadəgan ədəbiyyatı, saray ədəbiyyatı, məhəbbət ədəbiyyatı kimi adlarla öyrəndiyimiz qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı daha çox divan ədəbiyyatı adı ilə tədqiq olunmuşdur. Çünki bu dövrdə yazıb-yaradan sənətkarlarımız öz sənət incilərini, şeirlər toplusunu divan adlandırmışdılar.

Bunu da qeyd edək ki, fərq etməz, Azərbaycan, ya da ərəb, fars dillərində yazan şairlərimizin əsərlərinin böyük bir qismi bizə gəlib çatmışdır və hər biri elmi-nəzəri əhəmiyyətə malikdir. Klassiklərimizin bədii əsərlərində əksini tapmış elmi məlumatlarn hər biri onların bəşəriyyətin əldə etdiyi yeniliklərdən nə qədər çox xəbərdar olduğunun bariz nümunəsidir. Məhz buna görədir ki, bu dövrdə yazılmış əsərlərin bir qismini yüksək elmi tədqiqat əsəri səviyyəsindədir. Və ya ərəb dilində yazıb-yaratmış Xətib Təbrizinin elmi tədqiqat üslubunda olan orijinallıq onların əhəmiyyətinin bu gün də saxlanılmasına xidmət edir. Həm Mahmud Şəbüstərinin, həm də Əssar Təbrizinin elmi irsinin də çapa hazırlanması vacibdir, hansı ki həmin elmi irsdə sənətkarlıq, ədəbiyyat və dilçilik məsələlərindən bəhs edilir. Çünki orta əsrlər Azərbaycan ədəbiyyatı fəlsəfə xəzinəsidir və bu xəzinənin folklorla müqayisə olunub tədqiq edilməsi elmi dairəyə əvəzsiz söz sərvəti bəxş etmiş olur. Professor Vüqar Əhmədin aşağıdakı araşdırması klassik irsin öyrənilməsində əvəzsiz xidmətinin bariz nümunəsidir: "Orta əsrlərin estetik fikrinin öz inikasını tapdığı ilk Azərbaycan mənbələrindən tədqiqatçıların nəzərini ən çox cəlb edəni Xətib Təbrizinin "Şərhül-həmasə", Mərzban Bəhmənyarın "Kitabül-bəhcət və əs-səvdət" (XI əsr), Şərifəddin Həsən Rami Təbrizinin "Hədaiqül Həqaiq" və "Ənisül-ümmaq (XIV əsr), Vahid Təbrizinin "Risaleyicəmi-müxtəsər" (XXI əsr), Sadıq bəy Əfşarın "Qanun us suvər" (XVI-XVII əsrlər), Məhəmməd Rəfi Dostməhəmməd oğlunun "Məşrəbulətşai"(XVII əsr), Mirzə Əbutalib Təbrizinin "Xilasə-tül-əfkar" (XVIII əsr) əsərləridir" (Əhməd, 2007: 12). Göründüyü kimi, orta əsrlər Azərbaycan ədəbiyyatına aid hələ çap olunmamış ədəbi nümunələr olduğu kimi, çap olunmuş əsərlərin isə bir çoxunun təkrarən nəşrinə ehtiyac var. Tərcümə edilmiş bədii əsərlərinin çoxunun orijinal nüsxəyə yaxınlığı və poetik cəhətdən səviyyəsi zamanımız üçün qənaətbəxş olmadığından yenidən daha mükəmməl tərcümələri reallaşdırmaq məqsədəuyğun hesab edilir. Bunu Azərbaycan dilində yazılmış klassik əsərlərə də aid etmək vacibdir. Çünki onların geniş elmi-tənqidi mətnləri hələ də çap olunmayan nüsxələr sırasındadır. Deməк, klassik əsərlərin tərcümə və nəşri məsələlərinə də məsuliyyətlə yanaşmaq lazımdır. Folklor və yazılı ədəbiyyat bir-birinə daha çox yaxınlaşdıqca, bir-birindən bəhrələndikcə, tədqiqatçılar tərəfindən hər iki ədəbi qolun bu günü ilə yanaşı, bir-birinin tarixi keçmişinə, adət-ənənəsinə, klassik irsinə də yanaşması və marağı da artır. Folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrinin nəzəri əsasları, eləcə də folklor formul, obraz və motivlərinin orta əsrlər Azərbaycan ədəbiyyatına transformasiyası hər iki ədəbiyyat arasında əlaqələrin genişlənməsində, epik ənənənin həm folklorda, həm də yazılı ədəbiyyatda təşəkkülü üçün böyük vasitədir. onun klassik dövrünə geniş yer ayırmasını ədəbiyyatımıza verilən qiymətin və ümumittifaq oxucusunun ona böyük marağının təzahürü kimi qəbul etməliyik. Bütün bunlar və imkanların çoxluğu ədəbiyyatlar qarşısında məsuliyyətli vəzifələr qoyur. Lakin bu işin yalnız ədəbi-bədii deyil, ictimai-siyasi əhəmiyyətini lazımi dərəcədə qiymətləndirməliyik. Professor R.Əliyevin araşdırmalarında isə klassik ədəbi dil haqqında aşağıdakı mühüm keyfiyyətləri görürük: "Klassik ədəbi dil ibtidai savadlı adamların başa düşməsi üçün çətin bir dil idi. Lakin bu ədəbi dil Azərbaycan xalqının orta əsrlərdə yaratdığı ədəbi, fəlsəfi, dini, elmi, tarixi əsərlərin dili kimi milli mədəniyyətimizin yaranmasında və sonrakı nəsillərə çatdırılmasında misilsiz rol oynadı. Bu Azərbaycan mədəniyyətinin islami epoxasının, qızıl əsrlərin dilidir, qiymətsiz milli sərvətimizdir (Əliyev, 2008: 155). Azərbaycan ədəbiyyatının mühüm bir dövründə XIII-XVIII əsrlərdə yaşayıb, yazıb-yaratmış sənətkarların yaradıcılığı öyrənilmiş, çoxlu arxiv sənədləri, tarixi faktlar, şəxsiyyətlər tədqiqata cəlb edilmiş, onların haqqında mükəmməl məlumat toplanmışdır. Diqqətimizi bu məqam da çəkir ki, eyni dövrdə yaşayıb-yaratmış sənətkarların özünəməxsus fərdi yaradıcılıq xüsusiyyətləri, bir-biri ilə qarşılıqlı əlaqələri çox ustalıqla, incə zövqlə, dərin müşahidə ilə təhlil edilir. Bunun haqqında professor Nizami Tağısoy Malkar-Azərbaycan ədəbi əlaqələrinə müxtəsər ekskurs" adlı məqaləsində yazır: "Milli ədəbiyyatların qarşılıqlı əlaqələri müxtəlif formalarda özünü əks etdirir. Bir sıra tanınmış mütəxəssislər bu əlaqələrin müxtəlif formalarını müəyyənləşdirmişlər. Onların sırasında təsir, əxzetmə, təqlid, stilizasiya, obrazlı analogiya və əlbəttə, tərcümə fərqləndirilir" (12).

## Nəticə

Orta əsrlər Azərbaycanda ədəbiyyatının xalq ədəbiyyatı ilə qarşılıqlı əlaqələrinin nəzəri əsaslarının bir problem kimi tədqiqi araşdırmamızın aktual vəzifələrindəndir deyə bilərik. Çünki folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrinin nəzəri əsasları müasir dövrümüz üçün də əhəmiyyət kəsb edən bir mövzudur və fərqliliklərlə səciyyələnir. Bununla belə, bilirik ki, xalqın ruhu, mənəvi güzgüsü, zənginliyi olan klassik ədəbiyyat milli-mənəvi dəyərlərin keçmiş nəsildən gələcək nəslə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Tədqiqatın nəzəri-metodoloji əsasını tanınmış folklorşünas və ədəbiyyatşünasların folklor və XIII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı ilə bağlı elmi-nəzəri fikirləri təşkil edir. Orta əsrlər Azərbaycanda ədəbiyyatının təşəkkül və inkişaf prosesi həm yazılı, həm də şifahi ədəbiyyatda spesifik xüsusiyyət və cizgilər kəsb edir. Təbii ki, bunun sirri də folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrinin kökündə xalqın mənəvi və ruhi dünyasının dayanmasıdır.

## Ədəbiyyat

1. Kazımoğlu, M. (2006). Xalq gülüşünün poetikası (monoqrafiya). Bakı: Elm, 268 s.
2. Namazov, Q. (2007). Azərbaycan uşaq ədəbiyyatı. Ali məktəblər üçün dərslik. Bakı: Bakı Universiteti, 444 s.
3. Qarayev, Y. (1976). Tənqid: problemlər, portretlər. Bakı: Azərnəşr, 212 s.
4. Xəlil, A. (2014). Folklorşünaslığa giriş (dərs vəsaiti). Bakı: Elm və təhsil, 84 s.
5. Qafarlı, R. (2011). Mif, əfsanə, nağıl və epos (epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU, 780 s.
6. Paşayev, M.C., Xəlilov, P.İ. (1998). Ədəbiyyatşünaslığın əsasları . Ali məktəblər üçün dərslik (yenidən işlənmiş və təkmilləşdirilmiş II nəşri). Bakı: Maarif, 280 s.
7. Səfərli, Ə., Yusifli, Y. (2008). Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Bakı: Ozan, 696 s.
8. "Nizami Gəncəvi və folklor". (2013). Tərtib edəni: Seyfəddin Rzasoy. Bakı: Nurlan, 214 s.
9. Yusifov, F. (2022). Ədəbiyyatın tədrisi metodikası. Ali məktəbin bakalavriat təhsil səviyyəsi 050101-Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası tələbləri üçün dərslik (yenidən işlənmiş və təkmilləşdirilmişdir). Ankara, 413 s.
10. Əhməd, V. (2007). Ədəbiyyatşünaslıq. Dərslik. Bakı: Müəllim, 167 s.
11. Əliyev, R. (2008). Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 360 s.
12. https://www.elibrary.az/docs/jurnal/jrn2017_1109.pdf

Göndərilib: 15.10.2023 Qəbul edilib: 19.12.2023

DOI: https://doi.org/10.36719/2663-4619/98/27-34

**Asəf Əliyev**
Naxçıvan Dövlət Universiteti
riyaziyyat üzrə fəlsəfə doktoru
aliyevasef@ndu.edu.az

# YÜK DAŞIMALARININ TƏŞKİLİNİN QABAQCIL METODLARI

**Xülasə**

Məqalədə avtomobil nəqliyyatı ilə yük daşıma prosesi araşdırılmışdır. Burada, yük daşınması zamanı qabaqcıl metodların tətbiqi nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, yük daşımaları zamanı bu metodların tətbiq olunması ilə nəqliyyat prosesinin bütün sahələrində əmək məhsuldarlığını artırmaq olar. Qabaqcıl metodların tətbiqi ilə daşımanın, yükləmənin, boşaldılmanın və yükün müşaiət edilməsinin maya dəyərinin azaldılması ilə səmərə əldə etmiş oluruq. Bu zaman, yük daşınmasında ekspeditorların sayının və yükləyicilərin köməyi ilə əmək haqqı məsrəflərinin azalmasına və nəqliyyat xərclərinin aşağı salınmasına nail olmuş oluruq.

***Açar sözlər:*** *yük daşımaları, daşıma prosesi, nəqliyyat xərcləri, mərkəzləşdirilmiş daşıma, ekspedisiya xidməti*

**Asaf Aliyev**
Nakhchivan State University
doctor of philosophy in mathematics
aliyevasef@ndu.edu.az

## Advanced methods of organization of cargo transportation

**Abstract**

The article studies the process of cargo transportation via vehicles. Here, the application of advanced methods during cargo transportation is viewed. It has been determined that labor productivity can be increased in all fields of the transportation process by applying these methods during cargo transportation. By applying advanced methods, we achieve results by reducing the cost of transportation, loading, unloading, and accompanying cargo. At the same time, with the help of freight forwarders and shippers, we achieve a decrease in labor costs and lower transportation costs.

***Keywords:*** *cargo transportation, transportation process, transportation costs, centralized transportation, forwarding service*

## Giriş

Yükün yerdəyişməsi prosesində əsas iştirakçılar yükü istehsal və istehlak edənlər yox, yük sahibi və daşımaçılardır. Yükün nəql edilməsi zamanı onun dəyəri artdığından həmişə çalışırlar ki, nəqliyyat xərclərinə qənaət olunsun. Bu qənaət yükün qorunması, təhlükəsiz və vaxtında çatdırılmasına zərər vurmaq hesabına olmamalıdır.

Yük daşımalarında nəqliyyat xərclərinin aşağı salınması məsələsi öz aktuallığını saxlamaqdadır. Məlumdur ki, daşımaların maya dəyəri nəqliyyatın işinin əsas göstəricilərindən biridir. Maya dəyəri dedikdə avtomobil nəqliyyatı ilə daşımaların yerinə yetirilməsində istifadə olunan bütün növ resursların sərfinin dəyər qiymətləndirilməsi başa düşülür.

Avtomobil daşımalarının maya dəyərinə nəqletdirilmə xərcləri, ekspedisiya əməliyyatlarının, yükləmə-boşaltma işlərinin yerinə yetirilməsinə sərf olunan xərclər və yol xərcləri aiddir (Cavadov, 2004: 72).

Daşımaların maya dəyərinin texniki istismar göstəricilərindən asılılığını müəyyən etmək üçün onu iki hissəyə: dəyişən xərclər (yanacaq, istismar materialları, şin, texniki qulluq və cari təmir xərcləri) və sabit xərclərə (sürücülərin əmək haqqı, üstəlik xərclər və hərəkət tərkibinin bərpasına

amortizasiya ayırmaları) bölürlər. Normativ dəyişən xərclər hərəkət tərkibinin 1 km yürüşünə, sabit xərclər isə onun 1 saat işinə görə hesablanır.

Dəyişən xərclər avtomobillərin istismar şəraitindən əhəmiyyətli dərəcədə asılıdır. İstismar şəraiti yol, təbii-iqlim və nəqliyyat şəraitlərinin məcmusudur.

Yük daşımanın idarə edilməsinə görə iki modeli vardır:

- Birbaşa daşıma modeli;
- Mərkəzləşdirilmiş daşıma modeli.

Birbaşa daşıma modelinin üstün cəhəti avtomobil nəqliyyat vasitələrinin növünün yükün xüsusiyyətinə daha uyğun seçilməsi və daşıma xərclərinin azaldılmasına nail olunmasıdır. Ancaq müəyyən məqamlarda tətbiqində çətinliklər yaranır. Beləki, daşınma məntəqələri arasında məsafə çox olduqda, müxtəlif növ nəqliyyat vasitələri tələb olunduqda və ya yükün xüsusiyyətləri nəqliyyatın növünə uyğun gəlmədikdə müəyyən çətinliklər yaranır. Hazırda yük daşımada istifadə olunan dəniz yolu, hava yolu, dəmiryolu, avtomobil yolu daşıma modelində istifadə olunan nəqliyyatın və digər növ nəqliyyat vasitələrinin daşımada özünə məxsus rolu vardır. Qeyd edilən nəqliyyat vasitələrinin hər növü beynəlxalq və ölkədaxili yük daşımada iştirak etmə hüququna malik olsalarda, özlərinə məxsus üstünlükləri və çatışmazlıqları mövcuddur.

Dəniz nəqliyyatı beynəlxalq yük daşımalarında mühüm rol oynayır. Uzun məsafə daşımalarında ən aşağı ton/km dəyəri ilə ağır və böyük həcmli yüklərin daşınması üçün ən ucuz nəqliyyat növüdür. İstehlakçılar üçün ucuz və yüksək daşıma qabiliyyətini təmin edir (Al-Alawi, 2010; Braun, 1998; Chao, 2011).

Dəniz nəqliyyatının zəif cəhətləri arasında uzun daşınma müddəti, aşağı daşıma sürəti və çətin hava şəraiti şərtlərinə tabe olması sayıla bilir. Liman investisiyaları isə maliyyəvi bir yüklənmə yaradır. Malın limandan çatdırılacağı yerə daşınma prosesi üçün avtomobil və ya dəmir yolu kimi əlavə nəqliyyat növlərindən istifadə edilməlidir. Bu, malların köçürülməsində zədələnmə riskini artırır. Həmçinin, gömrük prosedurları ilə bağlı problemlər ortaya çıxara bilər (3).

Dünya ticarətinin təxminən 80 faizi dəniz nəqliyyatı ilə həyata keçirilir. Bu, dəniz yolu ilə daşınan malların beynəlxalq ticarətdə ən böyük paya malik olduğunu göstərir.

Həmçinin, dəniz nəqliyyatı dəmir yolu nəqliyyatından 2 dəfə, avtomobil nəqliyyatından isə 7 dəfə daha ucuzdur. Bu, dəniz yolu ilə daşınan yüklərin nisbətən daha məqbul və maliyyəvi cəhətdən daha səmərəli olmasını təmin edir.

Hava nəqliyyatı sərnişin daşımalarında əhəmiyyətli rol oynayır. Hava nəqliyyatı ilə nisbətən az yük daşınır, lakın bu yüklər qiymətli təcili çatdırılma tələb edən yüklərdir.

Hava nəqliyyatının çatışmayan cəhəti təyyarələrin hərəkət müntəzəmliyinin meteoroloji şəraitdən asılılığı və daşımaların maya dəyərinin yüksək olmasıdır.

Dəmir yolu nəqliyyatının bir çox güclü tərəfləri var: yüksək daşıma qabiliyyəti, hava şəraitinə daha az məruz qalması və aşağı enerji sərfiyyatı. Həmçinin, ağır və həcmli yüklər üçün mükəmməldir. Tranzit daşımalar üçün ən uyğun variantdır və çevrəyə təsir açısından daha yaxşıdır. Güvənilirliyi daha yüksəkdir. Enerji sərfiyyatı 500 km-dən uzun məsafələrdə daha səmərəlidir (Chao, 2011).

Ancaq dəmir yolu nəqliyyatının zəif cəhətləri də mövcuddur: ilkin investisiya və texniki xidmət xərcləri, təcili tələblər qarşısında elastikliyin olmaması və dəmir yolu vaqonlarının təşkili zamanı yaşanan vaxt itkisi. Həmçinin, okean keçidləri üçün münasib deyildir. Əgər istehsal və istehlak mərkəzlərinə dəmir yolu xətti çatmırsa, nəqliyyat zəncirinin hər iki ucunda avtomobil nəqliyyatına ehtiyac duyulur.

Avtomobil nəqliyyatı beynəlxalq ticarətdə yüklərin daşınmasında çox əhəmiyyətlidir. Daşınan yüklərin miqdarına əsasən avtomobil nəqliyyatı dünya üzrə ilk yerdədir. Buna baxmayaraq, nəqliyyatın bu növü vasitəsilə daşınma məsafələri, orta hesabla dəniz və dəmir yolu nəqliyyatlarında olanlardan kifayət qədər az olduğuna görə, o, yük dövriyyəsinə əsasən bu sonuncu yerdə olanlardan geri qalır. Hazırda qısa və orta məsafələrə daşımalarda özünü sübut edən avtomobil nəqliyyatı dövlətdaxili daşımalarda başlıca rol oynayır. Avropada dövlətdaxili

daşımalarda yük dövriyyəsinin 60 faizdən çoxu avtomobil nəqliyyatının payına düşür (Eyvazov, 2019: 124).

Müasir dövrümüzdə mərkəzləşdirilmiş daşıma modeli daha geniş yayılmışdır. İstehsalçılar mərkəzləşdirilmiş daşıma modelinin tətbiqi zamanı daşıma işindən və nəqliyyat müəssisələrinin yaradılmasından və onun daima saz vəziyyətdə saxlanması işindan azad olunduğu üçün istehsala daha çox vaxt ayırmaq olur. Daşıma prosesində yük göndərilən məntəqədən yük qəbul olunan məntəqəyə qədər yükün yüksək keyfiyyətlə və təhlükəsiz çatdırılmasına daşıyıcı nəqliyyat müəssisəsi məhsuliyyət daşıyır.

**Əsas hissə.**

*Mərkəzləşdirilmiş yük daşımaları* daşıma prosesinin yerinə yetirilməsinin və hərəkət tərkibinin istismarının proqressiv metodudur. Bu, nəqliyyat prosesinin bütün iştirakçılarının: yük göndərən, yük alan və avtomobil nəqliyyatı müəssisələrinin vəzifə və cavabdehliklərinin dəqiq bölünməsini təmin edən təşkilati bir sistemdir.

Mərkəzləşdirilmiş daşımalara aşağıdakılar aid edilir:

- ümumi təyinatlı avtomobil nəqliyyatı müəssisələri (ANM) öz hərəkət tərkibi ilə və ya daşımalara vahid operativ rəhbərlik edərək digər ANM-lərinin hərəkət tərkibi ilə bir yük göndərəndən bütün yük alanlara və ya bir yük alana bütün yük göndərənlərdən yüklərin çatdırılmasını təmin etdikdə yerinə yetirilən daşımalar (bu zaman nəqliyyat ekspedisiya xidməti də göstərilir);
- ümumi təyinatlı avtomobil nəqliyyatının yüklərin dəmir yolu stansiyasına, limanlara, hava limanına gətirilməsi, aparılması ilə əlaqədar yerinə yetirdiyi daşımalar;
- müntəzəm şəhərlərarası daşımalar;
- kənd təsərrüfatı üçün ANM-lərinin yerinə yetirdikləri daşımalar;
- tikinti nazirliklərinin ANM-lərinin bu nazirliklərə tabe olan sənaye müəssisələrindən yerinə yetirdikləri tikinti yüklərinin daşınması.

Avtomobil nəqliyyatında yük daşımalarının planlaşdırılması təlimatına uyğun olaraq sexdaxili, zavoddaxili, təsərrüfatdaxili daşımalar, torpaq, qar, zibil və s. mərkəzləşdirilmiş daşımalar aid edilə bilməz.

Mərkəzləşdirilmiş daşımalar müəyyən prinsiplər əsasında yerinə yetirilir. Bunlardan ən əsasları aşağıdakılardır:

- daşımalar müqavilə əsasında eyni birliyin bir və ya bir neçə ANM tərəfindən həyata keçirilir;
- ANM-nə daşımalar üçün sifarişlər yük göndərənlər tərəfindən verilir;
- avtomobillərin yüklənməsi yük göndərənlərin, boşaldılması isə yük alanların qüvvə və vəsaitləri hesabına yerinə yetirilir. Yüklənmə və boşaldılma üçün ANM-nin yük göndərənlər və yük alanlara istifadəyə verilmiş yükləmə-boşaltma mexanizmləri də tətbiq oluna bilər;
- nəqliyyat-ekspedisiya əməliyyatları ANM-nə həvalə edilir;
- avtonəqliyyat müəssisəsi yalnız yük göndərənlərlə müqavilə münasibətlərində olur.

Mərkəzləşdirilmiş daşımalarda ANM yüklərin yük alanlara çatdırılması prosesinin təşkilatçısı kimi çıxış edir və yüklərin nəinki yük göndərəndən yük alana daşınmasını, həmçinin onların qorunmasını da öz üzərinə götürməklə daşıma prosesi ilə əlaqədar olaraq nəqliyyat-ekspedisiya əməliyyatlarını həyata keçirir. Bu əməliyyatları ANM-nin sürücüləri yerinə yetirir və uyğun olaraq əmək haqqına əlavə haqq alırlar. Bəzi xüsusi hallarda yüklərin ekspedisiyası ANM-nin ekspeditorları ilə aparılır.

Mərkəzləşdirilmiş daşımalarla məşğul olan sürücülər daşınan yük üçün maddi məsuliyyət daşıdıqları barəsində öhdəlik qəbul edirlər və öhdəliyə əsasən yükün itirilməsi və ya xarab olması hallarında onlar uyğun miqdarda cərimə olunurlar.

Mərkəzləşdirilmiş daşımaların hazırlanmasında sürücülərin təlimatlandırılmasına xüsusi diqqət vermək lazımdır. Mərkəzləşdirilmiş daşımalarda sürücünün rolu çox böyükdür, belə ki, o özünün birbaşa işindən başqa ekspeditor işini də yerinə yetirir. Buna görə də mərkəzləşdirilmiş daşımaların yerinə yetirilməsindən qabaq sürücülər əmtəə-nəqliyyat sənədlərinin formaları, onların yükün qəbulu və təhvili məntəqələrində doldurulması qaydası, daşınan yükün yüklənməsinin,

daşınmasının və boşaldılmasının xüsusiyyətləri, ekspeditor vəzifəsini yerinə yetirəcəyi halda əlavə əmək haqqının miqdarı barəsində məlumat almalıdırlar.

Daşımaları yerinə yetirərkən yük göndərən aşağıdakıları etməyə borcludur:

- yükləri qabaqcadan hazırlamaq, qruplaşdırmaq, çəkmək və qablaşdırmaq, həmçinin əmtəə-nəqliyyat sənədlərini vaxtında tərtib etmək;
- giriş yollarını, yükləmə-boşaltma meydançalarını, mexanizm və avadanlıqları saz vəziyyətdə saxlamaq, lazımi sayda yükçü və xidmət heyətinə malik olmaq;
- axşam və gecə vaxtları yükləmə-boşaltma yerlərini işıqlandırmaq;
- anbarların daşıma müqaviləsində nəzərdə tutulmuş müddətdə aramsız işini təmin etmək;
- avtomobilləri tam yükləmək və normadan artıq boş dayanmaya yol verməmək;
- uyğun ANM-nin mərkəzləşdirilmiş qaydada daşıdığı yüklərin başqa müəssisə və təşkilatların avtomobilləri ilə daşınmasına yol verməmək;
- yük alanların mərkəzləşdirilmiş daşımaların şərtlərini yerinə yetirmələrini təmin etmək.

Avtonəqliyyat müəssisələri yükün olmasına və onun daşımaya hazırlanmasına, giriş yollarının vəziyyətinə və yükləmə-boşaltma mexanizmləri ilə təminata nəzarət edir; avtomobillərin qrafikə uyğun vaxtında gəlməsini yoxlayır, onların yükləmə və boşaltmada düzülüşünü təşkil edir, avtomobillərin yük götürmə qabiliyyətinin tam yüklənməsi və normadan artıq boş dayanmasının ləğvi üçün tədbirlər görür; yük göndərənlərin yükləmə meydançasındakı dispetçerləri ilə əlaqə saxlayır və hər obyekt üzrə əməli planın yerinə yetirilməsinə nəzarət edir; lazım gəldikdə avtomobillərin bir obyektdən digərinə keçirilməsi üçün tədbir görür; planın yerinə yetirilməsinin uçotunu aparır, yüklərin alıcıya vaxtında çatdırılmasını, yol vərəqlərinin və digər əmtəə-nəqliyyat sənədlərinin tərtib olunmasının düzgünlüyünü yoxlayır.

Mərkəzləşdirilmiş daşımalarda ANM haqq-hesabı yük göndərənlərlə aparır. Hesabat üçün əsas əmtəə-nəqliyyat qaimələridir.

Mərkəzləşdirilmiş daşımaların aşağıdakı üstünlükləri vardır:

- yüklərin çatdırılması prosesində yük göndərənlərin, yük alanların və ANM-nin vəzifələrinin dəqiq bölüşdürülməsi, hərəkət tərkibinin işinin qabaqcadan işlənmiş qrafikə uyğun təşkil olunması imkanı;
- yükləmə-boşaltma işlərinin yük alanlarda və yük göndərənlərdə geniş mexanikləşdirilmə imkanı;
- böyük yük götürmə qabiliyyətli avtomobillərin, avtoqatarların və xüsusiləşdirilmiş hərəkət tərkibinin geniş tətbiqi;
- informasiyanın ANM-də müasir elmi planlaşdırma metodlarının istifadə olunmasına imkan yaradan konsentrasiyası;
- yük daşımalarının təşkilinin ümumi mədəniyyətinin artırılması.

Mərkəzləşdirilmiş daşımaların tətbiqindən əldə olunan səmərə müəyyən daşıma həcmini yerinə yetirmək üçün lazım olan hərəkət tərkibinə tələbatın, yükləyicilərin və ekspeditorların sayının, uyğun olaraq əmək haqqı məsrəflərinin azalması, nəqliyyat prosesinin bütün sahələrində əmək məhsuldarlığının artırılması, daşımanın, yükləmənin, boşaldılmanın və yükün müşaiət edilməsinin maya dəyərinin azaldılması, yəni xalq təsərrüfatında nəqliyyat xərclərinin aşağı düşməsi ilə bağlıdır.

*Nəqliyyat ekspedisiya xidməti.* Ekspedisiya xidməti dedikdə daşıma prosesi ilə eyni zamanda baş verən əməliyyat və ya işlər başa düşülməlidir. Bu əməliyyatlara materialların çatdırılması, anbarlama və saxlama, qablaşdırma və cəmləşdirmə, həmçinin istənilən nəqliyyat növü ilə daşımanın təşkil edilməsi daxildir. Buraya həmçinin nəqliyyat vasitələrinin kiralanması, xarici ticarət müqavilələri üzrə hesablaşma əməliyyatları, məsləhət konsultasiya xidmətləri, yüklərin gömrük rəsmiləşdirilməsi, daşıma marşrutun seçilməsi, hərəkət qrafikinin hazırlanması və nəqliyyat vasitələrinə texniki xidmət, nəqliyyat sənədlərinin tərtibatı, yükün qəbulu, təslim edilməsi, yükləmə-boşaltma işləri, ünvanına yük daxil olduğu barədə sifarişçinin məlumatlandırılması və s. aiddir (Rzayev, 2020: 435).

Beləliklə, ekspedisiya xidmətləri bazarın mürəkkəb müasir infrastrukturunun bütün elementləri arasında effektiv əlaqəni təmin etməyə yönəlmişdir.

Yerinə yetirilməsindən asılı olaraq nəqliyyat ekspedisiya işləri yerli və kompleks olurlar.

Kompleks işlər yükün göndərəndən qəbul edildiyi andan alana təhvil verildiyi ana kimi bütün növ əməliyyatları əhatə edir. Yerli işlər göndərilmə yerində, yolda və təyinat yerində görülən əməliyyatlara bölünür.

Nəqliyyat ekspedisiya əməliyyatı dedikdə nəqliyyat ekspedisiya xidmətinin yerinə yetirilməsini təmin edən periodik olaraq təkrarlanan fəaliyyət başa düşülür. Nəqliyyat ekspedisiya xidmətinə iki qarşılıqlı əlaqəli hissə: nəqliyyat və ekspedisiya xidmətləri kimi baxmaq lazımdır.

Nəqliyyat xidməti dedikdə yüklərin fəza və vaxta görə yerdəyişməsi, yəni daşıma ilə əlaqədar olaraq fəaliyyət başa düşülür.

Ekspeditor xidməti yüklərin daşınması, konsolidasiyası, anbarlanması, emalı, qablaşdırılması, və ya paylanması, həmçinin onlarla bağlı köməkçi və məsləhətverici xidmətlərin- yük deklarasiyası üçün rəsmi gömrük işləri, gömrük maliyyə məsələləri, yüklərin sığortalanması, yüklərlə bağlı sığorta vergilərinin yığılması, sənədlərin yığılması və s. yerinə yetirilməsi ilə bağlı istənilən xidmət növüdür.

Ekspeditor-nəqliyyat ekspedisiya müqaviləsinin nəqliyyat ekspedisiya xidmətini təşkil edən və göstərən tərəfidir. Başqa sözlə, ekspeditor-sifarışçi ilə bağlanmış müqavilə əsasında ekspeditor xidməti göstərən istənilən konkret şəxsdir (Cavadov, 2009: 19).

Ekspedisiya xidməti isə ekspedisiya işlərini, təşkilatı əməliyyatlar və yüklərin yerdəyişməsi ilə əlaqədar olan əməliyyatları özündə birləşdirir. Ekspedisiya işlərinə yükün daşınmaya hazırlanması ilə bağlı əməliyyatlar: haqq-hesabın aparılması və nəqliyyat sənədlərinin tərtibi, informasiya xidməti aiddir. Təşkilati əməliyyatlara isə nəqliyyat ekspedisiya xidmətinin idarə olunması və daşıma prosesində nəqliyyat qovşaqları bölmələrinin, yük alanın və nəqliyyat təşkilatlarının işinin uzlaşdırılması aiddir.

Nəqliyyat ekspedisiya xidməti əsasən avtomobil nəqliyyatı ilə şəhərlərarası və qarışıq yük daşımalarında, həmçinin əhaliyə xidmətdə geniş yayılmışdır.

Böyük şəhərlərdə nəqliyyat ekspedisiya işlərini yerinə yetirmək üçün xüsusiləşdirilmiş avtonəqliyyat müəssisə və təşkilatları yaradılır. Bu müəssisələrdə nəqliyyat ekspedisiya işlərinin əsas göstəriciləri kimi yerinə yetirilən nəqliyyat ekspedisiya xidmətlərinin sayı, gətirilən və aparılan yükün tonlarla miqdarı, yüklərin ekspedisiyası və müşaiəti ilə əlaqədar işlərin həcmi, yolüstü yüklənmiş avtomobillərin sayı və s. istifadə olunur.

ANM-nin nəqliyyat ekspedisiya xidmətini yerinə yetirməsi yük göndərən və yük alan müəssisələr üçün, həmçinin daşıma prosesində iştirak edən bütün nəqliyyat növləri üçün xeyli üstünlük yaradır. Bundan başqa xüsusiləşdirilmiş nəqliyyat ekspedisiya müəssisələri yük daşımaları təşkil edərkən:

- yük göndərən və yük alanları bir sıra mürəkkəb və onlara xas olmayan əməliyyatların (yükün təhvili və qəbulu ilə əlaqədər) yerinə yetirilməsindən azad edir;
- ekspeditorlara və yükçülərə olan ümumi tələbatı azaldır və yükgöndərən və yük alanları çoxsaylı ekspeditor aparatını saxlamaqdan xilas edir;
- daşımada iştirak edən bütün nəqliyyat növlərinin hərəkət tərkibinin istifadə olunmasının yaxşılaşdırılmasını təmin edir;
- nəqliyyat ekspedisiya müəssisələri çoxsaylı yük göndərən və yük alanların təşkilati nümayəndəsi kimi çıxış edərək əmtəə idarələri və yük həyətlərinin, dəmir yolu stansiyalarının, dəniz və çay limanlarının işini rahatlaşdırır;
- yüklərin konteynerlərdə daşınmalarını təşkil və inkişaf etdirir;
- nəqliyyatın müxtəlif növlərinin işinin uzlaşdırılmasına və daşımaların onlar arasında səmərəli paylanmasına imkan yaradır;
- yüklərin göndərmə və təyinat məntəqələri arasında çatdırılmasını sürətləndirir;
- daşıma prosesində yükün qorunmasını yaxşılaşdırır;

- yük sahiblərinə yüklərini ANM-nə tabe olan anbarlarda qısa müddətli saxlaya bilmək imkanı verir;
- nəqliyyat xərclərinin azaldılmasını təmin edir.

*Əhaliyə nəqliyyat ekspedisiya xidməti.* Bu işlərin xeyli hissəsi əhalinin yüklərinin konteynerlərlə şəhərlərarası istiqamətlərdə daşınmasına aiddir. Belə daşımalarda nəqliyyat ekspedisiya xidməti aşağıdakılardan ibarətdir: nəqliyyat sənədlərinin hazırlanması, ev əşyalarının konteynerlərə yüklənməsi, ekspedisiya, konteynerin dəmir yol stansiyasına çatdırılması və təhvil verilməsi, informasiya xidmətləri, təyinat məntəqəsində konteynerin qəbulu və sifarişçiyə təhvil verilməsi.

Əhaliyə göstərilən nəqliyyat ekspedisiya xidmətlərinin həcmi mağazalardan alınmış sənaye və ərzaq mallarının çatdırıması ilə əlaqədar kəskin artır. Alınan sənaye malları adətən xüsusiləşdirilmiş hərəkət tərkibi ilə çatdırılır. Nəqliyyat agentliyinin əməkdaşları sifarişi bilavasitə mağazalarda qəbul edir. Bu sifarişə alınmış malın yüklənməsi, boşaldılması, mərtəbələrə qaldırılması, hətta sökülüb-yığılması da aiddir.

Kənd əhalisinə nəqliyyat ekspedisiya xidmətinin təşkili də böyük rol oynayır. Bu xidmətə adətən, kəndlərlə rayon və respublika mərkəzləri arasında daşımalar aid edilir. Burada yanacağın, tikinti materiallarının, gübrələrin kəndə, kənddən meyvə və tərəvəzin isə bazarlara çatdırılması əsas xidmətlərdir.

Nəqliyyat ekspedisiya agentlikləri mərkəzi şəhərlərdə yerləşən kino-teatrlara, teatrlara, muzeylərə gedişləri təşkil edirlər. Nəqliyyat ekspedisya agentliklərinin geniş yayılmış xidmətlərinə bütün nəqliyyat növlərinə biletlərin alınması və evə çatdırılması, baqajın dəmir yol stansiyalarına, hava limanlarına, dəniz limanlarına çatdırılması, taksi avtomobillərinə qabaqcadan sifarişlərin qəbulu aiddir.

*Əməyin təşkilinin briqada forması.* Avtomobil nəqliyyatında mərkəzləşdirilmiş daşımaların təkmilləşdirilməsi əməyin briqada formasının-kompleks briqadaların, kompleks mexanikləşdirilmiş briqadaların, briqada podratının inkişafı yolu ilə gedir.

Briqada işçilərin elə birləşməsidir ki, bu zaman onların hər biri öz üzərində yaratdıqları kollektivin hakimiyyətini qəbul edir. Briqadanın iş (daşıma) həcmi avtonəqliyyat müəssisəsinin rəhbərliyi ilə bağlanılan müqavilə ilə müəyyən edilir. Bütün kollektivin və ya briqada şurasının razılığı olmadan heç kim briqadadan xaric edilə və briqadaya daxil edilə bilməz.

Kompleks-mexanikləşdirilmiş briqadalar, adətən, torpaq işlərində və kütləvi qalaq yüklərinin daşınmasında yaradılırlar. Bu zaman briqadada sürücülər, ekskvatorçular və buldozerçilər birləşirlər. Bütün briqada üzvlərinin iş yerinə və əksinə çatdırılması xidmət avtobusları ilə yerinə yetirilir; işçilərin növbə dəyişməsi bilavasitə iş yerində aparılır; avtonəqliyyat vasitələrinin yanacaq və digər istismar materialları ilə doldurulması, kiçik təmir işləri, o cümlədən şin işləri xüsusi avadanlığı olan meydançalarda görülür; yerinə yetirilmiş işin həcminin uçotu son nəticəyə görə aparılır və s.

Briqada podratının fərqli cəhətləri: əmək haqqı bütün briqada üzvləri arasında bərabər (işlənmiş vaxt nəzərə alınaraq) bölünür; briqada sutkalıq tapşırığı yerinə yetirmədikdə onun mənfəətini yerinə yetirilməmiş daşıma həcmində gəlməli olan gəlir qədər azaldırlar; əgər briqada planı avtonəqliyyat müəssisəsinin günahı üzündən yerinə yetirməmişsə, ona daimi mənfəət, sifarişçiyə isə cərimə ödənilir; yük göndərənin günahı üzündən iş dayandıqda və ya hərəkət tərkibi normadan artıq dayandıqda günahkar tərəf avtonəqliyyat müəssisəsinə cərimə ödəyir və s.

Malların çatdırılmasında iştirak edən nəqliyyat növlərinin sayına görə çatdırma sistemləri bir (unimodal) və çoxnövlü (intermodal və multimodal) olurlar.

Əgər beynəlxalq daşıma yalnız bir nəqliyyat növünün köməyi ilə həyata keçirilərsə, belə daşımaya unimodal daşıma deyilir. Bu daşımanın əsasında ənənəvi nəqliyyat sistemi (unimodal transport) durur. *Unimodal (birnövlü) daşımalar* – yükün bir nəqliyyat növü ilə birbaşa daşınmasıdır. Daşımanı təşkil edən nəqliyyat şirkəti “qapıdan qapıya” prinsipi ilə işləyir, daşımalarda yükün aralıq məntəqələrdə boşaldılıb-yüklənməsi və anbarlaşdırılması nəzərdə tutulmur. Sifarişçi yalnız bir daşıyıcı ilə işləyir. Unimodal daşımalarda çox zaman avtomobil nəqliyyatından istifadə edilir. Belə daşımalarda nəqliyyat növünün seçilmə meyarı, adətən, yükün

növü və həcmi, yükün çatdırılma müddəti və daşımalara çəkilən xərc olur (8). Unimodal çatdırılmalar, daşınan yükləri təyinat yerinə daha tez çatdırmaq istəyən şirkətlər üçün əla seçim ola bilər, və həmçinin təhlükəsizliyi yaxşılaşdırmağa, və tranzit daşıma zamanı zərər və itkiləri azaltmağa kömək edə bilər.

Bəzən beynəlxalq daşımanı nəqliyyatın bir növü ilə həyata keçirmək mümkün olmur; belə halda beynəlxalq daşımanı yerinə yetirmək üçün birdən çox nəqliyyat növündən istifadə olunur. Belə daşıma beynəlxalq qarışıq daşıma və ya intermodal daşıma adlanır.

*Qarışıq daşıma* dəniz, dəmir yolu, avtomobil və hava nəqliyyatının imkanlarının səmərəli birləşməsidir. Bu cür daşıma malları tez və qənaətlə çatdırmağa imkan verir. Bildiyimiz kimi ilk baxışdan daşıma texnologiyalarının ən mükəmməl təşkili forması - unimodal daşımalar texnologiyası qəbul edilə bilər. Lakin daşımanın əsas meyarları - qiymət, zaman, təhlükəsizlik və etibarlıq meyarları üzrə qiymətləndirilməsində məlum olur ki, heçdə unimodal daşımalar nəqliyyat texnologiyalarının cari inkişafı vəziyyətində ən optimal daşımalar sayıla bilmir (Talıbov, 2023: 21).

*İntermodal daşımalar* dedikdə yüklərin ardıcıl olaraq iki və ya çox nəqliyyat növü ilə bir yük vahidində və ya avtonəqliyyat vasitəsində, nəqliyyat növü dəyişilərkən yükün boşaldıb-yüklənməsi aparılmadan vahid daşıma sənədi əsasında daşınması başa düşülür. Bu daşımalarda sistem yaradan element olaraq intermodal yük vahidi çıxış edir. İntermodal yük vahidi yükün onlarda beynəlxalq tələblərə müvafiq gömrük surğuclanmasına imkan verir və bu halda surğuc pozulmadan yükə əl çatmır. Müasir intermodal yük daşımalarının əsasını İSO standartlarına cavab verən konteynerlər təşkil edir. Lakin bu daşımalarda aşağıdakı şərtlərə cavab verən digər yük vahidləri də istifadə oluna bilər: liman və digər yük ötürmə məntəqələrində boşaldıb-yükləmə işlərinin kompleks mexanikləşdirilməsinin tətbiqinə imkan verməli; beynəlxalq və ya regional standartlara cavab verməli. Belə yük vahidlərinə kontreylerləri, treylerləri, çıxarılabilən kuzaları, paketləri aid etmək olar (Cavadov, 2012: 142).

*Multimodal daşımalar* dedikdə ən azı iki müxtəlif nəqliyyat növü ilə əsasən ölkə daxilində yerinə yetirilən birbaşa qarışıq daşımalar başa düşülür. Multimodal daşımalar malların çatdırılma vaxtının qısaldılması və nəqliyyat-ekspedisiya xərclərinin azaldılmasına imkan verir. Multimodal daşımaların iqtisadi səmərəliliyi dünya təcrübəsində isbat olunmuşdur. Dünyanın inkişaf etmiş ölkələrində daşımaların təşkilinin bu forması 30 ildən artıq müddətdir ki, təkmilləşdirilir və hal-hazırda həm beynəlxalq, həm də daxili rabitələrdə geniş yayılmışdır (Həsənov, 2014: 5).

İntermodal və multimodal daşımalarda yük göndərənlə daşıma müqaviləsini daşımanın həyata keçirilməsində iştirak edən bütün daşımaçılar adından birinci daşımaçı (operator) bağlayır. Yükün çatdırılma vaxtı ümumi daşımaya müxtəlif daşımaçıların sərf etdiyi vaxtın cəmi kimi hesablanır. Yük üçün məsuliyyəti hər bir daşımaçı yükü daşımaya qəbul etdiyi andan təhvil verilmə anına kimi daşıyır (Braun, 1998).

## Nəticə

Avtomobil nəqliyyatı ilə yük daşınması qabaqcıl metodlardan istifadə edilərək həyata keçirilmişdir. Bu qabaqcıl metodlardan istifadə edərək, nəqliyyat xərclərini aşağı salmaqla əmək məhsuldarlığının artırılmasına nail oluş oluruq.

## Ədəbiyyat

1. Cavadov, Ə.Ə. (2004). Daşımalar və vahid nəqliyyat sistemi. Bakı: Təhsil, 260 s.
2. Al-Alawi, M.M. (2010). Impact of Climate Change on Transportation: As Security Issue. Bell, M. In Security and Environmental Sustainability of Multimodal Transport. Hosseinloo, S.H., Kanturska, U., Eds. Springer Science + Business Media: Berlin/Heidelberg, Germany.
3. Global Maritime Hub-European container logistics market update
4. Chao, P. (2011). The Impact of Multimodal Transport Service Value and Relationship on Business Performance – Thai Shippers' Perspective, Unpublished (Ph.D. thesis). Cardiff Business School, Cardiff University.

5. Eyvazov, E., Balabəyova, N. (2019). Beynəlxalq nəqliyyat əməliyyatları. Bakı: Elm və təhsil, 336 s.
6. Rzayev, A.Y., İbrahimov, M.A. (2020). Beynəlxalq nəqliyyat əməliyyatları. Bakı: İqtisad Universiteti, 514 s.
7. Cavadov, Ə.Ə. (2009). Avtomobil yük daşımaları. Bakı: Təhsil, 354 s.
8. Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (ing. United Nations Economic Commission for Europe - UNECE) UNECE, Nəqliyyat nazirlərinin avropa konfransı və Aİ-nin "Kombinə edilmiş nəqliyyat terminalogiyası" birgə sənədinə görə). https://unece.org/DAM/trans/wp24/documents/wp24-00-1r.pdf
9. Talıbov, C.Ş. (2023). Multimodal daşımalar. "Təchizat zəncirinin idarə edilməsi" seriyasından – Logistika. Bakı: "Unicopy" nəşriyyatı, 278 s.
10. Cavadov, Ə.Ə. (2012). Nəqliyyat ekspedisya işlərinin təşkili. Bakı: Təhsil, 220 s.
11. Həsənov, Ş.H., Həsənov, F.F., Cavadov, Ə.Ə. (2014). Beynəlxalq multimodal daşımalar. Bakı: Təhsil, 304 s.
12. Braun, E. (1998). Technology in context: Technology assessment for managers. Taylor, Francis US.

Göndərilib: 20.10.2023 Qəbul edilib: 16.12.2023

DOI: https://doi.org/10.36719/2663-4619/98/35-40

**Əlöysəd Əsgərov**
Azərbaycan Dövlət Aqrar Universiteti
iqtisad üzrə fəlsəfə doktoru
alovsad.asgarov@mail.ru
**Bəsti Novruzova**
Azərbaycan Dövlət Aqrar Universiteti
elekberlimehemmed@mail.ru

# KAPİTAL STRUKTURU NƏZƏRİYYƏLƏRİ VƏ MÜASİR KAPİTAL STRUKTURU PROBLEMLƏRİ

**Xülasə**

İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərində kapital qoyuluşunun təhlili həyata keçirilir. İnvestisiya qoyuluşlarının maliyyə vəsaitlərinin istehsal sahələrinin yaradılmasında idarəetmə aparatının işini təşkil edir. Kənd təsərrüfatının işğaldan azad edilən rayonlarımızda bərpasını həyata keçirilməsini təhlil edir. İnvesitisiya qoyuluşlarının sürətlərdirilməsini təmin edir. Azərbaycanda kapital qoyuluşunun maliyyələşdirilməsinə yardım edir. İqtisadiyyatının artım tempini daha da surətləndirilməsini təmin edir. Kapital qoyuluşunun və investisiyanın maliyyələşdirilməsi yollarını araşdırır.

***Açar sözlər:*** *iqtisadiyyatın şaxələndirilməsi, investisiya qoyuluşu, innovasiyalar, maliyyə mənbələri, sahibkalıq subyektləri, istehsalat, xarici investisiya*

**Aloysad Asgarov**
Azerbaijan State Agrarian University
PhD in economics
alovsad.asgarov@mail.ru
**Basti Novruzova**
Azerbaijan State Agrarian University
elekberlimehemmed@mail.ru

## Theories of capital structure and modern problems of capital structure

**Abstract**

An analysis of capital investments in business entities operating in the territories liberated from occupation is carried out. This organizes the work of the management apparatus to create production sites of investment funds. He stops and analyzes the restoration of agriculture in our regions liberated from occupation. Acceleration of investments is ensured. This helps in financing capital investments in Azerbaijan. This ensures further acceleration of economic growth. This explores ways to invest capital and finance investments.

***Keywords:*** *economic diversification, investment, innovation, financial sources, business entities, production, foreign investment*

## Giriş

Müəssisələr tərəfindən səmərəli kapital strukturunun yaradılması, şəxsi, cəlb olunmuş və borc maliyyə kapitalları arasında optimal seçilmiş struktura əsaslanır. Kapital strukturuna ənənəvi yanaşma, praktiki müşahidələr əsasında formalaşaraq bu cür əsaslandırılmışdır ki, şirkətin məcmu kapitalında cəlb olunmuş borc vəsaitlərinin xüsusi çəkisi müyyən bir səviyəyə çatana qədər şirkətin şəxsi kapital üzrə xərclərini artırmır, lakin borc kapitalının sonrakı artımı şəxsi kapital üzrə xərclərin surətlə bahalaşmasına səbəb olur. Beləliklə ənənəvi nəzəriyyə şəxsi, cəlb olunmuş və məcmu kapitalların dəyərlərində baş verən dəyişiliklərin yalnız ümumi istiqamətini müəyyən edir və riyazi modeli olmadığı üçün, məcmu kapitalın optimal strukturunu müəyyən etmir (1).

Beləliklə, investisiyaların mahiyyəti, maliyyə iqtisadiyyatı meyyarları, investor davranışı, maliyyə investisiyaları, iqtisadi investisiyalar, şirkətlərin investisiya təhlili, investisiylara təsir edən əsas amillər, inflyasiyanın investisiyalara təsiri, investisiya və kapital qoyuluşu arasında mövcud olan fərqlər və bu sahədə yaranan problemlər haqqında məlumatlar verilmişdir. Müasir kapital strukturu nəzəriyyələrinin mahiyyəti, Modelyani-Millerin ilkin və təkmilləşdirilmiş kapital strukturu nəzəriyyələri, kapitalın orta çəkili dəyəri və maliyyə leverici, vergi qalxanı və vergi qalxanın kapital strukturuna təsiri, kapital strukturuna müxtəlif xərclərlə cəlb edilən maliyyə vəsaitlərinin optimal həddinin müəyyənləşdiriməsi kapital strukturunun tətbiqi istiqamətlərində və yaranan problemlərin mahiyyəti haqqında məlumatlar açıqlanmışdır (Novruzov, Hüseynov, 2007).

Maliyyə kapitalının optimal strukturunun müyyən edilməsi ilə bağlı elmi nəzəriyyələr XX əsrin ortalarından sonra formalaşmağa başlamışdır. Bu problemin tədqiqatı ilə dərindən məşğul olan iqtisadçı alimlər kimi Maykl Censen, Stuart Mayers, Merton Miller, Franko Modilyani, Stefan Ross və digərlərini qeyd etmək olar. Lakin aparılmış tədqiqatların nəticələri və səslənmiş elmi nəzəriyyələrin əhatəliyinə baxmayaraq, kapital strukturu və onun şirkətin bazar dəyərinə göstərdiyi təsir, bu günədək müzakirə mövzusudur (Frederik, Mişkin, 2021: 700).

Kapital strukturunun optimallaşdırılmasına dair bütün nəzəriyyələr öz yanaşma üsuluna görə statik və dinamik yanaşmalara bölünür. Statik yanaşmada şirkət üçün məqsədli kapital strukturunun formalaşdırılması və dəstəklənməsi şərtlərini tədqiq edir. Burada aparıcı və bir birinə alternativ hesab edilən iki nəzəriyyə mövcuddur: kapital strukturunun ənənəvi nəzəriyyəsi və Franko Modelyani və Merton Miller nəzəriyyəsi (Frederik, Mişkin, 2021: 700).

Dinamik yanaşma, müyyən zaman kəsiyində şirkətin məqsədli kapital strukturundan kənarlaşmalar etməyə imkan verir və optimal kapital strukturumüxtəlif zaman kəsiklərində mövcud iqtisadi vəziyyətə uyğun formalaşdırılır. İqtisadi təhlil əsasında kapitalın məqsədli strukturu müəyyən edilir, lakinmaliyyə mənbələrinin idarəedilməsi,sırf məqsədli strukturun dəstəklənməsiilə kifayyətlənmir və daha geniş məqsədlərin həll edilməsinə xidmət edir (misal üçün: qısa və uzun müddətli maliyyə mənbələrin tənzimlənməsi və sair). Dinamik yanaşma Stefan Rossun, Stuart Mayersin, N.Maylufavə D.Uelşin işarə modelləri adlandırılan yanaşmalar əsasında nəzərədən keçirilir (Sadıqov, Hüseynov, Zeynalov, 2007).

Kapital strukturu nəzəriyyəsinin inkişafında müasir istiqamət - “davranış maliyyə nəzəriyyəsidir” hansı ki, klassik yanaşmalardan fərqli olaraq investorların maliyyə bazarında rasional davranmalarını qəbul etmir. Bu nəzəriyyə çox illik müşahidələr nəticəsindəinvestorların və şirkət rəhbərlərinin müxtəlif bazar şəraitlərində verdikləri qərarlara əsaslanır. Bu cür tədqiqatlar M.Treysi, M.Beyker, Corc Vuqler və Corc Soros tərəfindən son 20 ildə aparılmışdır. Corc Sorosun məhşur “Refleksivlik nəzəriyyəsi” ümumiyyətlə maliyyə bazarlarında sabitlik anlayışının olmaması və investorların sırf gözləmələr və bazar məlumatları əsasında qərar qəbul etdiklərinifikrini irəli sürmüşdür (Frederik, Mişkin, 2021: 700).Kapitalın orta çəkili dəyəri-şirkətin cəlb etdiyi maliyyə mənbələri üzrə məcmu kapitalın orta çəkili dəyərini ifadə edir. Bu termin Modelyani-Miller tərəfindən ilk dəfə 1958-ci ildə istifadə olunmuşdur (Abbasov, 2005). Kapital üzrə xərclər.



Kapital strukturuna aid ən fundamental nəzəriyyələrdən biri 1958-ci ildə F.Modilyani və M.Millerin dərc etdikləri və bu günə qədərdə muasir maliyyə menecmentinin əsasını təşkil edən "M&M" nəzəriyyəsi təşkil edir. Bu nəzəriyədünya maliyyə idarəetmə praktikasına daha böyük təsir göstərmişdir, nəinki bundan öncə dərc olunmuş elmi əsərlər (Məmmədov, 2021).

Modilyani-Miller nəzəriyyəsi mükəmməl kapital bazarının çoxlu sayda istisnalarına əsaslanır haradakı vergi tutulmaları nəzərə alınmır və şirkətin il ərzində əldə etdiyi gəlir onun sahibləri arasında divedent şəklində bölüşdürülür. Bundan əlavə bütün şirkətlər risk və gələcək gəlir gözləmələri baxımından eyni siniflərə aid edilir. Digər istisnalardan biridə budur ki, bazar- mükəmməl bazar heasb edilir və investorlar rasional davranış nümayiş etdirirlər. Rasional davranış budur ki, investorlar qiyməti bahalaşmağa dogru meyilli olan və az riskli aktivləri alır və ücuzlaşan aktivləri satırlar. Bu əməliyyatların sonu bazarda maliyyə aktivləri qiymətlərinin tarazlaşmasına səbəb olur (Frederik, Mişkin, 2021: 700).

Modilyani və Millerin ilkin olaraq öz nəzəriyyələrini çoxlu sayda fərziyələr əsasında isbat etmişdirlər ki, buda bir çox maliyyəçilərin ciddi iradlarına səbəb olmuşdur. Belə ki, şəxsi kapital dəyərinin, vergilər nəzərə alınmadan sırf borc kapitalına çəkilən xərclər əsasında hesablanması, M&M nəzəriyyəsinin düzgünlüyünü şübhə altına almışdır (Məmmədov, Zeynalov, 2007; 8).

Kapital üzrə xərclər.




1963-cü ildə Modilyani və Miller bu iradları nəzərə alaraq öz nəzəriyyələrini dahada təkmilləşdirmişdirlər. Mühasibat qaydalarına əsasən şirkətin borc kapitalı üzrə ödənilən faiz məbləği, şirkətin xərclərinə aid edilir və bu məbləğ vergiyə cəlb edilmir. Nəticədə şirkət öz gəlirlərinə qənaət etmək imkanı əldə edir. Bu faktdan irəli gələrək Modelyani və Miller belə qənaətə gəlmişdirlər ki, eyni risk kateqoriyasına aid olan və borc kapitalı istifadə edən şirkətin dəyəri, borc kapitalını istifadə etməyən şirkətin dəyərindən, "vergi qalxanının" yaratdığı imtiyaz məbləği miqdarında böyükdür (Frederik, Mişkin, 2021: 700).

Başqa sözlərlə şirkətin bazar dəyəri, onun kapital strukturunda borc vəsaitlərinin xüsusi çəkisi artıqca, bahalaşmağa başlayır. M&M nəzəriyyəsinin müəllifləri qeyd olunan faktlar əsasında aşağıdakı əlavə nəticələrə gəlmişdirlər.

- şirkətin dəyəri onun kapital strukturundan aslıdır.
- borclanma səviyyəsi artıqca şəxsi kapital üzrə xərclər artacaq.
- borclanma səviyyəsi artiqca WACC göstəricisi azalacaq.
- şirkət öz dəyərinin ən yüksək həddinə, kapital strukturunu 100% borc vəsaiti hesabına formalaşdıranda nail ola bilər (Ataşov, Novruzov, İbrahimov, 2014: 84).



Kapital strukturunun alternativ nəzəriyyələri Modilyani-Millerin kapital strukturuna aid nəzəriyyədən başqa digər irəli sürülmüş alternativ nəzəriyyələrdə mövcuddur:

- stasionar nisbət modeli;
- assimetrik məlumat modeli;
- agent xərcləri modeli.

Bu nəzəriyyələrin irəli sürülməsi və təkmilləşdirilməsində bir çox alimlər iştrak etmişdir. Təkmilləşdirilmiş M&M nəzəriyyəsi, sonradan vergilər və risk xərcləri arasında kompromis nəzəriyyəsi adlandırılmışdır. Bu nəzəriyyə isbat etmişdir ki, şirkətin bazar dəyəri, kapital strukturunda borc vəsaitlərinin xüsusi çəkisi artıqca şirkətin dəyəri müyyən səviyəyə qədər bahalaşmağa başlayır. Həmin bahalaşma kapital strukturunun optimal səviyyəsinə nail olunana qədər davam edir və başlıca səbəb “vergi qalxanın” xərclərə qənaət etməsindən irəli gəlir. Lakin kapital strukturunda borc kapitalının artması, maliyyə riskləri və müflisləşmə ehtimalını artırır və müvafiq olaraq borcverən şirkətlər öz risklərinə görə daha yüksək gəlir (illik faiz dərəcəsini) səviyyəsini tələb edirlər (Frederik, Mişkin, 2021: 700).

Kapital strukturu nəzəriyyəsinə bu cür kompromis yanaşma, stasionar nisbət modeli (nəzəriyyəsi) adlandırılmışdır hansı ki, 1980-ci ildə Stuart Mayersin elmi əsərlərində araşdırılmışdır. Bu nəzəriyyənin digər həmmüəllifləri iqtisadçı alimlər M.Bredli və J.Jarel hesab edilirlər. Nəzəriyəyə əsasən - şirkət üçün optimal kapital strukturunun elə səviyyəsi hesab edilir ki, “vergi qalxanın” yaratdığı əlavə dəyər, gözlənilən müflüşləşmə xərclərini tam ödəyə bilsin. Dediklərimizi qrafik üzərində təsvir edək.VU – borc götürməyən şirkətindəyəridir (Makkonel, Stenli, Bryu, 2009). VL = VU +XC×IL xətti borc götürən şirkətin artan dəyəridir. Vf əyrisi şirkətin faktiki dəyərini ifadə edir agent və müflüsləşmə xərcləri nəzərə alınaraq. Qrafikdən göründüyü kimi D* nöqtəsinə qədər “vergi qalxanının yaratdığı əlavə dəyər göstəricisi agent və müflüsləşmə xərcləri səviyyəsindən daha çox artır. Lakin D* nöqtəsindən sonra borc səviyyəsi o qədər böyüyür ki, artan agent və müflüsləşmə xərclərini ödəyə bilmir. Bundan irəli gələrək belə nəticəyə gəlmək olar ki, Şirkətin optimal borclanma səviyyəsi D* nöqtəsinə təsadüf edir (Frederik, Mişkin, 2021: 700).

Qrafik 1.




Asimmetrik məlumat modeli - maliyyə bazarlarının məlumat səmərəliliyinin inkarına əsaslanır. Nəzəriyyə iddia edir ki, şirkətin ali yüksək vəzifəli rəhbərləri (top menecerlər) şirkətin fəaliyyəti ilə

bağlı daha yaxşı məlumatlıdırlar sahibkarlar və investorlarla müqayisədə. Bu üstünlük onlara öz mənafelərinə qərar qəbul etmək imkanı yaradır. Bu fikir əsasında bir neçə nəzəriyyə modeli yaradılmışdır hansıları ki, şərti olaraq iki qrupa ayırmaq olar (Qruber, 2021):

- investisiya modeli
- işarə modeli.

İnvestisiya modeli Q.Donaldson, S.Mayers və N.Maylafanın elmi işlərində öz əksini tapmışdır. Bu modelin məntiqi nəticəsi ondan ibarətdir ki, maliyyələşdirmə mənbəyinin seçilməsi haqqında menecerlər qərar qəbul etdikdə səhmdarların mənafeini yox, investisiya layihələrinin səmərəliliyini düşünürlər. Belə ki, divident ödənişlərinə sabit mənfəət əmsalı təyin olunur, layihələrin maliyyələşdirilməsi isə bölüşdürülməmiş mənfəət və amortizasiya ayırmaları hesabına həyata keçirilir. Daxili maliyyə resursları kifayət etmədiyi təqdirdə, şirkət rəhbərliyi müəyyən olunmuş ardıcılıqda qiymətli kağızlar emissiyasına qərar verir. Həmin ardıcıllıq aşağıdakı qaydada həyata keçirilir (Zeynalov, 2008):

- birinci növbədə imtiyazlı səhmlər emissiyaya buraxılır
- ikinci növbədə mübadilə olunan hibrid qiymətli kağızların emissiyası həyata keçirilir.
- üçüncü növbədə sadə səhmlər emissiyaya buraxılır.

Bu ardıcıllığa riayət olunması iki əsas səbəblə izah olunur - borc qiymətli kağızlar emissiyasının iqtisadi üstünlüyü və borc kapitalının yaratdığı xərclərlə (Bağırov, Həsənli, 2011: 174).

İşarə modeli iddia edir ki, qiymətli kağızlar bazarının məlumat səmərəsizliyindən irəli gələrək, fond birjasında maliyyə vəsaitlərinin qısa zamanda və səmərəli yerləşdirilməsi (bölüşdürülməsi) mümkün deyil. İqtisadi cəhətdən düzgün əsaslandırılmış layihələrin icrasına maliyyə vəsitlərinin cəlb edilməsi prossesi, müəyyən "məlumat transfertlərindən" istifadə olunmasını tələb edir. Misal üçün şirkətin kapital strukturunda borc maliyyəsinin artıb azalması məlumatı, bazar üçün müəyyən işarədir (Sadıqov, Bədəlov, 2003). Bazar iştrakçıları belə qəbul edirlər ki, şirkətin borclanma səviyyəsinin artması dinamik inkişaf meyyarıdır. Şirkət rəhbərliyi əmindir öz öhdəliklərinin vaxtlı-vaxtında yerinə yetirilməsindən və bunun üçün fəaliyyətin genişlənməsinə əlavə borc vəsaiti cəlb edir. Bu işarələr şirkət səhmlərinin bazar qiymətinin artmasına səbəb olur. İşarə modeli fikrini ilk dəfə iqtisadçı alim Stefan Ross, öz elmi işlərində əsaslandırmışdır (Bağırov, Həsənli, 2011: 174).

Agent münagişələri şirkət daxili mülkiyyət hüququnun, idarəetmə və nəzarət funksiyalarının bölüşdürülməsi nəticəsində əmələ gələn prossesdir. Bildiyimiz kimi, maliyyə qərarlarının verilməsində şirkət menecmenti hər zaman səhmdarların mənafelərini üstün tutmur. Buda öz növbəsində sahibkarların gəlir itkisinə səbəb olur və xüsusi növ xərlər kimi qiymətləndirilir. Bu xərclər- agent xərcləri adlandırılır. İqtisadçı alimlər M.Censen və U.Meklinq hesab edirdilər ki, kapital strukturu bu cür münaqişələrin aradan qaldırılmasının təsirli aləti ola bilər (Ataşov, Novruzov, İbarhimov, 2009: 85).

M.Censen və U.Meklinq mövcud olan agent problemlərini, borc kapitalı vasitəsi ilə həll edilməsini təklif etmişdirlər. Məlum olduğu kimi, şirkət menecerləri xalis mənfəəti divident ödənişlərinə yox, yeni investisiya layihələrinin (hər zaman ugurlu olmayan) icrasına yönəltmək üstünlüyünü verirlər. Nəzəriyyə müəllifləri təklif edirlər ki, xalis mənfəətin böyük hissəsi səhmdarlara ödənilsin və yeni investisiya layihələri borc kapitalı hesabına icra olunsun (Zeynalov, 2008).

Borclanma səviyyəsinin artması şirkət rəhbərliyinə imkan vermir ki, səhmdarların sərbəst maliyyə vəsaitlərini riskli layihələrin maliyyələşdirilməsinə yönəldsin,belə ki, borclar üzrə ödənişlər icbari və müəyyən olunmuş xarakter daşıyır. Kreditorlar investisiya layihələrinin maliyyələşdirilməsinə çox ciddi yanaşırlar və heç zaman səmərəsiz layihələrin maliyyələşdirilməsinə yol verməzlər. Bundan əlavə borc vəsaiti şirkətə təqdim olunan andan, kreditorlar həmin borcun məqsədli sərf olunmasına nəzarət etmək hüququnu əldə edirlər və şirkət rəhbələrinin strateji qərarlarına təsir göstərə bilirlər. Agent xərcləri nəzəriyyəsinin əsas nəticəsi bundan ibarətdir ki: müəssisənin optimal kapital strukturuna o vaxt nail olunur ki, iqtisadi layihələrin icrası ilə əlaqədar cəlb olunmuş borc və digər vəsaitlərin xərci, həmin layihələrdən əldə olunan gəlirlər hesabına tam ödənilir (Kərimov, Babayev, 2007).

Maliyyə leverici – əlavə aktivlərin əldə olunması üşün borc kapitalının istifadəsini nəzərdə tutur.

Maliyyə leverci əmsallı-muhasibat tarixinə aktivlərin səhmdar kapitala olan nisbəti kimi müəyyənləşdirilir. Bəzi hallarda buna səhmdar kapitalın borclanma əmsalı deyilir (Kərimov, Babayev, 2007).

## Nəticə

Kapital strukturu əmsalları-müəssisənin uzun müddətli öhdəliklərinin ödəmə qabiliyyətini xarakterezə etməklə müəssisəsyə üzun müddətli maliyyə yatırımı etmiş kreditor və investorların maraqlarının qorunma dərəcəsini ifadə edir.

Sahiblik əmsalı-müəssisənin məcmu kapitalında, müəssisə kapitalının xüsusi çəkisini ifadə edir. Bu əmsalın optimal həddi 50% az olmamalıdır, belə ki, bu halda müəssisə bütün öhdəliklərini öz kapitalı hesabına ödəyə bilər.

Maliyyə asılılıq əmsalı-borc vəsaitlərinin müəssisənin məcmu kapitalında xüsusi çəkisini ifadə edir. Bu əmsal 50% çox olmamalıdır, belə ki bu həddən yuxarı olan əmsal müəssisənin müflis olma riskini artırır.

Kreditorların qorunma əmsalı-müəssisənin muhasibat mənfəətinin borc vəsaitləri üzrə ödəniləcək faizlərindən neçə dəfə çox olmasını ifadə edir. Bu əmsal 1-dən az olmamalıdır, bu halda müəssisənin mənfəəti faizləri tam ödəməyə imkan verir.

## Ədəbiyyat

18. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.
19. Novruzov, N.A., Hüseynov, X.Ə. (2007). Maliyyə. Bakı.
20. Frederik, S., Mişkin. (2021). Pul, bank və maliyyə bazarlarının iqtisadiyyatı. Bakı: TEAS Press Nəşriyyat evi, 700 s.
21. Sadıqov, M., Hüseynov, A., Zeynalov, V. (2007). Korporativ maliyyə. Bakı.
22. Abbasov, A.N. (2005). Qiymətli kağızların formalaşması və inkişafı. Bakı.
23. Məmmədov, S.M. (2021). Rəqəmsal keçid və elmi texnoloji inkişafın sürətləndirilməsi zəruriliyi. Bakı.
24. Məmmədov, Z.F., Zeynalov, V.Z. (2007). Maliyyə pul tədavülü və kredit. Bakı.
25. https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/
26. Ataşov, B., Novruzov, N., İbrahimov, E. (2014). Maliyyə nəzəriyyəsi. Bakı.
27. Makkonel, R., Stenli, L., Bryu. (2009). Ekonomiks, 19 – izdaniye.
28. Qruber, C. (2021) Dövlət maliyyəsi və dövlət siyasəti. Bakı: Worth Publishers,TEAS Press Nəşriyyat evi, 896 s.
29. Zeynalov, V.D. (2008). Maliyyənin əsasları. Bakı.
30. Bağırov, D, Həsənli, M. (2011). Maliyyə. Bakı, 184 s.
31. Sadıqov, M.M., Bədəlov, Q. (2003). Maliyyə resursları və maliyyə bazarı. Bakı.
32. Ataşov, B.X., Novruzov, N.A., İbarhimov, E.Ə. (2009). Müəssisənin maliyyəsi. Bakı, 85 s.
33. Zeynalov, V.D. (2008). Beynəlxalq maliyyə. Bakı.
34. Kərimov, A.E., Babayev, A.A. (2007). Qiymətli kağızlar bazarı. Bakı.

Göndərilib: 09.11.2023 Qəbul edilib: 01.01.2024

DOI: https://doi.org/10.36719/2663-4619/98/41-46

**Samirə Yusifova**
Bakı Dövlət Universiteti
yusifova.448@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜTT-YƏ ÜZVLÜYÜNÜN FAYDA VƏ RİSKLİ TƏRƏFLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

İkinci dünya müharibəsindən sonra meydana gələn vəziyyətdən qurtulmağa çalışan bir çox ölkə azad ticarət təcrübələrini həyata keçirməyi seçmişdir. Bu istiqamətdə həyata keçirilən araşdırmalar və tətbiqlər zamanla artmağa davam etmişdir. 1980-ci illərin sonlarında universal ölçülərə çatan bu inkişaf perspektivəri bütün dünyanı vahid bazara çevirməyə meylli idi. 1947-ci ildə GATT çərçivəsində başlanan gömrük tarifləri və kvotaların aradan qaldırılması ilə azad ticarət təcrübələrinin yayılmasına dair araşdırmalar Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yaradılması ilə daha geniş vüsət aldı.

ÜTT beynəlxalq ticarəti maksimum səviyyədə liberallaşdırmaqla azad və şəffaf rəqabət şəraitində dünyanın rifah səviyyəsini yüksəltmək məqsədi daşıyır. Bu məqalədə müasir dünyada öz yerini tutmağa hazırlaşan Azərbaycan Respublikasının 1997-ci il iyunun 23-dən ÜTT-yə üzvlüklə bağlı səyləri və onun üzvlük statusu araşdırılmışdır. Qeyd etmək lazımdır ki, həm üzvlüklə bağlı aparılan araşdırmalar, həm də bu araşdırmalar nəticəsində üzvlük prosesinin yekunlaşması Azərbaycan üçün müəyyən qazanc və itkilərə səbəb olacaqdır. Məqalədə bəhs olunan bu qazanc və itkilər müəyyən edilmiş və üzvlük prosesində həyata keçirilməli olan tədbirlər qısa şəkildə müzakirə edilmişdir.

***Açar sözlər:*** *ÜTT, təşkilati quruluş, Azərbaycan, Azərbaycanın ÜTT-yə üzvlüyü, fayda və risklər*

**Samira Yusifova**
Baku State University
yusifova.448@gmail.com

## Assessment of the benefits and risks of WTO membership of the Azerbaijan Republic

**Abstract**

In an attempt to break free from the post-World War II environment, many nations chose to implement free trade policies. Over time, more research and applications have been created in this area. These changes, which became global in scope in the late 1980s, had the tendency to make the world a one market. With the creation of the World Trade Organization, research on the spread of free trade principles through the elimination of customs tariffs and quotas-which had been started under the auspices of the GATT in 1947-was given greater prominence, and the authority of sanctions was reinforced.

WTO seeks to maximize worldwide trade liberalization in order to raise the degree of global welfare under transparent and open competition. This study focuses on the Republic of Azerbaijan's membership status and activities in the World Trade Organization (WTO), which was established on June 23, 1997. Azerbaijan is getting ready to assume its place in the modern world. There will be some gains and loses for Azerbaijan from the research done in preparation for membership as well as from the actualization of membership as a result of these studies. The study calculated the profits and losses given, and it briefly explained what needed to be done.

***Keywords:*** *WTO, organizational structure, Azerbaijan, Azerbaijans' WTO Accession, benefits and risks.*

## Giriş

Xarici ticarətdə proteksionist və liberal siyasət yanaşmaları arasındak; mübarizə uzun müddətdir ki, davam edir. Ölkələr müxtəlif dövrlərdə müxtəlif xarici ticarət siyasətləri həyata keçirmişdir. İkinci dünya müharibəsinin iqtisadiyyata vurduğu zərərlərdən qurtulmağa çalışan bir çox ölkə azad ticarət üsullarına üstünlük vermişdir. 1947-ci ildə GATT çərçivəsində başlanan gömrük tarifləri və kvotaların ləğvi ilə azad ticarət təcrübələrinin yayılmasına dair araşdırmalar Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yaradılması ilə daha geniş vüsət aldı və sanksiyaların gücü artırıldı (Bulut, 2007: 62-71). Bu gün ÜTT dünya ticarətinin 97%-ni təşkil edən 164 ölkənin üzvlüyünü əhatə edən bir ölçüyə çatmışdır. Bundan əlavə, üzv olmaq üçün danışıqları davam etdirən 22 ölkə mövcuddur. Bu ölkələr üzv olmadan əvvəl müəyyən şərtləri yerinə yetirməli, üzv olmağın xərclərini və onun üstünlüklərini diqqətlə təhlil etməlidirlər (2).

Qeyd etmək lazımdır ki, ÜTT-yə namizəd olacaq ölkə tarif praktikasını artırmamalı, kvota praktikasına əl atmamalı, yerli və xarici mal və xidmətlər arasında fərq qoymamalı, ən çox üstünlük verilən ölkə qaydasına uyğun olaraq bütün ölkələrə eyni tarifləri tətbiq etməli, ticarət siyasətini şəffaf formada həyata keçirməli, daxili bazarlarını ÜTT qaydalarına uyğun bir şəkildə qorumalı, azad rəqabət şəraiti yaratmalı, kommersiya problemlərini qarşılıqlı danışıqlar yolu ilə həll etməlidir.

**Ümumdünya Ticarət Təşkilatının yaranması prosesi** – İkinci dünya müharibəsindən sonrakı dövrün şərtlərinə uyğun olaraq meydana çıxan qurumlardan biri də Ümumdünya Ticarət Təşkilatıdır (İTO). Bu dövrdə belə bir qurumun Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə yanaşı sərbəst xarici ticarət sisteminin yaradılmasını təmin etmək və ya buna mane olan amilləri aradan qaldırmaqla beynəlxalq ticarəti çoxtərəfli qaydalara bağlamaq üçün zəruri olduğu hesab edilirdi. Buna uyğun olaraq bir çox ölkələrin nümayəndələri 1947-48-ci illərdə Kubada (Havana) toplaşaraq Ümumdünya Ticarət Təşkilatının (Havana Konvensiyası) təsis qanununu hazırladılar (Seyidoglu, 2015: 12-18). Ümumdünya Ticarət Təşkilatı qanunlarının müvafiq ölkələrin hökumətləri tərəfindən vaxtında qəbul edilməməsi səbəbindən müvəqqəti razılaşma kimi ortaya çıxan GATT daimi bir təşkilata çevrilmişdir (Mammadov, 2005: 19-23). GATT çərçivəsində 1947-ci ildən 1994-cü ilə qədər 47 illik dövr ərzində səkkiz müxtəlif çoxtərəfli ticarət danışıqları aparılmışdır. Bunlardan dördü konfrans, digər dördü isə çoxtərəfli ticarət danışıqlarıdır. Son danışıqlar (raund) 15-20 sentyabr 1986-cı ildə Uruqvayın Punto del Este şəhərində bir araya üzv ölkələrin ticarət nazirləri tərəfindən dərc edilmiş bəyannamə ilə başlamış və 15 dekabr 1993-cü ildə kompromis əldə edilərək GATT Uruqvay raundu ilə nəticələnənmişdir. 15 aprel 1994-cü ildə Ümumdünya Ticarət Təşkilatını (ÜTT) əsasını qoyan Mərakeş Sazişi Mərakeşdə keçirilən Nazirlər Konfransının yekununda üzv ölkələrin hökumətləri tərəfindən imzalanmış və Uruqvay Raundu Yekun Aktı qəbul edilmişdir. Beləliklə, 1995-ci il yanvarın 1-dən Uruqvay Raundu Sazişləri qüvvəyə minmiş və ÜTT faktiki olaraq fəaliyyətinə başlamışdır (Hüseynova, 2018: 8-11).

**Cədvəl 1: GATT Konfransı və Danışıq Raundları.**

| Yer / Ad | İl | Müzakirə olunan mövzular | Ölkələrin sayı |
|---|---|---|---|
| Cenevrə Konfransı (İsveçrə) | 1947 | Tariflər | 23 |
| Annesi Konfransı (Fransa) | 1949 | Tariflər | 13 |
| Torquay Konfransı (İngiltərə) | 1951 | Tariflər | 38 |
| Cenevrə Konfransı (İsveçrə) | 1956 | Tariflər | 26 |
| Dillon Raundu (İsveçrə-Cenevrə) | 1960-1961 | Tariflər | 26 |
| Kennedy Raundu (İsveçrə-Cenevrə) | 1964-1967 | Tariflər və antidempinq tədbirləri | 62 |

| | | | |
|---|---|---|---|
| Tokyo Raundu (İsveçrə-Cenevrə) | 1973-1979 | Tariflər, qeyri-tarif tədbirləri və çərçivə sazişləri | 102 |
| Uruqvay raundu (Uruqvay- Punta del Este) | 1986-1994 | Tariflər, qeyri-tarif tədbirləri, qaydalar, xidmətlər, əqli mülkiyyət hüquqları, mübahisələrin həlli, tekstil, kənd təsərrüfatı, ÜTT-nin yaradılması və s. | 123 |

**Mənbə:** İnternet resursları esasında müəllif tərəfindən hazırlanmışdır.

1 yanvar 1995-ci ildən etibarən GATT prosesinin daxil olduğu yeni mərhələ əvvəlki və sonrakı dövrlərin fərqli adlandırılmasına səbəb olmuşdur. 1947-ci ildən bəri mövcud olan və həm təşkilat, həm də qayda-qanun yaratma müqaviləsi olan köhnə GATT "GATT 1947" olaraq adlandırıldığı halda, ÜTT-nin meydana çıxması ilə fərqli bir forma qazanan yeni GATT "GATT 1994" olaraq adlandırılmışdır. Qeyd edək ki, GATT 1994 daha əhatəli olmuş və həm GATT 47, həm də ÜTT-ni əhatə etmişdir (Robert, 2005: 103-107).

Uruqvay Danışıqlarına qədər ilk 7 raundda yalnız emal sənayesi məhsulları müzakirə edilir və tariflərin azaldılması təmin edilirdisə, ÜTT-yə danışıqların əhatəsinə kənd təsərrüfatı məhsulları, xidmətlər, əqli mülkiyyət hüquqları, ticarətlə bağlı sanksiya tədbirləri və ticarət siyasətlərini nəzərdən keçirmə mexanizmi daxil olmuşdur. Bundan əlavə, əvvəllər sazişin əhatə dairəsinə daxil olmayan və Tokio Raundunun sonunda qəbul edilmiş Subsidiyalar və Kompensasiya Vergi Tədbirləri, Ticarətdə Texniki Maneələr, İdxal Lisenziyası Proseduru, Dövlət Satınalmaları, Gömrük Qiymətləndirmə və Antidempinq Sazişləri ÜTT-nin əhatə dairəsinə daxil edildi.

Ümumdünya Ticarət Təşkilatının yaradılması haqqında saziş dörd əlavədən və bu əlavələrin alt başlıqlarından ibarətdir. Bunların arasında Əlavə-1 Çoxtərəfli Ticarət Sazişlərini əhatə edir və üç alt başlıqdan ibarətdir: Malların Ticarəti üzrə Çoxtərəfli Sazişlər, Xidmətlərin Ticarəti üzrə Baş Saziş və Ticarətlə Əlaqədar Əqli Mülkiyyət Hüquqları üzrə Saziş. Əlavə-2 Mübahisələrin Həlli Qaydaları və Prosedurları haqqında Sazişdir. Əlavə-3 Ticarət Siyasətinə Nəzarət Mexanizmi haqqındadır. Əlavə-4 isə Çoxsaylı Ticarət Sazişlərini əhatə edir. Müqaviləni imzalayan ölkələr avtomatik olaraq Əlavə 1, 2 və 3-ü imzalayacağı halda, Əlavə 4-ü istəyən ölkə isə onu ayrıca imzalamalıdır (Crowley, 2003: 46-53).

**Azərbaycanın ÜTT-yə üzvlük prosesi** – Azərbaycan ÜTT Katibliyinə üzv olmaq üçün 1997-ci il iyunun 23-də müraciət etmişdir. 16 iyul 1997-ci ildə bu müraciət üçün ÜTT tərəfindən İşçi Qrup yaradılmışdır. Azərbaycanın ÜTT-yə üzvlüyü ilə bağlı Azərbaycan Respublikası Nazirlər Şurasının 22 avqust 2003-cü il tarixli qərarı ilə üzvlük məsələləri ilə məşğul olan Komissiya yaradılmışdır. 2009-cu ildə bu Komissiyanın yeni tərkibi təsdiq edilmişdir. Qoşulma prosesini sürətləndirmək məqsədilə 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tədbirlər Planı" təsdiq edilmişdir. Yarandığı gündən 2023-cü ilə qədər İşçi Qrup 15 iclas keçirmişdir (Hüseynova, 2018: 8-11).

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Katibliyinin xarici iqtisadi əlaqələr sahəsində ÜTT-yə üzvlük məsələsi ilə bağlı apardığı araşdırmanın nəticələrinə görə, xarici investorlar ümumilikdə investisiya imkanları daha çox və riskləri az olan və investisiya siyasətini yaxşı bir şəkildə həyata keçirə bilən ölkələrə investisiya yatırırlar. Digər tərəfdən, xarici investorlar ÜTT-yə üzv olan ölkələrə sorğu-sualsız investisiya qoymağa çalışırlar. Bu baxımdan ÜTT Azərbaycanda baş verən müsbət dəyişikliklər barədə digər üzv ölkələri və xarici investorları mütəmadi olaraq məlumatlandırmaqla ölkəyə kapital cəlb edə bilər. Azərbaycanın üzvlüklə bağlı danışıqlarda mövqeyi dörd əsas istiqamətdə müəyyən edilmişdir. Bunlar aşağıdakılardır (8):

- Mal Ticarəti
- Xidmət Ticarəti
- Əqli mülkiyyət
- ÜTT qaydalarından kənar məsələlər

**Leaseback** – satış və geriyə lizinq. Lizinqalanın maliyyə ehtiyacını qarşılayan ən sərfəli maliyyə xidmətlərindəndir. Belə ki, lizinqalan mülkiyyətində və istifadəsində olan əmlakı lizinq şirkətinə sata və eyni zamanda geriyə lizinqə götürə bilər. Bu zaman lizinqalan həm əmlakı özündə saxlayır, istifadə edir və eyni zamanda digər ehtiyaclarını ödəmək üçün pul vəsaiti əldə edir.

Lizinq istehsalatın müasirləşdirilməsi və kiçik sahibkarlığın inkişafı yolunu təklif edir. Kiçik və orta müəssisələrin kredit qabiliyyəti aşağı olduğuna, onlar likvid girovun təklif edilməsi imkanına malik olmadıqlarına görə həmin müəssisələrin maliyyələşdirilməsində lizinq şirkətləri mühüm rol oynayırlar.

Lizinq maliyyə bazarında rəqabətin artmasına xidmət edir. Dövriyyə vəsaitlərinin maliyyələşdirilməsindən aşağı riskli olan lizinq bank kreditindən daha ucuz maliyyələşdirmə üsuludur və onunla birbaşa rəqabət təşkil edir. İnkişaf edən ölkələrdə lizinq bank kreditləşməsinin alternativi olaraq müəssisələrə həm lizinqdən, həm də bank kreditindən istifadə edilməsinə və təmin edilmiş borcun məbləğinin aşmamasına imkan yaradır (Ataşova, 2016:391).

Lizinq ümumiyyətlə iqtisadiyyata kapital qoyuluşlarının həcmini artırır Bank maliyyələşdirməsinə alternativ kimi çıxış edən lizinq digər maliyyələşdirmə formalarından istifadə edilməsinə imkan yaradır.

Lizinq avadanlığın satış həcmlərinin artmasına xidmət edir. Lizinq yerli və xarici mal verənlərə kredit almayan müəssisələr sırasından yeni alıcı sayının artması mexanizmini təklif edir (Fletcher, 2005: 35).

Lizinq prosesi bir neçə mərhələdən keçir:

- Lizinqalan əldə etmək istədiyi əmlak barədə məlumat verməklə lizinqverənə müraciət edir;
- Lizinqverən daxil olmuş müraciət üzrə lizinq obyektinin funksionallığı, keyfiyyəti, real bazar dəyəri və lizinqalanın maliyyə vəziyyətini təhlil edərək qərar verir;
- Lizinq, alqı-satqı müqavilələri bağlanır və lizinqverən əmlakın əldə edilməsini təmin edir;
- Lizinq obyekti tam işlək və saz vəziyyətdə lizinqalana təhvil verilir;
- Mümkün riskləri qarşılamaq məqsədilə lizinq obyekti lizinqverən tərəfindən sığortalanır;
- Qarşılıqlı razılaşma əsasında lizinq ödənişləri qrafiki tərtib olunur və lizinq ödənişləri lizinqalan tərəfindən lizinqverənə ödənilir;
- Lizinq dövründə lizinq obyekti ilə bağlı yaranan hər hansı problemlə bağlı lizinqverən lizinqalana dəstək və məsləhət verir;
- Lizinq münasibəti başa çatdıqdan sonra əmlak lizinqalanın mülkiyyətinə keçir.

Lizinq əməliyyatlarının dəqiq müəyyənləşdirilməsinin böyük praktiki əhəmiyyəti var, belə ki, qanunvericiliklə müəyyən edilmiş sənədləşdirmə qaydalarına riayət olunmazsa, müqvilənin hər iki iştirakçısı maliyyə itkilərinə məruz qalarlar.

Lizinq müqaviləsinin əsasını aşağıdakılar təşkil edirlər:

- Müqavilənin obyekti;
- Müqavilənin subyektləri;
- Lizinq müqviləsinin müddəti;
- Lizinq ödənişləri;
- Lizinq üzrə təklif olunan xidmətlər.

Lizinq müqaviləsinin obyekti rolunda istehsal zamanı məhv olmayan istənilən növ maddi sərvətlər çıxış edə bilər. İcarəyə götürülmüş obyektin təbiətinə görə daşınmaz və daşınan obyektin lizinqi fərqləndirilir (Niftullayev, 2002: 615).

Lizinq müqaviləsinin subyektləri rolunda lizinq müqviləsinin obyektinə bilavasitə aidiyyatı olan tərəflər çıxış edirlər. Bununla belə onları birbaşa və dolayı iştirakçılara bölmək olar. Lizinq müqaviləsinin birbaşa iştirakçılarına aiddir:

- Lizinq firmaları və ya şirkətləri;
- İstehsal, ticarət və nəqliyyat müəssisə və işçiləri ;
- Müqavilə obyektinin tədarükçüsü – istehsal və ticarət şirkətləri.

Lizinq sövdələşmələrinin dolayı iştirakçıları aşağıdakılar sayılırlar:

- Lizinqverəni kreditləşdirən və müqvilənin zamini rolunda çıxış edən kommersiya və investisiya bankları;
- Sığorta şirkətləri;
- Broker və digər vasitəçi şirkətlər (Qolubitskaya, 2020: 32).

Lizinqin bir investisiya mexanizmi kimi inkişafı nəticəsində banklar və sığorta şirlətləri də lizinq münasibətlərinə qatılırlar.

Müasir ekspert ticarətində istifadə olunan maliyyələşdirmə formalarından biri lizinq hesab edilir. Onun köməyi ilə banklar və maliyyə korporasiyaları dəniz gəmilərinin və təyyarələrinin, neft hasilatı və faydalı qazıntılar çıxarılması lazım olan iri avadanlıqların, habelə digər istehsal vasitələrinin beynəlxalq lizinqini maliyyələşdirir (Həsənov, 2013: 276).

Əgər lizinqin iştirakçıları müəyyən bir dövlətin subyektləri olarsa belə lizinqə daxili lizinq deyilir. Əgər lizinq əməliyyatın həyata keçirən lizinq verən və lizinq alan müxtəlif dövlətlərin subyektləri olarsa ,bu cür əməliyyata beynəlxalq lizinq deyilir. Göründüyü kimi, beynəlxalq lizinqin subyektləri ayrı-ayrı ölkələrdə yerləşir. Beynəlxalq lizinqin eksport və imort lizinq olmaqla iki növü var, eksport lizinqin mahiyyətini lizinqə verilmək üçün əmlakın xaricə aparılması təşkil edir. Belə ki, import lizinqə görə lizinqə verilmək üçün əmlak xaricdən müəyyən bir ölkəyə gətirilir (Abbasov, 2005: 537).

Lizinqin həm istifadəçi, həm də lizinq verən üçün bir sıra üstünlükləri və çatışmazlıqları mövcuddur. Belə ki, lizinq alan üçün üstünlük hesab olunun, lizinq verən üçün çatışmazlıq ola bilər. Bu üstünlükləri və çatışmazlıqları aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

Lizinqin üstünlükləri:

- Əməliyyatın aənədləşdirilməsinin nisbətən daha asan olması;
- Lizinq alanın biznesinin xüsusiyyətlərindən asılı olaraq, lizinq ödənişləri tərəflərin razılığı ilə müxtəlif qrafiklərlə ödənilməsi;
- Əmlakı lizinq yolu ilə əldə etməklə sahibkar özünün vergi ödənişlərini optimallaşdıra bilər;
- Lizinq müqaviləsinin xitam verilməsi daha asandır;
- Lizinq predmetinin dəyişdirilməsi daha asan həyata keçirilir.

Lizinqin çatışmazlıqları:

- İlk növbədə qeyd etmək lazımdır ki, lizinq faizləri adətən kredit faizlərindən daha yüksək olur.
- Lizinqin digər çatışmayan cəhəti, əmlaka mülkiyyət hüququnun olmamasıdır.
- İlkin ödənişin tələb edilməsi, lizinqin çatışmazlıqlarından hesab edilir
- Lizinq zamanı əmlakın iki dəfə sənədləşdirilməsindən ibarətdir. Adətən lizinqin predmeti olan əmlak ilk dəfə Lizinq verənin adına qeydiyyat olunur, lizinq müqaviləsinin sonunda isə əmlak lizinqə götürənin adına keçir (Qarayev, 2017:16).

## Nəticə

“Lizinq əməliyyatlarının uçotu “ mövzusunda yerinə yetirilmiş məqalədə aşağıda verilən nəticə xarakterli müddəalar alınmışdır. İqtisadi subyektlərin maşın, avadanlıq, cins heyvanlar və digər bu kimi uzunmüddətli aktivlərlə təmin edilməsində lizinq böyük rol oynayır. Lizinq müəssisə, təşkilatların istehsal vasitələri ilə, eləcə də ayrı-ayrı fiziki şəxslərin bir sıra şəxsi əmlak növləri ilə təmin edilməsi üçün əlverişli maliyyə mənbəyidir.

Lizinq əməliyyatları bir çox xüsusiyyətləinə görə icarə əməliyyatlarına çox bənzəyir. Bununla yanaşı, lizinq əməliyyatları icarə əməliyyatlarından fərqlənir. Adi icarə zamanı icarə müddəti bitdikdə uzunmüddətli aktiv əmlakını icarəyə götürən tərəf həmin əmlakı icarəyə verən tərəfə qaytarmalıdır, lakin lizinq əməliyyatlarına münasibətdə bu hallar bir qədər fərqli şəkildə təzahür edir. Lizinq əməliyyatlarında uzunmüddətli aktiv əmlakına sahıblik hüququ icarəyə verəndə qalır, lizinq əldə edən isə həmin əmlaka müvəqqəti istifadə hüququna malik olur.

Müasir dövrdə lizinq əməliyyatlarının uçotunun təkmilləşdirilməsi məsələləri bir-birilə sıx bağlı olan iki istiqamətə malikdir ki, onlardan da biri lizinq əməliyyatlarının uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması, digəri isə onun kompüterləşdirilməsi və bununla da beynəlxalq standartlara uyğun olan uçot-analitik proseslərin müasir kompüter texnologiyası vasitəsilə işlənməsindən ibarətdir.

## Ədəbiyyat

1. https://banker.az/lizinq-n%C9%99dir/
2. İvut, R.B. (2021). Lizinq. Minsk: BNTU, 139 s.
3. Zeynalov, Z. (2013). Lizinq. Digesta. Bakı, 156 s.
4. https://mcb.az/xeberler/lizinq-nedir/
5. https://facemark.az/site/news/15283/lizinq-nedir-ve-hansı-novleri-var-15283.html
6. Ataşova, B. (2016). Maliyyə bazarları. Kooperasiya: Bakı, 456 s.
7. Fletcher, M. (2005). Leasing in development. Finance Corporation: Washington, 78 p.
8. Niftullayev, V. (2002). Sahibkarlığın əsasları. Bakı: Zaman, 618 s.
9. Qolubitskaya, A. (2020). Osnovi lizingovoy deyatelnosti. Minsk, 103 s.
10. Həsənov, H. (2013). Beynəlxalq biznes. Bakı, 332 s.
11. Abbasov, A. (2005). Biznesin əsasları. Bakı: Nurlan, 656 s.
12. Qarayev, İ. (2017). Lizinq fəaliyyətində dövlət siyasəti. Bakı, 19 s.

Göndərilib: 04.10.2023 Qəbul edilib: 01.12.2023

DOI: https://doi.org/10.36719/2663-4619/98/60-64

**Murad Abbasov**
Bakı Dövlət Universiteti
bakalavr
murad.abbasov2004@bk.ru

# AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİNİN BEYNƏLXALQ ƏMƏKDAŞLIĞI

**Xülasə**

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Azərbaycan Respublikasında maliyyə siyasətini həyata keçirən və dövlət maliyyəsinin idarə olunmasını təşkil edən mərkəzi icra hakimiyyəti orqanıdır. Maliyyə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 09 fevral tarixli 48 nömrəi Fərmanı ilə təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

Həmin Fərmanla Nazirliyin strukturu və onun strukturuna daxil olan Dövlət Xəzinədarlığı Agentliyi, Dövlət Borcu və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi və Dövlət Maliyyə Nəzarəti Xidmətinin də Əsasnamələri təsdiq edilmişdir.

Maliyyə Nazirliyinin Əsasnaməsinə uyğun olaraq Nazirliyin aparatı və Dövlət Xəzinədarlığı Agentliyi, Dövlət Borcu və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi, Dövlət Maliyyə Nəzarəti Xidməti, Nazirliyin yerli bölmələri və tabeliyində olan digər qurumlar Nazirliyin vahid sistemini təşkil edir. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi Nazirliyin sisteminə daxildir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 06 aprel tarixli 55 nömrəli Qərarı ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı təsdiq olunmuşdur. Həmin qurumlar aşağıdakılardır: Maliyyə Elm-Tədris Mərkəzi, Məlumat-Hesablama Mərkəzi və "Maliyyə və uçot jurnalı redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti daxildir.

***Açar sözlər:*** *maliyyə, Elm-Tədris Mərkəzi, məlumat, hesablama*

**Murad Abbasov**
Baku State University
bachelors
murad.abbasov2004@bk.ru

## International cooperation of Ministry of Finance of the Republic of Azerbaijan

**Abstract**

The Ministry of Finance of the Republic of Azerbaijan is the central executive authority that implements financial policy and organizes the management of state finances in the Republic of Azerbaijan. The Ministry of Finance operates in accordance with the Regulations approved by the Decree No. 48 of the President of the Republic of Azerbaijan dated February 9, 2009.

With that Decree, the structure of the Ministry and the Regulations of the State Treasury Agency, the State Debt and Financial Liabilities Management Agency and the State Financial Control Service included in its structure were approved.

In accordance with the Regulation of the Ministry of Finance, the apparatus of the Ministry and the State Treasury Agency, the State Debt and Financial Liabilities Management Agency, the State Financial Control Service, the Ministry's local divisions and other subordinate institutions constitute the Ministry's unified system. The Ministry of Finance of the Nakhchivan Autonomous Republic is included in the system of the Ministry.

By Resolution No. 55 of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated April 6, 2010, the list of subordinate institutions not included in the structure of the Ministry of Finance of

the Republic of Azerbaijan was approved. Those institutions are as follows: Financial Science-Education Center, Data-Computing Center and "Finance and Accounting Journal Editorial" Limited Liability Company.

***Keywords:*** *financial, Science-Education center, data, calculation*

## Giriş

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Azərbaycan Respublikasının Əmək Məcəlləsində: müvafiq hüquq normaları ilə əmək münasibətlərində işçilərin və işəgötürənlərin əmək, sosial, iqtisadi hüquqları və bu hüquqlarla bağlı müvafiq təminatların minimum səviyyəsi; Azərbaycan Respublikası Konstitusiyasının ikinci bölməsində nəzərdə tutulan əmək, istirahət, təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnun, habelə digər əsas insan hüquqlarının və azadlıqlarının təmin edilməsi prinsipləri və qaydaları; Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Beynəlxalq Əmək Təşkilatının konvensiyalarına və digər beynəlxalq hüquq normalarına uyğun olaraq əmək münasibətlərinin yaranması, dəyişdirilməsi, onlara xitam verilməsi və bu münasibətlərin iştirakçılarının hüquqlarının mühafizəsi sahəsində işçilərin, işəgötürənlərin, habelə müvafiq dövlət hakimiyyəti orqanlarının hüquqlarını, vəzifələrini tənzim edən normalar təsbit edilir (1). Azərbaycanın İslam İnkişaf Bankı Qrupu ilə əməkdaşlığı Azərbaycan İİB Qrupuna daxil olan qurumlardan üçünün - İslam İnkişaf Bankının (1992-ci ildən), Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasının (2002-ci ildən) və Ticarətin Maliyyələşdirilməsi üzrə Beynəlxalq İslam Korporasiyasının (2014-cü ildən) üzvüdür. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 856 nömrəli Fərmanı ilə İİB-də Azərbaycan Respublikasının iqtisadiyyat naziri ölkəmiz üzrə rəhbər, Azərbaycan Respublikasının maliyyə naziri ehtiyat (alternativ) rəhbər təyin edilmişdir (2). 2010-cu il iyun ayında İİB Qrupunun 35-ci illik toplantısı Bakıda keçirilmişdir. Azərbaycan İİB-ə 1992-ci il 4 iyulda üzv olmuşdur. Ölkəmiz Bankın ümumi abunə kapitalının 0,10%-ni təşkil edən 56,49 mln. İD dəyərində 5649 səhmə 8 sahibdir ki, bunun da 14,7 mln. İD-si ödəniləndir (paid-in). Ölkəmiz tərəfindən qeyd olunan kapitala abunəlik 2016- 2035-ci illərdə illik ödəniş edilməklə həyata keçiriləcək. İİB Azərbaycanda əsasən nəqliyyat, enerji, meliorasiya, su təsərrüfatı, qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması sahələrində layihələri maliyyələşdirir. İİB ilə ilk kredit layihəsi 1994-cü ildə imzalanmışdır. Həmin dövrdən 2022-ci ilədək 9 ölkəmizə 34 layihə çərçivəsində 664,1 mln. İD (1.012,4 mln. ABŞ dolları) məbləğində kredit ayrılmışdır. İİB tərəfindən indiyədək Azərbaycan üçün ümumi dəyəri 2,7 mln. İD (3,9 mln. ABŞ dolları) olan 20 texniki yardım layihəsi maliyyələşdirilmişdir. Bununla yanaşı, Bank tərəfindən 107,2 mln. İD (160,8 mln. ABŞ dolları) dəyərində 18 ticarətin maliyyələşdirilməsi layihələri və 1,4 mln. İD (2,0 mln. ABŞ dolları) dəyərində 3 xüsusi dəstək əməliyyatlarının maliyyələşdirilməsi həyata keçirilmişdir (3). Azərbaycan Bankın Direktorlar Şurasında Albaniya, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğız Respublikası və Qazaxıstanın da daxil olduğu ölkələr qrupunun üzvüdür. Ölkəmiz 2002-ci ildən etibarən İİB Qrupuna daxil olan Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasının üzvüdür. Korporasiya bu günə kimi ölkəmizin özəl sektoruna 13 layihə üzrə 110,2 mln. ABŞ dolları məbləğində kredit ayırmış, o cümlədən Azərbaycan İnvestisiya Şirkəti ilə birgə Xəzər Beynəlxalq İnvestisiya Şirkətinin təsis edilməsində iştirak etmişdir. Azərbaycan Ticarətin Maliyyələşdirilməsi üzrə Beynəlxalq İslam Korporasiyasının Təsis edilməsi haqqında Sazişi 2013-cü il 17 dekabr tarixində təsdiq etmişdir. Korporasiyada ölkəmiz minimal sayda, yəni 500,0 min ABŞ dolları dəyərində 50 səhmə sahibdir ki, bu da abunə kapitalının 0,06%-ni təşkil edir (4). İqtisadi Əməkdaşlıq Təşkilatının Ticarət və İnkişaf Bankı Bank haqqında ümumi məlumat. İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Ticarət və İnkişaf Bankının yaradılması təşəbbüsü təşkilatı təsis edən ölkələr tərəfindən (Türkiyə, İran, Pakistan) irəli sürülmüşdür. Bankın yaradılması haqqında müqavilə ECO-nun 1995-ci il 15 mart tarixində İslamabadda keçirilmiş ECO-nun üzv ölkələrinin dövlət başçılarının 3-cü zirvə görüşü zamanı Türkiyə, İran və Pakistan tərəfindən imzalanmışdır. 2005-ci il 3 avqust tarixində

təsisçi ölkələr tərəfindən Bankın yaradılması haqqında Maddələr Sazişi1 (nizamnaməsi) ratifikasiya edilmişdir. 2007-ci ilin iyul ayında Bankın baş qərargahı haqqında razılıq Türkiyə Respublikası tərəfindən təsdiqlənərək, Bankın yaradılması ilə bağlı prosedurlar başa çatdırılmışdır. Qərargahı İstanbulda yerləşən Bank 2008-ci ilin dekabr ayından fəaliyyətə başlamışdır. Həmçinin İranın paytaxtı Tehran şəhərində və Pakistanın Kəraçi şəhərində Bankın nümayəndəlikləri təsis olunmuşdur. Bankın fəaliyyət istiqamətləri (5). Bank üzv ölkələrin kənd təsərrüfatı, enerji, nəqliyyat, informasiya texnologiyaları, kiçik və orta sahibkarlığın inkişafı, sənaye, xidmət və s. sahələrinin inkişafı məqsədilə həmin dövlətlərə və özəl sektora kredit verməklə maliyyə dəstəyi göstərir. Eyni zamanda Bank üzv ölkələrdə dövlət və özəl sektor sərmayələri, əməkdaşlıq və inkişaf mövzularında birgə proqramlar təşkil edir. 2021-ci ilin sonunda Bankın aktivləri 464,7 mln. EU, kredit portfeli 238,3 mln. EU təşkil etmişdir. Həmin il üzrə Bankın xalis gəlirləri 9,1 mln. EU olmuşdur.6 Bank tərəfindən 2008-ci ildən 2022-ci ilin iyul ayının sonunadək üzv dövlətlərdə müxtəlif əməliyyatlara 2,38 milyard ABŞ dolları məbləğində kredit ayrılmışdır. Bank həmçinin İslam İnkişaf Bankı, Asiya İnkişaf Bankı və Beynəlxalq Maliyyə Korporasiyası kimi beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq edir (6). ECO-ya üzv olan Qazaxıstan, Tacikistan, Türkmənistan və Özbəkistanın Banka qoşulması gözlənilir. Bank və Azərbaycan. Azərbaycan Respublikası tərəfindən Bankın nizamnaməsi 2012-ci il 28 sentyabr tarixində imzalanmış, 2013-cü il 15 fevral tarixli 557-IVQ nömrəli Qanunla təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 fevral tarixli 102 nömrəli Fərmanına əsasən iqtisadiyyat naziri vəzifəsinə görə Bankın Rəhbərlər Şurasında Azərbaycan Respublikasından rəhbər, maliyyə nazirinin müavini isə alternativ rəhbər təyin edilmiş və onlara Bankda Azərbaycan Respublikasını təmsil etmək səlahiyyəti verilmişdir. Azərbaycan Bankda ümumi dəyəri 32,5 mln. EU olan 325 səhmə sahibdir ki, bu ümumi səhmlərin 2,98%-ni təşkil edir. Nizamnamə kapitalının 9,75 mln. EU təşkil edən ödənilən (paidin) hissəsi üçün ödənişlərin edilməsi ilə bağlı ölkəmizin öhdəlikləri 2013-2018-ci illərdə həyata keçirilmişdir. 2008-2022-ci illərdə Bank tərəfindən mikro, kiçik və orta sahibkarlığın inkişafı və ticarətin maiyyələşdirilməsi məqsədilə ölkəmizə 10,83 milyard ABŞ dolları məbləğində kredit ayrılmışdır. 2014-2022-ci illərdə Bank ilə TuranBank ASC arasında ümumilikdə 9,0 mln (7). ABŞ dolları həcmində 4 kredit sazişi imzalanmışdır. Asiya İnfrastruktur İnvestisiya Bankı Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) 2015-ci il 29 iyun tarixində, Pekin şəhərində 57 təsisçi ölkə (37 regional, 20 qeyri-regional), o cümlədən Azərbaycan Respublikası tərəfindən AİİB-nin yaradılması haqqında Maddələr Sazişinin imzalanması ilə təsis olunmuş, 2016-cı il 16 yanvar tarxində fəaliyyətə başlamışdır. AİİB dayanıqlı infrastrukturun maliyyələşdirilməsi missiyasını yerinə yetirən və Çin hökumətinin təşəbbüsü ilə yaradılmış çoxtərəfli inkişaf bankıdır. Bankın fəaliyyəti AİİB-nin təsisi haqqında Maddələr Sazişi 1 və AİİB-nin Əsasnaməsi2 ilə tənzimlənir. Baş ofisi Çinin paytaxtı Pekin şəhərində yerləşir. AİİB-yə 106 ölkə 3 qoşulmuşdur ki, bunlardan 47-si regional, 45-i qeyri-regional, 14-ü isə namizəd üzv ölkələrdir. Bankın siyasətini müəyyən edən ali orqan hər bir üzv dövlətin bir nəfər nümayəndəsindən ibarət, illik əsasda toplanan Rəhbərlər Şurasıdır (8). Rəhbərlər Şurası öz növbəsində Direktorlar Şurasının5 on iki üzvünü və onların müavinlərini seçir. Direktorların doqquzu regional üzv ölkələrdən, digərləri isə qeyri-regional üzv ölkələrdən seçilir. Rəhbərlər Şurası, həmçinin Bankın Prezidentini seçir. Prezident Bankı idarə edir və Direktorlar Şurasına sədrlik edir. Prezident regional üzv ölkələr sırasından 5 illik müddətə seçilir və ikinci dəfə seçilmək hüququna malikdir. 2016-2020-ci illərdə Bankın Prezidenti çinli Jin Liqun olmuşdur. 2021-2025-ci il dövrü üzrə prezidentlik vəzifəsinə yenidən cənab Liqun seçilmişdir. Bankın nizamnamə kapitalı hər biriin nominal dəyəri 100,0 min ABŞ dolları olmaqla, ümumilikdə 10 000 000 ədəd səhm və ya 100,0 mlrd. ABŞ dolları təşkil edir ki, bunun da 20,0 mlrd. ABŞ dolları ödənilən (paid-in), 80,0 mlrd. ABŞ dolları çağırıla bilən (callable) şəklində bölüşdürülmüşdür. 2023-cü il 8 may tarixinə olan məlumata6 əsasən nizamnamə kapitalının 96,96 mlrd. ABŞ dollarına üzv ölkələr tərəfindən abunəlik həyata keçirilmişdir. Bankın ən iri səhmdarları Çin (30,71%), Hindistan (8,63%), Rusiya (6,74%), Almaniya (4,62%) və Koreya Respublikasıdır (3,86%). Bankın prosedur qaydalarına əsasən, Banka yeni üzv ölkə qəbul edildikdə, səhm kapitalında iştirakla bağlı öhdəliklər ödənilən kapitalın (paid-in) 5 bərabər illik ödənişlərlə Banka köçürülməsi ilə həyata

keçirilir. Birinci ödəniş üzv dövlət tərəfindən Bankın nizamnaməsi təsdiq edildikdən 30 gün müddətində, növbəti ödənişlər isə əvvəlki ödənişdən bir il sonra başa çatdırılmalıdır. Hər bir üzv ölkənin ümumi səsvermə hüququ Bankın ümumi səslərinin 12 faizinin 57-yə bölünməsi ilə əldə edilən baza səslərinin (hazırda 2430 səsə bərabərdir), həmin üzvə məxsus Bankın kapitalındakı səhmlərin sayına bərabər pay səslərinin və təsisçi üzv olduğu halda, onun təsisçi üzv ölkə kimi səslərinin (600 səs) cəmindən ibarətdir (9). Ümumilikdə 1 128 032 səsvermə hüququnda Çin (26,58%), Hindistan (7,60%), Rusiya (5,98%), Almaniya (4,16%) və Koreya Respublikası (3,50%) ən çox paya malik üzv ölkələrdir. 2023-cü il 15 may tarixinə olan məlumata7 əsasən yarandığı tarixdən etibarən, AİİB tərəfindən 34 üzv ölkədə enerji, maliyyə, nəqliyyat, iqtisadi dayanıqlıq, səhiyyə, su və digər sektorlar üzrə 41,22 mrld. ABŞ dolları həcmində 217 kredit və investisiya layihələrinin maliyyələşdirilməsi təsdiqlənmişdir. AİİB və Azərbaycan. 2015-ci il 29 iyun tarixində Pekin şəhərində Azərbaycan Respublikası tərəfindən imzalanmış AİİB-nin Maddələr Sazişi Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 166-VQ nömrəli Qanunu ilə təsdiq edilmişdir (10). 2016-cı il 24 iyun tarixində Azərbaycan Respublikası Bankın tamhüquqlu regional üzvü olmuşdur. 2023-cü il 8 may tarixinə ölkəmiz Bankda ümumi səhm paketinin 0,262%-ni təşkil edən 254,1 mln. ABŞ dolları dəyərində 2541 səhmə və ümumi səslərin 0,409%-ni təşkil edən 4612 səsə malikdir. Ölkəmiz həm də Bankın təsisçisi olduğundan onun səsvermə hüququna baza səslər və təsisçi üzv ölkələr üçün nəzərdə tutulan 600 səs əlavə edilir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 2086 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının iqtisadiyyat naziri AİİB-nin Rəhbərlər Şurasında Azərbaycan Respublikası üzrə rəhbər, Azərbaycan Respublikasının maliyyə naziri alternativ rəhbər təyin edilmiş və onlara Bankda Azərbaycan Respublikasını təmsil etmək səlahiyyəti verilmişdir (11). Ölkəmiz AİİB-də Azərbaycan, Bruney, Gürcüstan, Türkiyə, Pakistan və Qırğız Respublikasının yer aldığı qrupda9 təmsil olunur. Koronavirus pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə mənfi təsirinin azaldılması ilə bağlı hökumət tərəfindən həyata keçirilən tədbirlər üçün nəzərdə tutulmuş büdcə xərclərinin dəstəklənməsi məqsədilə 2021-ci ilin noyabr ayında Azərbaycan Hökuməti ilə AİİB arasında "COVİD-19-a Aktiv Cavab və Xərcin Dəstəklənməsi Proqramı" üzrə kredit sazişi imzalanmışdır. Sazişinin şərtlərinə əsasən Proqram çərçivəsində AİİB-dən 100 mln. ABŞ dolları məbləğində kreditin 10 il müddətinə LİBOR üstəgəl 0,5 faiz dərəcəsi ilə cəlb olunması nəzərdə tutulmuşdur (12).

## Nəticə

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) - 1993-cü ildə təsis edilib və qərargahı Ankarada yerləşir. Təşkilatın məqsədi üzv ölkələr arasında elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın genişləndirilməsi, beynəlxalq səviyyədə türk dünyasının ortaq dəyərlərinin tanıdılması və təşviq edilməsi, eləcə də türkdilli ölkələr arasında mədəni əlaqələrin dərinləşdirilməsidir.

Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) - İstanbul sazişi əsasında yaradılıb və 2008-ci ildə fəaliyyətə başlayıb. Qərargahı Bakı şəhərində yerləşir. Assambleyanın məqsədi türkdilli ölkələrin parlament strukturları arasında əməkdaşlığın genişləndirilməsindən ibarətdir.

Türk Mədəniyyəti və İrsi Fondu - 22-23 avqust 2012-ci ildə Bişkekdə keçirilmiş ikinci Zirvə Görüşündə yaradılıb və Nizamnaməsi imzalanıb. Qərargahı Bakı şəhərində yerləşir. Fond türk dünyası ilə bağlı müxtəlif tədbirlər, layihələr və proqramları maliyyələşdirmək və dəstəkləmək yolu ilə türk mədəniyyətinin və irsinin qorunmasına, tədqiqinə və təbliğinə köməklik göstərir.

Türk Biznes Şurası - 2011-ci ildə təsis edilib. Qurum TDT-yə üzv ölkələrin işgüzar dairələri və digər təşkilatları vasitəsilə türkdilli ölkələr arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsini həyata keçirir.

Türk Ticarət və Sənaye Palatası - 2019-cu ildə təsis edilib. Üzv ölkələrin işgüzar dairələri, ticarət və sənaye palataları vasitəsilə türkdilli ölkələr arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsini həyata keçirir.

2022-ci ilin 11 noyabr tarixində Özbəkistanın Səmərqənd şəhərində təşkil olunmuş TDT-nin 9-cu Zirvə Görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmiş və görüşdə TDT ilə bağlı vacib qərarlar qəbul olunmuşdur. Kubanıçbek Omuraliyev TDT-nin yeni baş katibi təyin olunmuşdur.

**2021-ci ilin 24 fevral tarixində** Azərbaycan Respublikasının TDT-yə sədrliyi çərçivəsində TDT-yə üzv və müşahidəçi dövlətlərin energetika nazirlərinin 1-ci iclası videokonfrans formatında keçirilmişdir. İclasda neft-qaz sahəsində əməkdaşlıq, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, enerji səmərəliliyi, qabaqcıl texnologiyalar, enerji marşrutlarının inkişafı və şaxələndirilməsi, ölkələrin tranzit imkanlarından səmərəli istifadə və digər məsələlər müzakirə olunmuşdur. TDT-yə üzv dövlətlər arasında energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə 3 sahə üzrə alt işçi qrupların formalaşdırılması və Qazaxıstanın TDT-nin energetika nazirlərinin 2-ci iclasına ev sahibliyi etməsi razılaşdırılmışdır.

**2022-ci ilin 28 sentyabr tarixində** Almatıda Qazaxıstanın sədrliyi ilə TDT-yə üzv və müşahidəçi dövlətlərin energetika nazirlərinin 2-ci iclası təşkil olunmuşdur. Azərbaycan Respublikasının energetika naziri iclasda iştirak etmişdir. Tədbirdə TDT-nin Enerji əməkdaşlığı üzrə Proqramı (2023-2027-ci illər) və onun Fəaliyyət Planı təsdiq olunmuşdur.

**2023-ci ilin 31 mart tarixində** Budapeştdə Macarıstanın sədrliyi ilə TDT-yə üzv və müşahidəçi dövlətlərin energetika nazirlərinin 3-cü iclası keçirilmişdir. İclasda türk dövlətlərinin mənəvi birliyinin siyasi-iqtisadi tərəfdaşlıqlarla möhkəmləndirilməsinin əhəmiyyətindən bəhs olunmuşdur. İclas çərçivəsində bir sıra ikitərəfli görüşlər də təşkil olunmuşdur.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu.
3. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi.
4. Azərbaycan Respublikasının Əmək Məcəlləsi.
5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.
6. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının 2001-cı il 28 dekabr tarixli 246-IIKQ nömrəli Konstitusiya Qanunu.
7. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının 2000-ci il 21 iyul tarixli 926-IQ nömrəli Qanunu.
8. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının 2001-ci il 4 dekabr tarixli 223-IIQ nömrəli Qanunu.
9. “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının 2004-cü il 7 sentyabr tarixli 733-IIQ nömrəli Qanunu.
10. “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanunu.
11. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2004-cü il 13 yanvar tarixli 580-IIQ nömrəli Qanunu.
12. “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu.


Göndərilib: 06.11.2023 Qəbul edilib: 28.12.2023

DOI: https://doi.org/10.36719/2663-4619/98/65-70

**Günay Əliyeva**
AZMİU-nun nəzdində İnşaat kolleci
aliyevagunay23@gmail.com

# DÜZGÜN YAZI QAYDALARINA (ORFOQRAFİYA) YİYƏLƏNMƏYİN BAŞLICA ŞƏRTLƏRİ

**Xülasə**

Düzgün orfoqrafiya və qrammatika standartlarına nail olmaq üçün dilimizi yaxşı qavramaq və onun əsasları öyrənmək üçün fədakarlıq tələb olunur. Hər şeydən əvvəl sözləri düzgün yaza bilmək onların fonetikasını hərtərəfli başa düşməkdən asılıdır. Şagirdlər sözlərdə səs-simvol əlaqələrini tanımağı öyrəndikdə, danışıq dilini yazıya çevirə bilirlər. İkinci səbəb odur ki, sözlərin necə birləşdirildiyini bilmək (“köklər”, “ön şəkilçilər” və “son şəkilçilər”) orfoqrafiyaya kömək etməkdədir. Sözlərin mənşəyini öyrənmək həm düzgün yazılış həm də düzgün tələffüz üçün önəmlidir.

***Açar sözlər:*** *yazı qaydaları, düzgün tələffüz, akademik fəaliyyət*

**Gunay Aliyeva**
College of Construction under AUAC
aliyevagunay23@gmail.com

## Main conditions for learning correct writing rules (spelling)

**Abstract**

It takes commitment to understand the language and its foundations to reach standards of proper spelling and grammar. First and foremost, knowing the phonetics of a word is crucial for accurate spelling. Learning to decode words by their sound-symbol correlations equips pupils to put their spoken language into written form. The second justification is that spelling becomes easier when one is familiar with the building blocks of words ("roots," "prefixes," and "suffixes"). To master proper spelling and pronunciation, one must study the meanings of words.

***Keywords:*** *writing rules, correct pronunciation, academic activity*

## Giriş

Bacarıqlı ünsiyyətcil və bu sahədə mütəxəssis olmağın ən vacib aspektlərindən biri düzgün orfoqrafiya standartlarını öyrənməkdir. Sözləri düzgün yazmaq bacarığı dil normaları və təcrübələri ilə dərindən tanışlığı göstərir və həmçinin yazılı ifadəni təkmilləşdirir. Düzgün orfoqrafiyanın əldə edilməsi mürəkkəb və daim dəyişən bir prosesdir və bu səriştənin yetişməsi üçün zəruri olan bir neçə əsas amili əhatə edir.

Fonetikanın möhkəm qavrayışı və ya dilin səsləri və simvolları arasındakı əlaqə səriştəli yazının əsasını təşkil edir. Fonetika prosesi insanlara eşitmə məlumatını onun yazılı ekvivalentinə çevirməyə imkan verməklə danışıq və yazılı dil arasındakı boşluğu aradan qaldırır. Şagirdlər fonetikanı möhkəm qavradıqda orfoqrafiyanın mürəkkəblikləri ilə məşğul olmağa daha yaxşı hazırlaşırlar. Bu, onlara sözlərin tələffüzünü ayırd etməyə və düzgün hərf birləşmələrindən istifadə etməyə imkan verir.

Söz quruluşunun öyrənilməsi fonetikadan üstündür. Bunun üçün sözlərin quruluş bloklarını – köklərini və şəkilçilərini onların necə formalaşmasına nəzarət edən qaydaları aşkara çıxarmaq lazımdır. Şagirdlər sözlərin və ya morfologiyanın struktur bloklarını araşdırarkən linqvistik incəliyi və orfoqrafiyada dəqiqliyi yüksək qiymətləndirirlər. Orfoqrafiya meyllərini və xüsusiyyətlərini tapmaq üçün başqa bir vasitə sözlərin haradan gəldiyini və zamanla necə inkişaf etdiyini araşdıran etimoloji tədqiqat aparmalı və bundan düzgün istifadə edilməlidir.

İnsanlar mütəmadi olaraq müxtəlif orfoqrafiq problemlərlə qarşılaşırlar və söz ehtiyatları böyük və əhatəli olduqda ifadə üçün ən uyğun sözləri seçməyə daha çox meyllidirlər. Müxtəlif sözləri oxumaq və yazmaq düzgün yazı bacarıqlarının formalaşmasına və qrammatik qaydalardan təbii istifadəni təşviq edir. Nəticədə söz ehtiyatının genişləndirilməsi orfoqrafiyanın mənimsənilməsi prosesinin tərkib hissəsinə çevrilir.

Aydın olur ki, aydın və səlis yazmaq üçün yazı qaydalarına əməl etmək üçün detallara çox diqqət yetirmək vacibdir. Bunun üçün sözlərin mənalarına və xüsusiyyətlərinə qarşı diqqətli olmaq, hərf birləşmələrini hərtərəfli araşdırmaq və samitləri tanımaq bacarığı tələb olunur.

Orfoqrafiya bacarıqlarına yiyələnmək həm də yüksək səviyyədə kontekstual məlumat tələb edir. Sözün necə yazıldığını başa düşməyin ən yaxşı yolu onun kontekstdə istifadəsinə baxmaqdır. Müxtəlif sözlərin qrammatik funksiyasından, zamanından və ya cümlə istifadəsindən asılı olaraq müxtəlif yazılışları ola bilər. Orfoqrafiya qaydalarının mürəkkəb və dəqiq tətbiqi bu kontekstual incəlikləri aşkar etmək qabiliyyəti ilə gücləndirilir.

Yazılarımı təkmilləşdirməyə gəldikdə, təsirli rəy üsulları həqiqətən vacibdir. Fərdlər təlimatçıların, sinif yoldaşlarının konstruktiv tənqidi və ya özünüqiymətləndirmə yolu ilə yazılarının təkmilləşdirilməsi üçün güclü tərəflər və sahələr haqqında fikir əldə edə bilərlər. Davamlı təkmilləşdirmə prosesini təmin edən bu əks əlaqə vasitəsilə tələbələr səhvləri aşkar edib düzəldə, orfoqrafiya qaydalarını qavrayışlarını gücləndirə və linqvistik incəliklər haqqında daha çox məlumatlılıq inkişaf etdirə bilərlər.

Orfoqrafiya biliyinin təkmilləşdirilməsi bu gün ana dili təhsili qarşısında duran ən aktual problemlərdən biridir. Ana dili müəllimlərinin keçdiyi bütün dərslərin ardıcıl olaraq şagirdlərin orfoqrafiq biliyinin yüksəldilməsinə yönəldilməsi vacibdir.

Sözün fonetik cəhətdən araşdırılması, onun morfoloji quruluşunun öyrənilməsi müstəqil və səlis yazma zamanı köməyə çatmaqdadır. Bu qabiliyyət uzun müddət davam edən təcrübənin məhsulu olan mürəkkəb səriştə olan yazı bacarığının əsasını təşkil edir. Mükəmməl yazıya yiyələnmək üçün təhlil etmək bacarığı, təcrübə və yaddaş qədər vacibdir. Müqayisə üsulundan istifadə etməklə söz qrammatikası və orfoqrafiya hadisələrinin oxşar və fərqli cəhətlərini müəyyən etmək üçün də istifadə olunur.

Qrammatik nəzəriyyə və orfoqrafiya qaydalarının mənimsənilməsi tələbələrin yaxşı yazı bacarıqlarının inkişafı üçün zəmin yaradır. Orfoqrafik prinsiplər ayrı-ayrı sözlərdən çox, müəyyən xüsusiyyətləri paylaşan bütün söz qruplarının yazılışını tənzimləyir. Məlum olub ki, qaydanın bu elementi yazı prosesinin hər bir sözü əzbərləmək məcburiyyətində qalmasının qarşısını alır və ona qaydaya uyğun olaraq bütün söz qruplarını yazmağa imkan verir (Masharipovna, 2021: 206-210).

Orfoqrafiyanın öyrənilməsi yazı və oxumaq üçün də vacibdir, lakin orfoqrafiyanın necə öyrədilməsi mübahisəli məsələdir. Uşaqlar oxuyarkən sözlərlə qarşılaşdıqda müəyyən dərəcədə orfoqrafiyanı öyrənsələr də, bu, çox vaxt onların yazı bacarıqlarının inkişafında ləngimələrə səbəb olur. Uşaqlara sistemli orfoqrafiya təlimatı təkcə sözlərin necə yazılış olduğunu yadda saxlamaq üçün deyil, həm də yazı sisteminin necə işlədiyini öyrənmək üçün lazımdır (Treiman, 2018: 235-239).

Son illərdə baş verən texnoloji inqilab akademik yazıların çoxalmasına səbəb oldu, bu isə məlumatlarının artması mətn prosessorlarının əhəmiyyətini vurğuladı, artıq yazı qaydalarının tələblərinə daha çox diqqət artdı (Kale, 2018).

Həmçinin, artıq yazı qaydalarının tələblərinin yoxlanılması süni intellekt vasitəsilə əyata keçirilir bu isə xətanın ən minimuma endirilməsi məqsədini daşıyır (Song, Vold, Madan, Schilder, 2022; Wu, Lin, Leng, Li, Hu, 2022: 104-108).

Yazmaq bacarıqlarının inkişaf etdirilməi öyrənmək azyaşlıların düşüncə proseslərinin əsasını təşkil edir. Yazı oxumaqla sıx əlaqəli olduğundan, o, həm də ünsiyyət bacarıqlarına və yeni məlumatların öyrənilməsinə kömək edir. Bütün dilləri öyrənmək üçün istifadə olunan kommunikativ-funksional modeldən başlayaraq, müəyyən metodoloji qeyri-müəyyənlikləri aydınlaşdırmaq və düzgün yazı bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunan effektiv yanaşmaların tətbiqinə işıq salmaq olduqca önəmlidir (Kelemen, 2019: 183-197).

***Azərbaycan Respublikasında yazı bacarıqlarının inkişaf prosesi***

Bir sıra digər sahələrdə olduğu kimi, tədris materialına dəyişikliklər müasir dövr tərəfindən tətbiq edilmişdir. Biz passiv, birtərəfli öyrənmədən və daha dinamik, birgə öyrənməyə doğru hərəkət etdikdə, tənqidi, yaradıcı və məntiqi düşüncə kortəbii yaddaşı əvəz etdi. Bu tələbənin şəxsi inkişafı istər-istəməz cəmiyyətin tələb və istəklərinə cavab verən kadr hazırlığına gətirib çıxarır. 2006-cı ildə ilk dəfə olaraq “Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)” yaradılmış, “Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları” sənədi hazırlanmışdır. Təhsil İslahatı Proqramında qeyd edilmişdir ki, “Hər bir fənn üzrə məzmun, texnologiyalar və şagirdin qiymətləndirilməsi mexanizmləri” ən azı altı ildir fəaliyyət göstərən bu kurrikulumun tərkib hissəsidir.

Azərbaycan dili tədris proqramının əsas məqsədi şagirdlərə səlis və düzgün nitqin inkişafı üçün zəruri olan vərdişləri, bilik və bacarıqları aşılamaqdan ibarətdir. Azərbaycan dilinin tədrisində əhatə olunan fənn sahələrinə oxuma, yazma, danışma, dinləmə və anlama daxildir. Öz dilini öyrətməyə bənzər, bu mövzu mütəxəssis biliyi və xüsusi təlimatçı tələb edir. Kurrikulumun tələblərindən və dərs planından başqa, pedaqoqlar şagirdlərində tənqidi təfəkkür, orijinallıq və təşəbbüskarlığı inkişaf etdirmək üçün təhsilin innovativ yollarını fəal şəkildə axtarmalıdırlar.

Bilirik ki, “tədris metodu təlimdə müəyyən məqsədə nail olmaq üçün müəllim və tələbələrin təşkil olunmuş fəaliyyətidir”. Müasir pedaqoji təcrübələrin sinif şəraitinə daxil edilməsi "və ya daxildən çıxarmaq, aşkar etmək, özünü tanıtmaq və şərait yaratmaq və inkişaf etdirmək, daxildən öyrənmək" deməkdir. Tədris şagirdlərin öz bacarıq və istedadlarını nümayiş etdirməsinə imkan verməlidir. Məqsəd onları öz təcrübələrinə və həmyaşıdlarının təcrübələrinə əsaslanaraq müstəqil şəkildə hər hansı bir nəticəni qavraya və ifadə edə biləcəkləri bir vəziyyətə gətirmək olmalıdır.

Müasir pedaqoji təcrübələrdən istifadə müəllimin yaradıcılıq qabiliyyətlərini nümayiş etdirməklə yanaşı, həm də şagirdləri yeni şanslar qarşısında qoyur, onların qavrayış qabiliyyətini artırır və tədqiqatçılıq qabiliyyətlərinin formalaşmasına kömək edir. Məqsəd şagirddə daha çox tənqidi düşüncəni, daha yaxşı mühakimə yürütməyi və müntəzəm tədqiqat vərdişlərinin inkişafını təşviq etmək olmalıdır. Şagirdin əqli əməyinin məhsulundan aldığı böyük estetik həzz onlarda tədqiqat vərdişlərinin formalaşması prosesini tamamlamalıdır. Təlimatçının sinfə təqdim etdiyi problem nə qədər çətin, dərin və rasional olarsa, şagirdlər onu başa vurduqdan sonra bir o qədər müvəffəqiyyətli və yerinə yetirilmiş hiss edəcəklər. Beləliklə, təlimatçı birbaşa qarşısında tələbənin köməyi ilə görünməmiş yaradıcılıq işləri görür və tələbə son məhsulda əlini hiss edəndə tamamilə yeni bir təcrübə qazanır. Dərslər həm məlumatlandırıcı, həm də cəlbedici olmalı, yaradıcılığa və praktik tətbiqə önəm verilməlidir.

Müəllimlər sistematik suallar verməklə tələbələrin əməkdaşlığını təşviq edə bilər sonra isə müxtəlif cavablardan istifadə edərək, vəziyyət haqqında geniş nəticəyə gələ bilərlər. Şagirdlər alqoritm vasitəsilə öyrəndikləri prinsipləri tətbiq etmək qaydalarını inkişaf etdirirlər. İndi təlimatçının ardıcıl şəkildə suallar vermək və hər bir cavaba əsaslanaraq aydın təlimatlar verməklə bir sıra problemlər və onların həlli yolları ilə sinfə rəhbərlik etmə vaxtıdır. Şagirdlər bu sualları tamamladıqdan və cavablandırdıqdan sonra geniş mühakimə yürütürlər. Qaydaları əzbərləməklə uğur qazanmaq cəhdləri uğursuzluqla nəticələnir (7).

Bütün təbəqələrdən olan insanlar, o cümlədən akademiklər, ibtidai sinif şagirdləri, universitet tələbələr və Azərbaycanın ədəbi dili hamısı yazılı və şifahi ünsiyyət standartlarına cavab vermək üçün birlikdə çalışırlar. Səlis şifahi və yazılı ünsiyyət bacarıqlarına sahib olmaq günümüzün rəqabətli dünyasında uğur qazanmaq üçün vacibdir, eyni zamanda öz sözləri ilə başqalarına təsir etmək və inandırmaq bacarığıdır.

Geniş istifadə olunmasına baxmayaraq, Azərbaycan dili rəsmi işgüzar sənədləşmə işlərində, idarə və təşkilati sənədlərdə, öz iş üslubunun qurulmasında digər dillərdən geri qalmışdır. Hər iki üslubun spesifik aspektləri üzrə bəzi şərhlərin verilməsi hələ Azərbaycanda formal-işgüzar və formal üslubların öyrənilməsi hələ başlanğıc mərhələsindədir və bu ikisi çox vaxt fərqli məqsədlərə xidmət edir. Azərbaycan dilini, onun incəliklərini, imkanlarını və ifadə üsullarını, o cümlədən nitq mədəniyyətinin nəzəri əsaslarını, ədəbi konvensiyaları, variasiyaları və funksional üslublarını,

habelə natiqlik sənətini bilmək çox vacibdir, çünki bu mövzuları başa düşmək yazı bacarıqlarına təsir göstərir. Rəsmi və rəsmi-işgüzar sənədlər Azərbaycan cəmiyyətinin ictimai və sosial həyatında mühüm rol oynayır beləliklə, onlar kommunikativ, işgüzar və akademik ünsiyyət üçün dövlət və beynəlxalq standartlara riayət etməlidirlər. Natiqlik sənətinə yiyələnmək korporativ dünyada insanın ünsiyyət bacarıqlarını inkişaf etdirməyin vacib komponentidir. İşgüzar ünsiyyət həm yazılı, həm də şifahi ifadəni əhatə edir. İşgüzar yazışmalar müxtəlif formalarda olur, o cümlədən, lakin bunlarla məhdudlaşmayaraq təşkilatlararası və təşkilatdaxili yazışmalar, təşkilatlar və şəxslər arasında hüquqi və sənaye sövdələşmələri, dövlət, qeyri-dövlət və özəl idarə, müəssisə və qurumların idarə edilməsində istifadə olunan saysız-hesabsız sənədlər də istifadə edilməkdədir. Müəyyən dairələrdə kommersiya maraqları olan, işgüzar ünsiyyət qurmaq, işgüzar əlaqələr qurmaq və biznes problemlərini həll etmək üçün icazə verilən şəxslər tərəfindən istifadə olunur. Ona görə də rəsmi iş dili ilə bağlı məsələləri onun yazılı və şifahi formalarında müstəqil şəkildə başa düşmək lazımdır. Orta məktəbdə natiqlikdən nümunə kimi istifadə edərək, onların hər hansı bir fənn üzrə elmi məlumatların əldə edilməsi ilə necə əlaqəli olduğunu təhlil edəcəkdir. Bütün ictimai sahələr üzrə mədəni və kommunikativ cəhətdən səriştəli mütəxəssislərin yetişdirilməsi bu bilik və bacarıqların əldə edilməsində məqsəddir. Problemləri başa düşmək üçün dilin harada istifadə oluna biləcəyini düşünün (8).

Yazı sahəsini uğurla keçmək üçün mənalı ifadə üçün çərçivəni təmin edən geniş prinsiplər və təlimatlar toplusuna riayət etmək lazımdır. Yazılı ünsiyyətin ardıcıllığı və başa düşülməsi sintaksis, üslub və təşkilatı əhatə edən bu qaydalarla gücləndirilir. Bu geniş ifadələri əhatə etməklə, yazılı mesaj daha təsirli və oxunması asanlaşdırılır.

Qramatika ən əsas səviyyədə yaxşı yazının təməl daşıdır. Düzgün qrammatikadan istifadə düşüncələri dəqiq və dəqiq ifadə etməyə kömək edir ki, bu da öz növbəsində yazıçı ilə oxucunun ünsiyyətini asanlaşdırır. Qrammatika qaydalarına durğu işarələrindən, nitq hissələrindən və sintaksisdən düzgün istifadə daxildir. Qrammatik qaydalara ardıcıl olaraq riayət etmək yazılı nitqdə nizam-intizam hissi yaradır ki, bu da oxuculara heç bir əlavə çaşqınlıq olmadan fikirləri izləməyə kömək edir.

Yazının ritmi və durğu işarələrinin köməyi ilə daha yaxşı başa düşülə bilər. Vergül, nöqtə və nöqtəli vergül kimi durğu işarələri təkcə oxuculara deyilənləri anlamağa kömək etmir, həm də hekayənin necə izah olunduğuna təsir göstərir. Yazıçının durğu işarələrindən yaxşı istifadə etmək bacarığı mətnin oxunaqlılığını yaxşılaşdırır, onlara əsas məqamları vurğulamağa, fasilələri bildirməyə və fikirlərini ardıcıl şəkildə təşkil etməyə imkan verir.

Rahat şəkildə axıcı olan yazı ardıcıl zamanlardan və səslərdən istifadə edir. Aktiv və passiv səs arasında dəyişmək və ya gərginliyi keçmişdən indiyə qədər dəyişmək düşüncələrin təbii irəliləyişinə mane ola bilər. Onların hekayəsinin mənalı və asan başa düşüldüyünə əmin olmaq üçün yazıçılar gərginlik və səs tonu ilə yazını ahənkdarlığı istifadə edərkən diqqətli və ardıcıl olmalıdırlar.

Uyğunluq anlayışı təkcə cümlələrin formasını deyil, həm də abzas və esselərdə fikirlərin düzülməsini də əhatə edir. Hər bir abzas anlayışların məntiqi ardıcıllığını izləyən yaxşı təşkil olunmuş yazıda ümumi hekayə axınına əlavə edir. Hamar və başa düşülən oxu təcrübəsi üçün fikirlər və abzaslar arasında keçidlər oxucunu yazıçının düşüncə prosesindən keçirən birləşdirici əlaqə kimi olmalıdır.

Nəhayət, müəlliflərin ümumi yazı anlayışlarına daxil olan güclü və uğurlu ünsiyyət yaratmaq üçün istifadə edə biləcəyi bir sıra prinsiplər mövcuddur. Birlikdə, bu anlayışlar qrammatik əsaslardan stilistik detallara, uyğunluq və aydınlıqdan tamaşaçı məlumatlılığına qədər yazılı ünsiyyətin ərazisini formalaşdırır. Bu sahədə müəlliflər təkcə qanunlara əməl etmir, həm də fikirlərini aydın, bəlağətli və rezonansla ifadə etmək üçün dildən istifadə edirlər (Weinberger, Evans, Allesina, 2015).

Chapell (2011) və ya "Yazmanın əhəmiyyəti nədir?" verdiyi bütün faydaları görmək. kimi kömək edir:

- özünü ifadə etmək;
- ünsiyyətin gücləndirilməsi;

ELMİ İŞ Beynəlxalq elmi jurnal. 2024 / Cild: 18 Sayı: 1 / 65-70 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. 2024 / Volume: 18 Issue: 1 / 65-70 e-ISSN: 2708-986X

- düşünmə qabiliyyətlərinin inkişaf etdirilməsi;
- məntiqli və inandırıcı arqumentlər irəli sürmək;
- öz fikirlərini düşünmək və yenidən qiymətləndirmək imkanı yaratmaq;
- tənqid vermək və qəbul etmək;
- məktəbə və işə hazırlıq.

Movzunun əhəmiyyətini anlamaq üçün şəkil-də qlobal oxuma və yazma bacarıqları qeyd edillmişdir. Bu statistikanı qeyd etməkdə əsas məqsədimiz qlobal məkanda oxuma və yazma bacarıqlarının hər bir sahəyə təsir etməsi barədə məlumat qeyd etməkdir. Həmçinin elektron avadanlıqların istifadəsinin çoxalması səbəbi ilə yazı qaydalarının mənimsənilmə səviyyəsi artmışdır.




**Şəkil 1. 2000-ci ildən 2020-ci ilə qədər dünya səviyyəsində oxuma və yazma səviyyəsinin artım tempi Mənbə:** (10)

Yazının əhəmiyyəti həm akademik, həm də peşəkar şəraitdə geniş istifadə olunduğuna görə qiymətləndirilə bilməz. Tələbələr müəllimlər, müdirlər, sinif yoldaşları və onlardan özlərini yazılı şəkildə ifadə etmələrini gözləyən hər kəslə ünsiyyət qurmaqda çətinlik çəkəcəklər. Təkliflər, memorandumlar, hesabatlar, ərizələr, ilkin müsahibələr, e-poçtlar və bir sıra digər yazılı peşəkar sənədlər kollec tələbələri və yeni məzunlar üçün adi haldır.

Yazı bacarıqlarının inkişafı prosesində öyrənmək dil biliyinin digər üç sütunu - dinləmə, oxuma və danışma ilə tanışlıq və təcrübə tələb etdiyi üçün tədris prosesində xüsusi yer tutur. Bu həm də metakoqnitiv qabiliyyətlərin inkişafını zəruri edir. Akademik yazmaq tələbələrdən diqqətini konkret məqsədə yönəltməyi, ətraflı strategiya hazırlamağı, məqalənin təşkili və məntiqini nəzərdən keçirməyi, sonra yenidən yazmağı və redaktə etməyi tələb edir. Yazı prosesi boyunca koqnitiv bacarıqlar tələb olunur, çünki tələbələr bir çox mənbələrdən alınan məlumatları qiymətləndirməli və inteqrasiya etməlidirlər. Təlim prosesinin başlanğıcında tələbələrə yazmaq üçün mümkün qədər çox sərbəstlik vermək yaradıcılıq hissini ilhamlandıra və onları yazıya cəlb etməyin ən böyük üsullarından biridir (Zajicova, 2011: 104-132).

Məsələn, Maley (Maley, 2009)-a görə yaradıcı yazı bir sıra üstünlüklərə malikdir. Birincisi, bu, tələbələrə qrammatika, lüğət, fonetik və diskurs daxil olmaqla bütün səviyyələrdə dil bacarıqlarını

inkişaf etdirməyə kömək edir. İkincisi, bu, onları öz unikal mənalarını çatdırmaq üçün maraqlı və tələbkar üsullarla dildən istifadə etməyə çağırır.

Tələbələr yaradıcı şəkildə yazdıqda, onlar tez-tez özlərinə dəyər və inam hisslərində əhəmiyyətli yüksəliş yaşayırlar. Şagirdlər tez-tez dil öyrənərkən öz kəşflərini edirlər ki, bu da dil inkişafı ilə yanaşı şəxsi inkişafı da artırır. Müsbət motivasiyanın yüksəlməsi bu təkmilləşdirmələrin qaçılmaz əlavə məhsuludur.

## Nəticə

Nəticə olaraq qeyd edə bilərik ki, yazı qaydalarına riayət edilməsi şəxsin savadlılıq səviyyəsini və özün ifadə mexanizmlərinə təsir göstərir. Həmçinin günümüz də texnologiyaların inkişafı yazı qaydalarının tələblərini olan diqqəti artırdı. Həm biznes həm də şəxsi həyatımızda yer alan ünsiyyət rəsmi məqamlarda bu, qaydalara əməl edilməsinin önəmlilik səviyyəsini ortaya qoydu. Yuxarı da bir çox məsələlərə toxunaraq qeyd etdiyimiz şərtlərdən daha geniş bəhs etdik.

## Ədəbiyyat

1. Masharipovna, R.K. (2021). Formation of correct writing skills. Journal NX, 7(02), pp.206-210.
2. Treiman, R. (2018). Teaching and learning spelling. Child Development Perspectives, 12(4), pp.235-239.
3. Kale, M. (2018). Deep learning for digital text analytics: Sentiment analysis. arXiv Prepr, arXiv 1804.03673. https://doi.org/10.48550/arXiv.1804.03673
4. Song, D., Vold, A., Madan, K., Schilder, F. (2022). Multi-label legal document classification: A deep learning-based approach with label-attention and domain-specific pre-training. Information Systems, 106, 101718. https://doi.org/10.1016/j.is.2021.101718
5. Wu, L.T., Lin, J.R., Leng, S., Li, J.L., Hu, Z.Z. (2022). Rule-based information extraction for mechanical-electrical-plumbing-specific semantic web. Automation in Construction, 135, pp.104-108. https://doi.org/10.1016/j.autcon.2021.104108
6. Kelemen, G. (2019). Methods and strategies used to enhance correct writing. Educatia Plus, 22(1), pp.183-197.
7. https://www.arti.edu.az/az/presentation/935-azarbaycan-dili-tadrisinda-dil-qaydalarinin-manimsadilmasinda-alqoritmlardan-istifada
8. https://filologiya.az/images/PDF_Proqram/Muhasir_Dill/Kommunikasiya%2029.12.22.pdf
9. Weinberger, C.J., Evans, J.A., Allesina, S. (2015). Ten simple (empirical) rules for writing science. PLOS Computational Biology, 11(4), e1004205.
10. https://www.statista.com/statistics/1220131/global-adult-literacy-rate-by-gender/
11. Zajicova, P. (2011). Creative writing in teaching German. In V. Janikova (Ed.), Teaching Foreign Languages. Prague: Grada Publishing, a.s., pp.104-132.
12. Maley, A. (2009). Creative writing for language learners (and teachers). Retrieved from http://www.teachingenglish.org.uk/think/articles/creative-writing-language-learners-teachers

Göndərilib: 08.10.2023 Qəbul edilib: 30.11.2023

DOI: https://doi.org/10.36719/2663-4619/98/71-75

**İnci Məmmədova**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
indgi_00@mail.ru

# "AZƏRCONNECT" ŞİRKƏTİNİN NÜMUNƏSİNDƏN İSTİFADƏ EDİLƏN LAYİHƏDAXİLİ KOMMUNİKASİYALARIN LAYİHƏLƏRİN UĞURUNA TƏSİRİNİN TƏHLİLİ

## Xülasə

Bu məqalədə layihədaxili kommunikasiyalardan istifadənin xüsusiyyətləri müzakirə olunur. Məlumdur ki, effektiv kommunikasiya layihələrin uğurlu idarə olunmasında əsas amildir. Bu, layihə komandalarına birlikdə səmərəli işləməyə, maraqlı tərəfləri məlumatlandırmaq və son nəticədə layihənin uğuruna töhfə vermək imkanı verir. Layihənin idarə edilməsində effektiv ünsiyyətin əhəmiyyətini qiymətləndirmək olmaz. Layihə idarəetmə institutunun araşdırması göstərdi ki, zəif ünsiyyət layihənin uğursuzluğunda əsas amildir. Ünsiyyət aydın, qısa və vaxtında olarsa, bu, inamın artmasına, daha effektiv qərarların qəbul edilməsinə və ümumi məhsuldarlığın artmasına səbəb olur. Əksinə, zəif ünsiyyət anlaşılmazlıqlara, boş resurslara və komanda üzvlərinin və maraqlı tərəflərin öhdəliklərinin olmamasına səbəb ola bilər. "Azərconnect şirkəti" əsasında aparılan tədqiqat işində layihədaxili kommunikasiyalardan istifadə amilləri və onların xüsusiyyətləri öyrənilir.

***Açar sözlər:*** *iqtisadiyyat, inkişaf, Azərconnect layihəsi, effektiv ünsiyyət*

**Inji Mammadova**
Azerbaijan State University of Economics (UNEC)
master student
indgi_00@mail.ru

## Analysis of the impact on the success of projects of inter-project communications used on the based example of "Azerconnect" company

## Abstract

This article discusses the specifics of using intra-project communications. It is known that effective communication is a key factor in successful project management. It enables project teams to work together effectively, inform stakeholders and ultimately contribute to project success. The importance of effective communication in project management cannot be overstated. A study by the Project Management Institute found that poor communication is a major factor in project failures. When communication is clear, concise, and timely, it leads to increased confidence, better decision-making, and improved overall performance. Conversely, poor communication can lead to misunderstandings, wasted resources, and lack of commitment from team members and stakeholders. In the research work, the use factors of intra-project communications and their characteristics are studied on the basis of "Azerconnect" company.

***Keywords:*** *economy, development, Azerconnect project, effective communication*

## Giriş

Bu məqalə layihədaxili kommunikasiyalardan istifadənin xüsusiyyətlərini araşdırır. Məlumdur ki, effektiv kommunikasiya layihələrin uğurlu idarə olunmasında əsas amildir. Bu, layihə komandalarına birlikdə səmərəli işləməyə, maraqlı tərəfləri məlumatlandırmaq və son nəticədə layihənin uğuruna töhfə vermək imkanı verir. Layihənin idarə edilməsində effektiv kommunikasiyanın əhəmiyyətini qiymətləndirmək olmaz. Layihə İdarəetmə İnstitutunun araşdırması göstərdi ki, zəif ünsiyyət layihənin uğursuzluğunda əsas amildir. Ünsiyyət aydın, qısa

və vaxtında olarsa, bu, inamın artmasına, daha effektiv qərarların qəbul edilməsinə və ümumi məhsuldarlığın artmasına səbəb olur. Əksinə, zəif ünsiyyət anlaşılmazlıqlara, boş resurslara və komanda üzvlərinin və maraqlı tərəflərin öhdəliklərinin olmamasına səbəb ola bilər. Azerconnet şirkətinə əsaslanan tədqiqat işi layihədaxili kommunikasiyalardan istifadə amillərini və onların xüsusiyyətlərini öyrənir (Grey, Larson, 2007: 65)

Kommunikasiyalar layihə məlumatlarının vaxtında və uyğun şəkildə yaradılması, toplanması, paylanması, saxlanması və son sərəncamının təmin edilməsi ilə bağlı proseslərdir. Rabitə menecerlərin etdiyi hər şeyə nüfuz edir. Bütün funksiyalar, tapşırıqlar və idarəetmə prosesləri bu və ya digər şəkildə kommunikasiyalar vasitəsi ilə həyata keçirilir. “Təsadüfi deyil ki, kommunikasiyaların idarə edilməsi layihənin idarə edilməsinin ən mühüm alt sisteminə və uğurlu layihə menecerinin ən vacib bacarığına çevrilmişdir” (Cooke-Davis). Məhz ünsiyyət vasitəsilə layihə meneceri bir çox layihə komandaları ilə tanış olur və layihənin bütün maraqlı tərəfləri ilə qarşılıqlı əlaqədə olur.

Layihələr müxtəlif funksiyaları yerinə yetirən, çox vaxt bir-birindən xeyli məsafədə yerləşən insanlar tərəfindən həyata keçirildiyi üçün məlumat mübadiləsi və koordinasiya məsələləri çox vacibdir. “Ünsiyyət zamanı məqsədlər razılaşdırılır, insanların hərəkətləri əlaqələndirilir, problemlər müəyyən edilir və həll edilir və layihə iştirakçılarının gözləntiləri tənzimlənir” (Rubin, Seeling, 1967). Layihə rəhbərləri adətən bir neçə ünsiyyət problemi ilə üzləşirlər: Müxtəlif maraqlı tərəflər. Layihələr çox vaxt fərqli perspektivləri, prioritetləri və ünsiyyət üstünlükləri olan müxtəlif maraqlı tərəfləri əhatə edir. Hər kəsin ehtiyac duyduğu məlumatı başa düşdüyü və fəaliyyət göstərə biləcəyi formada almasını təmin etmək çox vacibdir. Proqram təminatının hazırlanması layihəsində layihə meneceri inkişaf qrupu, QA komandası, müştəri nümayəndələri və istifadəçilərlə effektiv əlaqə saxlamalıdır. Hər bir qrupun fərqli ehtiyacları və gözləntiləri var və layihə meneceri öz ünsiyyət tərzini buna uyğunlaşdırmalıdır (Valova, 2002).

Bu məqalədə «Azerconnect» şirkətinin nümunəsində daxili layihə kommunikasiyalarının layihələrin uğuruna təsiri problemi araşdırılacaq. Bu cari problemi təhlil etməyə başlamazdan əvvəl bu şirkətin yaranma tarixinə nəzər salaq (Frank, Brownell, 1989).

«Azerconnect» 2013-cü ildə yaradılıb. Şirkət dördüncü sənayeləşmə fonunda dünyada mövcud tendensiyaları və bu inqilabın əsasını təşkil edən rəqəmsallaşma, rəqəmsal transformasiya, rəqəmsal qloballaşma proseslərini yaxından izləyir və öz fəaliyyətində qabaqcıl qlobal təcrübəni tətbiq edir. Azerconnect Azərbaycanın İKT bazarında fəaliyyət göstərən şirkətlərə keyfiyyət göstəricilərini yaxşılaşdırmağa və xərcləri optimallaşdırmağa imkan verən texniki, informasiya texnologiyaları, eləcə də digər sahələrdə optimal həllər təklif edir. Qeyd edək ki, Azərbaycanda ilk dəfə İKT sahəsində Azerconnect tərəfindən ən yaxşı beynəlxalq təcrübəyə əsaslanan bu xidmətlər bir çox inkişaf etmiş ölkələrdə, o cümlədən ABŞ və Avropa İttifaqında geniş istifadə olunur (Rubin, Seeling, 1967).

Yuxarıda göstərildiyi kimi, layihədaxili kommunikasiyalar layihənin uğuruna əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Layihədaxili kommunikasiyaların müxtəlif aspektləri və təzahürləri arasında bu tədqiqatın məqsədi layihə komandalarının daxili kommunikasiyalarının strukturunun kəmiyyət xüsusiyyətləri ilə layihənin uğurunun kəmiyyət göstəriciləri arasında əlaqəni müəyyən etməkdir.

Tədqiqatın əsas fərziyyəsi ondan ibarətdir ki, layihə qruplarının daxili kommunikasiyalarının strukturunun kəmiyyət göstəriciləri (sıxlıq, orta dərəcə və mərkəzləşmə kimi) ilə layihənin uğur göstəriciləri (büdcədən və planlaşdırılan müddətlərdən yayınma, müştəri məmnuniyyəti) arasında əlaqə var...

Tədqiqat hərtərəfli informasiya texnologiyaları həlləri hazırlayan Azərbaycanın böyük şirkəti “Azerconnect” (“tədqiqat zamanı ümumi sayı təxminən 1400 nəfər idi” (Rubin, Seeling, 1967) əsasında aparılmışdır. Şirkətin layihələri üçüncü tərəf avadanlıqlarının inteqrasiyasını və özünün proqram təminatının işlənməsini nəzərdə tutur. Hər bir şirkət layihəsi bir çox cəhətdən unikaldır və əlavə tədqiqat və inkişaf tələb edir. Şirkətin layihələri təkcə innovativ deyil, həm də intelektual xarakter daşıyır.

Tədqiqat üçün şirkət tərəfindən il ərzində həyata keçirilən 5 layihə seçilmişdir. Şirkətin bütün layihələri, yerinə yetirilən işlərin vaxtı, büdcəsi, məzmunu və mürəkkəbliyi baxımından öyrənilmədi. Həmçinin, əsas seçim meyarlarından biri layihə qruplarının sayı idi. Tədqiqat üçün 9 ilə 18 nəfərlik heyətlə layihələr götürüldü. Layihələrin icrası zamanı komanda üzvləri bir-biri ilə əlaqə saxlamaq üçün müxtəlif texniki və təşkilati vasitələrdən istifadə edirlər. Rəsmi yazılı layihədaxili kommunikasiyalar daxili korporativ layihə idarəetmə sistemi çərçivəsində həyata keçirilir. Bu sistemdə qeyri-rəsmi yazılı ünsiyyətlər nadirdir. Bunun üçün işçilər adətən ümumi korporativ elektron poçtdan istifadə edirlər ki, bu da təkcə rəsmi deyil, həm də qeyri-rəsmi kommunikasiyaların aparılmasında mühüm rol oynayır.

Fərdi layihələr daxilində kommunikasiya məlumatları layihə idarəetmə sistemindən endirilib. Tədqiqat üçün göndərici, alıcı və göndərilmə tarixi haqqında məlumatlardan istifadə edilmişdir. Mesajların məzmunu araşdırılmayıb (Tovb, Tsipes, 2009: 128).

Layihə qruplarının üzvləri layihədaxili kommunikasiyaların şəbəkə modellərinin zirvəsi kimi çıxış etdilər. İki layihə iştirakçısı arasında tez-tez sabit rabitə aşkar edilərsə, təpələr arasında əlaqə quruldu. Bir cüt layihə iştirakçısı arasında gündə bir dəfə və daha tez-tez layihə müddətində qarşılıqlı əlaqə tez-tez, davamlı ünsiyyət kimi tanındı. Başqa sözlə, əgər iki işçi bütün layihə boyu gündə bir dəfə və ya daha çox elektron məktublaşma mübadiləsi aparırsa, o zaman onlar arasında əlaqə yaranır. Elektron məktublaşma yalnız genişləndirilmiş e-poçtlar deyil, həm də tapşırıqların təyin edilməsi, tapşırığın qəbulu, tapşırığın tamamlanması sorğuların yönləndirilməsi (şirkətin digər əməkdaşlarından və ya müştəridən) funksiyalarını daşıyır. Layihələrin uğurunu qiymətləndirmək üçün korporativ layihələrin idarə edilməsi sistemində formalaşan büdcədən kənarlaşmalar və planlaşdırılan layihə müddətləri haqqında məlumat götürülüb. Həmçinin, hər hansı bir layihənin başa çatması zamanı şirkət tərəfindən hazırlanmış metodologiya əsasında müəyyən edilən müştəri məmnuniyyəti göstəricisi ilə layihələrin uğuru qiymətləndirilib. Müştəri məmnuniyyəti 1-dən (ən aşağı məmnunluq) 7-yə (ən yüksək məmnunluq) qədər miqyasda ölçüldü (Project Management Institute, 2004).

Layihələr daxilində kommunikasiyaların keyfiyyəti tədqiqatın əhatə etdiyi layihələrin bütün iştirakçıları arasında sorğu vasitəsilə qiymətləndirilib. Elektron sorğunun bir hissəsi olaraq, layihə komandalarının hər bir üzvü layihədaxili kommunikasiyaların keyfiyyətini 1 (ən aşağı keyfiyyət) ilə 10 (ən yüksək keyfiyyət) arasında miqyasda qiymətləndirdi. Daha sonra layihə komandasının orta reytinqi tapıldı və ən yaxın tam ədədə yuvarlaqlaşdırıldı.

Layihədaxili kommunikasiyaların strukturuna dair məlumatlar şəbəkə modellərini vizuallaşdırmağa və müxtəlif kəmiyyət şəbəkə göstəricilərinin böyük dəstini hesablamağa imkan verən Pajek proqram məhsulundan istifadə etməklə təhlil edilmişdir. Tədqiqat zamanı layihələr şərti olaraq A, B, C, D, E kimi göstərildi. Qrafik şəbəkə modelləri müxtəlif strukturların müxtəlif şirkət layihələrində necə inkişaf etdiyini əyani olaraq qiymətləndirməyə imkan verir. Layihə C komandası bütün komanda üzvləri arasında çoxlu sayda əlaqə və fərqli kommunikasiya mərkəzlərinin və periferiyalarının olmaması ilə xarakterizə olunan kifayət qədər sıx rabitə şəbəkəsini inkişaf etdirmişdir. C layihəsində inkişaf etmiş rabitə şəbəkəsi, məsələn, B layihəsində inkişaf etmiş rabitə şəbəkəsindən əhəmiyyətli dərəcədə fərqlənir. B layihəsində rabitə şəbəkəsi nisbətən az sayda əhəmiyyətli əlaqə ilə xarakterizə olunur ki, bu da zəifliyi göstərə bilər. layihə iştirakçılarının əhəmiyyətli məlumatları bir-birinə vaxtında ötürmək qabiliyyəti, ünsiyyətin aşağı effektivliyi, eləcə də mövcud kommunikasiya strukturunun layihənin effektivliyinə mümkün mənfi təsiri (Shenhar, Dvir, 2007).

Şirkət layihələrində kommunikasiya strukturları təkcə rabitə kanallarının sıxlığı və sayına görə deyil, həm də mərkəzləşmə dərəcəsinə görə əhəmiyyətli dərəcədə fərqlənir.

Məsələn, D layihəsində kommunikasiya strukturu bütün digər iştirakçıların kommunikasiyalarının əsasən qapalı olduğu iki komanda üzvünün olması ilə xarakterizə olunur. Bu iştirakçılar bu layihədə ünsiyyət üçün xüsusilə vacibdir. Layihə üzrə bütün işlər əsasən onların vasitəsilə qurulur. Deyə bilərik ki, D Layihəsində kommunikasiya strukturu yüksək dərəcədə mərkəzləşdirilmişdir (Ditkhelm, 2004).

Layihə A-da kommunikasiya strukturu göstərildiyi kimi daha az mərkəzləşdirilmişdir. Layihə komandasının bütün üzvləri demək olar ki, bərabər şəkildə kommunikasiya şəbəkəsinə daxildir. Şəbəkədə dəqiq müəyyən edilmiş mərkəzlər və periferiyalar yoxdur. Beləliklə, sözügedən şirkətin layihələrinin həqiqətən fərqli kommunikasiya strukturlarına malik olduğu qənaətinə gələ bilərik. Əsas fərqlər sıxlıq, birləşmələrin sayı və mərkəzləşmə dərəcəsi ilə bağlıdır.

Layihələrin layihədaxili kommunikasiyalarının uğuru, aşağıdakılardan asılıdır:

- ✓ şəbəkə sıxlığı (mümkün olan maksimum əlaqə sayına nisbətdə verilmiş şəbəkədəki əlaqələrin faktiki sayı)
- ✓ orta şəbəkə dərəcəsi (şəbəkə iştirakçısının qoşulmalarının orta sayı);
- ✓ mərkəzləşdirmə (dərəcəyə görə, yaxınlığa görə) (Flanners, Levin, 2004: 78).

Şəbəkə sıxlığı komanda üzvlərinin bir-birinə necə bağlı olduğunun ölçüsü kimi istifadə olunur. Şəbəkə sıxlığı layihə komandası daxilində kommunikasiyaların tamlığının ölçüsü, layihə komandasının bütün üzvlərinin layihədaxili kommunikasiyaların ümumi sisteminə daxil edilməsinin ölçüsü kimi qəbul edilə bilər.

Orta dərəcə hər bir şəbəkə iştirakçısı üçün qoşulmaların orta sayını göstərir.Şəbəkələşmənin orta dərəcəsi həm də layihə komandasında ünsiyyətin həcminin, komanda üzvlərinin hər birinin ünsiyyətinin tamlığının göstəricisi kimi qəbul edilə bilər. Şəbəkənin orta səviyyəsi nə qədər yüksək olarsa, layihə komandasının üzvləri arasında bir o qədər mənalı ünsiyyət baş verir (Welch, Jackson, 2007: 17).

Şəbəkənin mərkəzləşdirilməsi şəbəkə iştirakçıları arasında əlaqələrin mərkəzləşdirilməsinin göstəricisidir, yəni çox əhəmiyyətli iştirakçıların və nisbətən əhəmiyyətsiz olanların şəbəkədə nə dərəcədə birgə mövcudluğu dərəcəsidir. Şəbəkə iştirakçılarının hər biri orada müxtəlif mövqelər tuta bilər. Çoxlu sayda əlaqənin mövcud olduğu iştirakçı əhəmiyyətli hesab edilə bilər. Bütün kommunikasiyaların mərkəzindədir. Əhəmiyyətsiz iştirakçını rabitə sisteminin periferiyasında yerləşən və az sayda əlaqənin keçdiyi iştirakçı adlandırmaq olar. Şəbəkədə kommunikasiya sistemində mərkəzi mövqe tutan yüksək əhəmiyyətə malik iştirakçıların sayı azdırsa (ən çoxu bir) və minimal əhəmiyyətə malik çoxlu sayda iştirakçı (ən çoxu bir istisna olmaqla) varsa, belə bir şəbəkə ola bilər. mərkəzləşdirilmiş adlanır. Əgər bütün iştirakçılar şəbəkədəki mövqelərinə görə az-çox bərabərdirlərsə, onda bu şəbəkədə kommunikasiyaların mərkəzləşdirilməsi nisbətən kiçik olacaqdır. Bütün hesablanmış göstəricilər ayrı-ayrı iştirakçıları deyil, bütövlükdə rabitə şəbəkəsinin xüsusiyyətlərini əks etdirir, buna görə də onlardan layihə komandalarında formalaşan kommunikasiya strukturlarının xüsusiyyətləri kimi istifadə edilə bilər. Sıxlıq və orta dərəcə layihə komandalarının bütün üzvlərinin ünsiyyətdə nə dərəcədə tam iştirak etdiyini göstərir. Şəbəkənin mərkəzləşdirilməsinin müxtəlif göstəriciləri onun ayrı-ayrı iştirakçılarının deyil, layihədaxili kommunikasiyaların iştirakçılarının qeyri-bərabərlik dərəcəsini göstərir, ona görə də onlardan layihə komandalarında inkişaf etmiş kommunikasiya strukturlarının xüsusiyyətləri kimi istifadə oluna bilər (Hubbard, 1990: 22).

Şirkətin layihələrinin uğuru büdcədən kənarlaşmalar və planlaşdırılan müddətlər, həmçinin şirkətdə istifadə olunan müştəri məmnuniyyəti indeksi əsasında təhlil edilib. Büdcənin icrasının göstəricisi kimi faktiki büdcənin plan büdcəsindən kənara çıxması nəzərdə tutulandan faizlə müəyyən edilmişdir. Büdcə layihənin daxili büdcəsi kimi başa düşülürdü, yəni. müştəri üçün layihənin həyata keçirilməsi üçün şirkətin bütün xərclərinin, o cümlədən üçüncü tərəflərin avadanlıq və xidmətlərinin alınması xərclərinin cəmi. Mənfi dəyər layihə büdcəsinə qənaət, müsbət dəyər isə həddindən artıq xərcləmə deməkdir. Layihənin planlaşdırılan müddətlərinə uyğunluğun göstəricisi olaraq, layihənin faktiki tamamlanma tarixlərinin əvvəllər planlaşdırılanlardan kənara çıxması planlaşdırılan müddətlərin faizi kimi istifadə edilmişdir. Planlaşdırılan müddətlər, şirkət tərəfindən layihənin həyata keçirilməsi üçün həmişə müqavilədə göstərilən müddətlərdən az olan daxili planlaşdırılan müddətlər kimi başa düşülürdü. Müştəri məmnuniyyəti indeksi korporativ metodologiya ilə hesablandığı üçün dəyişməz qalıb. Layihənin uğur göstəricilərinə əlavə olaraq, sorğu hər bir layihə çərçivəsində kommunikasiyaların keyfiyyətinin qrup reytinqlərini də təqdim etdi (Morris, Pinto, 2004: 118).

Büdcənin icrası, müddətləri və müştəri məmnuniyyəti baxımından tədqiq olunan layihələr bir-birindən fərqlənir. Məsələn, B və E layihələri büdcələrini cəmi 5%, A və C layihələri isə 15% artıq xərcləyib. Müddətlərin yerinə yetirilməsi baxımından layihənin uğuru daha da dəyişir. Beləliklə, B layihəsi vaxtından 5%, C layihəsi isə 27% gec, dörddəbirdən çox əvvəl tamamlandı. C layihəsi müştərini qətiyyən qane etməyən nəticələrlə (müştəri məmnuniyyəti indeksi - 1, ən aşağı), B və D layihələri isə müştəriləri yüksək dərəcədə (müştəri məmnuniyyəti indeksi - 7, ən yüksək məmnunluq səviyyəsi) qane edib. A və C layihələrində rabitənin keyfiyyəti müvafiq olaraq 4 və 2 balla qiymətləndirilib, B və D layihələrində isə rabitənin keyfiyyəti kifayət qədər yüksək olub - 8 bal (10 bal rabitə keyfiyyətinə görə ən yüksək reytinqdir). Layihələrin uğurunun və kommunikasiyanın keyfiyyətinin qiymətləndirilməsinin mövcud müxtəlifliyi bu göstəricilər və layihə kommunikasiyalarının strukturunun göstəriciləri arasında fərqli əlaqənin müəyyən edilməsi üçün zəruri şərtdir (14).

## Nəticə

Təhlil bizə belə qənaətə gəlməyə imkan verir ki, layihədaxili kommunikasiyaların strukturu həqiqətən layihələrin uğurunda mühüm rol oynayır. Eyni zamanda, kommunikasiya şəbəkəsinin müxtəlif göstəriciləri uğur göstəriciləri ilə əlaqədar olaraq fərqli şəkildə özünü göstərir. Aparılmış tədqiqatlar əhəmiyyətli nəticələr çıxarmağa imkan verir ki, layihədaxili kommunikasiyaların strukturu, hətta eyni təşkilat daxilində belə, layihədən layihəyə fərqlənir və kommunikasiya strukturunun göstəriciləri ilə layihənin uğur göstəriciləri arasında əlaqə mövcuddur. Bu araşdırmanın nəticələri çoxlu sayda tədqiqatçının layihənin effektivliyi üçün kommunikasiyanın idarə edilməsinin əhəmiyyəti haqqında söylədiyi fikirləri dəstəkləyir.

## Ədəbiyyat

1. Grey, K.F., Larson, E.U. (2007). Upravleniye proyektami. M.: «Delo i Servis».
2. Cooke-Davis, T. Project success. The Wiley Guide to Managing Projects.
3. Rubin, I.M., Seeling, W. (1967). Experience as a factor in the selection an performance of project managers. IEEE Trans Eng Management.
4. Valova, Y.I. (2002). "Conflict management during realization of projects”.
5. Frank, A., Brownell, J. (1989). Organizational Communication and Behavior: Communication to Improve Performance, Holt, Rinehart Winston, Orland, FL.
6. Tovb, A.S., Tsipes, G.L. (2009). Proyekty i upravleniye proyektami v sovremennoy kompanii. Uchebnoye posobiye. M.: ZAO «Olimp-Biznes».
7. Project Management Institute. (2004). A Guide to the Project Management Body of Knowledge. PMI Standards Committee.
8. Shenhar, A.J., Dvir, D. (2007). Reinventing Project Management: The Diamond Approach to Successful Growth and Innovation. Harvard Business School Publishing, Boston.
9. Ditkhelm, G. (2004). Upravleniye proyektami. SPb.: Izdatel'skiy dom «Biznes-pressa».
10. Flanners, S.U., Levin, Dzh. (2004). Navyki raboty s lyud'mi dlya menedzherov proyektov. M., Tekhnologii upravleniya spayder.
11. Welch, M., Jackson, P.R. (2007). Rethinking internal communication: a stakeholder approach. Corporate Communications: An International Journal, 12(2), pp.17-19.
12. Hubbard, D.G. (1990). Successful utility project management lessons learned. Project Management Journal, 21(3), pp.19-23.
13. Morris, P., Pinto, G. (2004). NJ: Wiley, Hoboken, pp.99-122.
14. azerconnect.az

Göndərilib: 18.10.2023 Qəbul edilib: 31.12.2023

DOI: https://doi.org/10.36719/2663-4619/98/76-81

**Mirisrail Ağazadə**
Azərbaycan Texniki Universiteti
magistrant
agazademirisrail@gmail.com

# ELMİ TEXNİKİ TƏRƏQQİNİN YARATDIĞI YENİ ALTERNATİV ENERJİ MƏNBƏLƏRİ VƏ ONLARIN MALİYYƏLƏŞDİRİLMƏSİ

**Xülasə**

Enerji maddi sivilizasiyanın mənbəyidir desək, yalan olmaz. Bütün mövcud olan varlıqların mövcudluğunu şərtləndirən ən əsas amillərdən biri də məhz enerjidir. Enerji müxtəlif formalarda ola bilər ki, bunun da biri elektrik enerjisidir. lternativ enerji — təbiətin çirklənməsinin qarşısını almaq məqsədi ilə işlənən enerji çeşidlərinin ümumiləşmiş adı. Alternativ energetika daha çox gələcəyə yönələn perspektiv sahədir. Ətraf mühiti çirklənməkdən(torpaq, su, hava) qorumaq üçün Alternativ enerji mənbələrindən istifadə olunması məqsədəuyğundur. İnkişaf etmiş ölkələr (ABŞ, Kanada, Böyük Britaniya, Almaniya, Rusiya və s.) alternativ enerji mənbələrindən istifadəni genişləndirməklə ətraf mühiti çirklənmədən qorumağa cəhd göstərirlər. Son illər Azərbaycan müstəqil dövlət kimi xarici ölkələrin təcrübəsindən istifadə edərək alternativ enerji mənbələrindən istifadəni genişləndirməklə, həm qiymətli yanacağa (neft, qaz) qənaət etməyə, həm də ətraf mühitin qorunmasına nail olmağa çağırır. Elektrik enerji istehsalında İES və SES-dan istifadənin ətraf mühit üçün həm müsbət, həm də mənfi tərəfləri vardır. Bu stansiyalardan xüsusilə İES-ı yerləşdikləri ərazilərin torpaqlarını, (sularını) atmosferini daha çox çirkləndirir. Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadə hər zaman diqqət mərkəzində olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir.

Bu sahədə görülən işlərin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr tarixli, 1159 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmış və Agentliyin Əsasnaməsi təsdiq edilmişdir.

***Açar sözlər:*** *yaşıl dünya naminə, milli prioritetlər, dövlət, proqram*

**Mirisrail Aghazadeh**
Azerbaijan Technical University
master student
agazademirisrail@gmail.com

## New alternative energy sources created by scientific technical progress and their financing

**Abstract**

If we say that energy is the source of material civilization, it is not a lie. Energy is one of the most important factors that determine the existence of all existing beings. Energy can take many forms, one of which is electricity. Energy can take many forms, one of which is electricity.

Alternative energy is a general name for types of energy used to prevent pollution of nature. Alternative energy is a promising field that focuses more on the future. In order to protect the environment from pollution (soil, water, air), it is appropriate to use alternative energy sources. Developed countries (USA, Canada, Great Britain, Germany, Russia, etc.) are trying to protect the environment from pollution by expanding the use of alternative energy sources. In recent years, using the experience of foreign countries, Azerbaijan, as an independent state, has been calling for both saving precious fuel (oil, gas) and environmental protection by expanding the use of alternative energy sources. The use of IES and SES in the production of electricity has both positive and negative aspects for the environment. Of these stations, especially IES pollutes the soil, (water) and atmosphere of the areas where they are located more. Azerbaijan is one of the countries with high potential for renewable energy sources. Thus, the technical potential of renewable energy sources of our country is 135 GW on land and 157 GW on sea. Despite being rich in energy resources and known as an exporter of energy resources in the world, the use of renewable energy sources has always been in the center of attention in the Republic of Azerbaijan. One of the main goals of the energy security policy implemented under the leadership of the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev is to strengthen the use of renewable energy sources in our country.

As a continuation of the work done in this field, the State Agency for Renewable Energy Sources under the Ministry of Energy of the Republic of Azerbaijan was established by the Decree of the President of the Republic of Azerbaijan dated September 22, 2020, No. 1159, and the Statute of the Agency was approved.

***Keywords:*** *for the green world, national priorities, state, program*

## Giriş

İqtisadiyyat inkişaf etdikcə elektrik enerjisinə olan tələbat da artır. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına əsasən, 2030-cu ildə qlobal elektrik enerjisinə tələb 50% artacaqdır. Tələb artımını tamamilə ənənəvi enerji resursları ilə qarşılamaq qeyri-mümkün olduğundan, alternativ enerji mənbələrinin inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Alternativ enerji mənbələrindən istifadə olunmasında əsas məqsəd ətraf mühitin təbii ehtiyatlarından səmərəli istifadə olunmasıdır. Alternativ enerjidən istifadə nəticəsində ətraf mühitə mənfi təsir göstərən amillər azalır, ətraf mühitin çirklənməsinin qarşısı alınır, istehsal strukturu bütün səviyyələrdə təkmilləşdirilir. Bu sahənin inkişafına dair bir sıra araşdırmalar hal-hazırda da davam etdirilir və həmçinin tədqiqatlar aparılır. Bu məlumatlar elmi və elmi-metodoloji əhəmiyyət kəsb etməklə aparılan praktiki təcrübələr əsasında geniş tətbiq edilməkdədir. Alternativ enerji mənbələrinin inkişafına son 10 ildə yüksək səviyyədə diqqət yetirilir. Bir çox inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrdə bu sahəyə yüksək məbləğli investisiyalar qoyulur və ölkənin enerji potensialından daha səmərəli və daha "təmiz" istifadə olunması istiqamətində tədbirlər görülür (Babayev, 2010).

Elm sonsuz bir dəryadır və o inkişaf etdikcə elmi-texniki potensialın da nə dərəcədə geniş əhəmiyyət kəsb etdiyi üzə çıxır. İnsanlar elmi-texniki inkişaf nəticəsində günəşdən, sudan (çay və dəniz sularından), küləkdən, atomdan enerji alan zaman bu böyük bir yenilik kimi görünürdü. Hazırki dövrümüzdə də illər öncə kəşf olunan bu alternativ enerji mənbələrindən dünyanın bir çox ölkəsində geniş istifadə olunur. Lakin bu enerji mənbələri enerji istehsal etməklə yanaşı ətraf mühitə də mənfi təsir göstərir (İbadoğlu, 2009: 9).

Bildiyimiz kimi su elektrik stansiyalarının fəaliyyəti nəticəsində geniş ərazilər su altında qalır, atom elektrik stansiyalarının və istilik elektrik stansiyalarının fəaliyyəti nəticəsində ətraf mühitdə "hava kirliliyi" yaranır. Bu mənfi hallar nəzərə alınaraq bu ənənəvi enerji mənbələrindən istifadə azaldılmalı və alternativ enerji mənbələrindən istifadə genişləndirilməlidir. Azərbaycanda ətraf mühitə zərər vurmadan və ya minimum zərərlə enerji əldə etmək istiqamətində silsilə tədbirlər görülür. Bunlara külək enerjisi, günəş enerjisi, geotermal enerji və s. aiddir. Külək enerjisi əldə etmək üçün Bakı, Sumqayıt, Abşeron, Binə və Maştağada küləkdən enerji alan qurğuların yerləşdirilməsi məqsədəuyğun sayılır. Günəş enerjisi əldə etmək üçün Abşeron yarımadası, Aran

rayonları, Naxçıvan Muxtar Respublikası günəşli saatların çoxluğuna görə daha məqsədəuyğundur. Azərbaycanda alternativ enerji resurslarının geniş potensialı mövcuddur. Belə ki, ölkəmizin bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir (İsayev, 2015). Azərbaycan öz növbəsində bu potensialdan çox effektiv və səmərəli şəkildə faydalanmaq istəyir. Ölkədə bu alternativ enerji mənbələrindən enerji alınması məqsədilə bir çox işlər görülür. Külək enerjisi almaq üçün qurğular quraşdırılır, günəş enerjisi əldə etmək məqsədilə günəş panelləri quraşdırılır və s. Lakin hazırda bunlar artıq bizlər üçün o qədər də təəccübləndirici və səmərəli enerji mənbələri deyildir. Düzdür, bu enerji mənbələri öz növbəsində çox səmərəli və ekoloji cəhətdən də təmiz enerji mənbələridir. Demək olar ki, təbiətə heç bir zərər vurulmadan alınan enerji mənbələridir. Su - elektrik stansiyaları, atom elektrik stansiyaları, istilik elektrik stansiyaları kimi ətraf mühitə zərər vurmurlar. Hazırda Azərbaycanda elektrik enerjisi istehsalının əsas hissəsini ənənəvi enerji mənbələri tutur (Bayramov, 2011).

Azərbaycanda hazırda ənənəvi enerji mənbələrindən alınan elektrik enerjisinin həcmi çoxdur. Lakin 2013-cü ildən başlayaraq alternativ enerji mənbələrindən alınan elektrik enerjisinin də həcmi sürətlə artmaqdadır. Bu da həm iqtisadi cəhətdən səmərəli, həm də ekoloji cəhətdən təmiz enerji deməkdir. 2022-ci il ərzində respublikada elektrik enerjisinin istehsalı təqribən 29 milyard kVt·st təşkil edib. Bu dövrdə elektrik enerjisinin istehsalı SES-lərdə 1595.7 mln. kVt·st, digər mənbələr (KES, GES və BMTYZ) üzrə isə 349,5 mln. kVt·st olub. İl ərzində külək elektrik stansiyalarında 83,3 mln. kVt·st, Günəş Elektrik Stansiyalarında 60,9 mln. kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda 205,3 mln. kVt·st elektrik enerjisi istehsal edilib. Bərpa olunan enerji mənbələri hesabına istehsal olunmuş elektrik enerjisi ümumi istehsalın təqribən 7 %-ni təşkil edib (Kərimli, 2010).

Həmçinin, Azərbaycan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 Günlük şanlı Vətən Müharibəsi zamanı işğalıdan azad etdiyi Qarabağda da alternativ enerji mənbələri üstünlük təşkil etməklə, energetika sahəsində böyük işlər görür. 13 yanvar 2022-ci il tarixində 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının, 15 mart 2022-ci il tarixində isə 230 MVt gücündə “Qaradağ” Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilmiş və hər iki tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmişdir (İbadoğlu, 2009: 79).

2022-ci ildə “Xızı-Abşeron” Külək Elektrik Stansiyası üzrə layihənin “Ətraf Mühitə Təsirlərinin Qiymətləndirilməsi” və “Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı” sənədi hazırlanaraq təqdim olunmuşdur. Layihə Abşeron-Xızı ərazisində Pirəkəşkül və Sitalçay yaxınlığında həyata keçirilir. 2020-ci ilin mart ayından etibarən cəmi 2 il ərzində 7 ədəd 100 m hündürlükdə ölçü-müşahidə stansiyaları qurulmuşdur. Həmçinin, topoqrafiya və ilkin geodeziya işləri aparılmış, beynəlxalq standartlara uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi başa çatdırılmışdır. 16 may 2023-cü il tarixdə Energetika naziri Pərviz Şahbazov və “Masdar” şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahinin iştirakı ilə “Qaradağ” Günəş Elektrik Stansiyasında ilk günəş paneli quraşdırılıb (Rubtsov, 2002).

Yuxarıda qeyd olunanlardan da hamıya məlumdur ki, Azərbaycan hər zaman ekoloji məsələlərə çox həssaslıqla yanaşır. Buna görə də yaşıl enerji istiqamətində baş verən müsbət yeniliklərdən hər zaman faydalanmaq məqsədilə tədbirlər görülür. Azərbaycanda əvvəlki kimi enerji subsidiyalarının əhəmiyyətli sistemi fəaliyyət göstərir. Məsələn, dövlət enerji təhlükəsizliyini qorumaq məqsədilə subsidiyalar ayırır.Enerji subsidiyasının məbləği 2016-cı ildə ÜDM-nin təxminən 3,4%-nə bərabər idi; orta enerji subsidiyaları adambaşına 130 ABŞ dolları səviyyəsində qiymətləndirilirdi. Subsidiyaların ümumi məbləği 2014-cü ildən 2016-cı ilə qədər iki dəfə artaraq 751 milyon ABŞ dollarından 1,269 milyon ABŞ dollarına çatıb. 2015 və 2016-cı illərdə subsidiyaların yarıdan çoxu neft-qaz enerji mənbələrinə dəstək hesabına elektrik enerjisi sektoruna verilmiş, bərpa olunan enerji mənbələrinə subsidiyalar isə cüzi olmuşdur. Lakin son illərdə alternativ enerji mənbələrinin inkişaf etdirilməsi məqsədilə silsilə tədbirlər görülməyə, bu sahəyə maliyyə dəstəyinin və investisiyaların artırılmasına təşviq daha da artmışdır. Hazırda Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə

"Azərbaycanda bərpa olunan enerji hərraclarının keçirilməsinə dəstək" layihəsi həyata keçirilir. Layihə çərçivəsində hərrac qaydaları, hərraclar üçün şərtlər toplusu, həmçinin elektrik enerjisinin alqı-satqı müqaviləsi, ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədi və təkliflər sorğusu sənədinin hazırlanması təmin ediləcək (7).

Elm inkişaf edir və öz növbəsində bu inkişaf yeniliklər doğurur. Bu yeniliklər alternativ enerji sahəsində də özünü göstərir. Gəlin, indi isə elmi-texniki inkişaf nəticəsində yaranan ən yeni alternativ enerji mənbələrinə diqqət yetirək.

Müasir dövrdə daha səmərəli və daha da effektiv enerji mənbələrindən istifadə olunması məqsədəuyğundur. Artıq elmin inkişafı ilə daha səmərəli enerji mənbələri kəşf olunmağa başlanılmışdır. Bunlara misal kimi aşağıdakıları göstərmək olar:

1. Yağış sularından alınan enerji;
2. Avtomobillərin hərəkətindən alınan enerji;
3. Metro sərnişinlərindən alınan enerji və s.

Yağış suyundan enerji alınması ideyası bizlər üçün çox da uzaqlarda yaranan bir fikir deyil. Bu fikir 2017-ci ildə Hindistanda keçirilən VII Qlobal Sahibkarlıq Sammitində Azərbaycanın Quba rayonundan olan 15 yaşlı Reyhan Camalova tərəfindən irəli sürülmüşdür. Dünya mediyası və investorları da bu fikrə çox maraqla yanaşmış, elə oradaca bu layihəyə investisiya qoymaq təkliflərini irəli sürmüşlər. Hətta o zaman ABŞ Prezidentinin qızı və həmçinin baş müşaviriolmuş İvanka Tramp Reyhan Camalovanı bütün salona təqdim edərək onun ayağa qalxmasını xahiş etmişdir ki, zalda olan hər kəs onu görsün. Reyhan Camalovanın irəli sürdüyü fikir qısa formada desək belə idi: yağış suları bir yerə toplansın, sonra toplanan yağış suyunun hərəkəti nəticəsində elektrik enerjisi alınsın. Həqiqətən də, bu dəyərli fikir təqdirəlayiqdir. Həmin sammitdə Reyhan Camalovanın fikrini pilot layihə kimi tətbiq etmək istəyən investorlar ondan bu layihə üçün nə qədər vəsaitin lazım olduğunu soruşmuşlar. Cavab isə çox təəccüblü olmuşdur. Belə ki, Reyhan bu pilot layihə üçün sadəcə 20000 ABŞ dollarının lazım olduğunu bildirmişdir. İnvestorlar isə bu məbləği asanlıqla təmin edə biləcəklərini bildirmişdirlər. Əgər bu layihə geniş şəkildə tətbiq olunarsa, enerji əldə etmək daha da səmərəli olacaqdır; həmçinin, ekoloji cəhətdən təmiz (Mustafayev, 2004).

Enerji alınmasında digər bir maraqlı ideya avtomabillərin hərəkətlərindən alınan enerjidir. Belə ki, bunun özü də iki formada həyata keçirilə bilər:

1. Avtomobil yollarında yollara döşənən xüsusi qurğular vasitəsilə enerji almaq;
2. Magistral yollarda avtomobil yollarında avtomobillərin əks istiqamətdə hərəkətini məhdudlaşdıran orta hissədə xüsusi qurğuların yerləşdirilməsi.

Birinci üsulun tətbiq olunması üçün yolun hərəkət hissəsində xüsusi qurğular döşənir və avtomobillər hərəkət etdikdə onların hərəkətindən enerji alınır. Bunu mexaniki enerjidən elektirik enerjisinə keçid kimi də adlandırmaq olar. Yəni, avtomobillər hərəkət edirlər, onların yaratdıqları mexaniki enerji xüsusi qurğuların köməkliyi ilə elektrik enerjisinə çevrilir. Proses isə göründüyü qədər də çətin deyil. Sadəcə olaraq yolların alt hissəsində bu xüsusi sistematik qurğuları quraşdırmaq lazımdır. Bu zaman isə yaranan əsas problem yolların təzədən qurulmasıdır. Bu isə uzun vaxt alacaq bir prosesdir və çox maliyyə vəsaiti tələb edir (Dunkan, 2099).

İkinci üsul isə daha ucuz və daha az xərc tələb edən bir üsuldur. Həmçinin, bu üsulun tətbiq olunması daha sadə və daha az vaxt tələb edir. Sadəcə olaraq magistral yollarda avtomobillərin əks istiqamətdə hərəkətini məhdudlaşdıran orta hissədə xüsusi qurğuların yerləşdirilməsi lazımdır. Bu qurğular avtomobillərin sürətli hərəkəti nəticəsində yaranan külək nəticəsində fırlanmağa başlayır və fırlanma nəticəsində elektrik enerjisi alınır. Bu üsul qardaş Türkiyənin İstanbul şəhərində bəzi ərazilərdə tətbiq olunmağa başlamışdır. Həmçinin, bu qurğular dirək formasında üfüqi formada yerləşdirildiyi üçün onların üst hissəsinə günəş paneli yerləşdirməklə də əlavə olaraq günəş enerjisi almaq olar. Bu sistemi daha da cəlbedici göstərən onun ucuz başa gəlməsidir. Belə ki, bu qurğuları yolların işıqlandırılması məqsədilə istifadə olunan işıq dirəklərinə quraşdırmaq olar (Shishkov, 2009). Hündürlüyü təqribən 2 metr civarında olan bu qurğunun quraşdırılmasına 26 min dollar vəsait tələb olunur. Lakin istehsal etdiyi enerjinin həcmi 21 metrlik günəş panelinin yaratdığı enerji

həcminə bərabərdir. Hazırda bu layihə pilot layihə formasında Amerika Birləşmiş Ştatlarının bəzi kiçik ştatlarında test mərhələsindədir. Bu möhtəşəm texnologiyanın ölkəmizdə də tətbiqi həm enerji istehsalı, həm də ətraf mühitə daha az zərər vurulması baxımından çox əlverişlidir. Həmçinin, bunu da qeyd etmək olar ki, bu kiçik həcmli qurğuları həyətlərdə, yüksək mərtəbəli binalarda isə balkonlarda quraşdırmaq olar. Bu üsul ilə sakinlər öz evlərində istifadə etdikləri enerjini daha ucuz əldə edəcəklər. Həmçinin, ölkə üzrə məsələyə yanaşarsaq, ölkənin enerji asılılığı da azalmış olar və enerji təhlükəsizliyi kimi ciddi bir məsələ də daha az təhlükəli olar (İbadoğlu, 2009: 88).

Enerji istehsalı istiqamətində çox maraqlı və təqdirəlayiq digər bir layihə Fransanın paytaxtı Paris şəhərində pilot layihə kimi tətbiq olunan sərnişinlərdən enerji alınmasıdır. Bu fikir insana biraz qəribə gələ bilər. Hətta düşünə bilərik ki, bu necə ola bilər? Amma əslində məsələ göründüyü kimi mürəkkəb deyil. Əksinə, çox məntiqli və səmərəli bir üsuldur. Belə ki, layihənin mahiyyəti belədir: insanlar metropolitenə daxil olarkən turniketlərdən keçirlər. Məhz layihənin əsas diqqət yetirilməli yeri də burasıdır. Fransadakı tədqiqatçılar bu turniketlərin fırlanmasından enerji almağın yolunu tapıblar. Belə ki, hər bir şəxs turniketdən istifadə edərkən turniket fırlanır, lakin sadə turniketlərdə bu fırlanmadan heç bir enerji alınmır (Eraydın, 2011). Tətbiq olunan yeni turniketlərdə isə bu öncəki turniketlərdən fərqli olaraq enerji almaq mümkün olur. Hər dəfə insan keçəndə turniketin pəri fırlanır və bu fırlanma da öz növbəsində kiçik bir enerji istehsal edir. Lakin bu kiçik enerji gün ərzində milyonlarla istifadəçisi olan metropoliten nəzərə alındıqda elə də kiçik bir göstəricinin olmadığı göz önünə çıxır. Belə ki, Fransada tətbiq olunan pilot layihədən 2 gün ərzində 27000 insan istifadə etmişdir. Əgər bu layihə geniş şəkildə istifadə olunarsa,orta hesabla bir ildə 1.5 milyard sərnişini olan metropolitenlərdə illik 136 MV enerji əldə etmək mümkün olacaqdır. Bu texnologiyanın tətbiqi nəticəsində 30000 tondan çox karbon emissiyasının qarşısı alınacaqdır. Bu isə öz növbəsində alternativ enerjinin xüsusi payına təsir edər. Maraq üçün qeyd edək ki, keçən ilə nəzərən bu il alternativ enerji istehsalı 10% artmışdır. Lakin qlobal istiləşməyə qarşı mübarizədə bu yetərsizdir. Əgər biz qlobal istiləşməni 1.5 °C azaltmaq istəyiriksə alternativ enerji istehsalını 3 dəfə artırmaq lazımdır (Regional İnkişaf və İdarəetmə Simpoziumu, 2009).

## Nəticə

Biz ölkəmizdə bu və bunun kimi bütün alternativ enerji mənbələrindən istifadəni təkmilləşdirməliyik. Alternativ enerji istehsalı həm iqtisadi cəhətdən səmərəli, həm də ekoloji cəhətdən təmizdir. Ölkənin enerji təminatı və enerji təhlükəsizliyi cəhətdən də bu texnologiyaların tətbiqi olduqca lazımlıdır. Yuxarıda da qeyd olunduğu kimi, Azərbaycan hər zaman ətraf mühit mövzusuna həssaslıqla yanaşmışdır. Ölkə rəhbərliyi bu istiqamətdə layihələri dəstəkləyir, maliyyə yardımı göstərir, həmçinin, xüsusi Dövlət Proqramlarında da bu mövzuya diqqət yetirilir. Bunlara misal olaraq demək olar ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" proqramında bu məsələyə xüsusi önəm verilmişdir. Əsas 5 prioritetdən biri də məhz" təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" prioritetidir. Həmçinin, Azərbaycanda 2024-cü il ölkə Prezidentinin Sərancamı ilə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Bunun özü də simvolik bir məna daşıyır. Yəni Azərbaycan təkcə özünün ətraf mühiti üçün çalışmır, həmçinin bütün dünya naminə çalışır. Çünkü dünya bizim vahid vətənimizdir və biz onun təhlükəsizliyi naminə birlikdə addım atmalıyıq!

## Ədəbiyyat

1. Babayev, A. (2010). "Valyuta ehtiyatlarının idarə olunması: yeni yanaşmalar".
2. İbadoğlu, Q. (2009). "Qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsirləri". Bakı.
3. İsayev, İ. (2015). "Manatın devalvasiyası məqsədəuyğun addımdır". Bakı.
4. Bayramov, V. (2011). "Gələn ilin dövlət büdcəsi də sosial və investisiya yönümlüdür". Bakı: Xalq qəzeti, 26 noyabr. Bakı.
5. Kərimli, G. (2010). "Qlobal maliyyə böhranının ikinci dalğası qaçılmazdır". Bakı: "Ülfət Qazeti".
6. Rubtsov, B.B. (2002). "Mirovyye rynki tsennykh bumag". M.: Ekzamen.

7. Beynəlxalq Valyuta Fondunun internet resursları: www.imf.org
8. Mustafayev, F.F. (2004). "Makromaliyyə sabitliyi iqtisadi təhlükəsizliyinin əsas xətti kimi". "Azərbaycan Respublikasında milli iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətləri" mövzusunda elmi-praktiki konfransın tezis materialları. Bakı: "Biznes Universiteti".
9. Dunkan, R. (2009). "Dolların böhranı (səbəblər, nəticələr və çıxış yolları)" rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti" nəşriyyatı.
10. Shishkov, Yu.V. (2009). "Mnogosloynyy global'nyy krizis" ONS. Obshchestvennyye nauki i sovremennost'.
11. Eraydın, A. (2011). Sənaye klasterlərinin regional inkişaf məqsədləri aspektindən tədqiqi TEPAV, KBAM.
12. Regional İnkişaf və İdarəetmə Simpoziumu. (2009). 27-28 yanvar 2011, Ankara. 1. Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı. 2050-ci ildə dünyanı necə qidalandırmaq olar. Yüksək Səviyyəli Ekspert Forumu, Roma.

Göndərilib: 14.11.2023 Qəbul edilib: 02.01.2024

DOI: https://doi.org/10.36719/2663-4619/98/82-86

**Gülgün Novruzova**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
gulgun.n02@gmail.com

# BANKLARIN YENİDƏN TƏŞKİLİ PROSESİ

**Xülasə**

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən dərhal sonra qəbul edilmiş qanunvericilik aktlarından biri "Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında" Azərbaycan Respublikasının 1991-ci il 25 may tarixli Konstitusiya Qanununun "Bank sistemi və pul tədavülü" adlanan 14-cü maddəsində Azərbaycanda müstəqil bank sisteminin və milli pul vahidinin tədavülünün hüquqi əsasları təsbit edilmiş, Milli Bankın statusu və səlahiyyətləri müəyyən edilmişdir. Milli Bank kredit, pultədavülü, hesablaşmalar və valyuta münasibətləri sahəsində dövlət siyasətini həyata keçirən, bütövlükdə bank sisteminin fəaliyyətini tənzimləyən və ehtiyat bank funksiyalarını icra edən ali emissiya idarəsi elan edilmişdir.

***Açar sözlər:*** *palata, depozit hesabı, bank, əmanət, plan*

**Gulgun Novruzova**
Azerbaijan State University Economics (UNEC)
master student
gulgun.n02@gmail.com

## Process of reorganization of banks

**Abstract**

One of the legislative acts adopted immediately after Azerbaijan regained its independence, Article 14 of the Constitutional Law of the Republic of Azerbaijan dated May 25, 1991 "On the Basics of the Economic Independence of the Republic of Azerbaijan", entitled "Banking System and Money Circulation", provides for an independent banking system in Azerbaijan and a national the legal basis of currency circulation was established, the status and powers of the National Bank were determined. The National Bank was declared the supreme issuing authority, which implements state policy in the field of credit, money circulation, settlements and currency relations, regulates the activity of the banking system as a whole, and performs the functions of a reserve bank.

***Keywords:*** *chamber, deposit account, bank, savings, plan*

## Giriş

Bankın (bankların) yenidən təşkili prosesi aşağıdakı əsas mərhələlərdən ibarətdir: yenidən təşkilə dair qabaqcadan razılığın alınması üçün Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına (bundan sonra - Palata) yazılı ərizə ilə müraciət edilməsi.

Palatanın razılığı alındıqdan sonra müvafiq qərarın qəbul edilməsi məqsədi ilə yenidən təşkil olunan bankların səhmdarlarının birgə ümumi yığıncağının (çevrilmə zamanı BOKT-yə çevrilən bankın səhmdarlarının ümumi yığıncağının) keçirilməsi; yenidən təşkilə dair qəbul edilmiş qərar barədə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 58-ci maddəsinə müvafiq olaraq yenidən təşkil olunan bankın (bankların) kreditorlarının məlumatlandırılması; yenidən təşkil olunma nəticəsində yaradılmış hüquqi varis olan bankın və ya BOKT-nin dövlət qeydiyyatından keçməsi; dövlət qeydiyyatından keçdikdən sonra yenidən təşkil olunan bankın (bankların) bank lisenziyasının ləğv edilməsi və hüquqi varis olan banka və ya yaradılmış BOKT-yə müvafiq xüsusi razılığın (lisenziyanın) verilməsi (1).

Yenidən təşkil olunmaq üçün Palatanın qabaqcadan razılığının alınması məqsədi ilə bank (banklar) bu Qaydaların 3.1.2-ci yarımbəndinə müvafiq olaraq səhmdarların ümumi yığıncağının keçiriləcəyi tarixdən ən azı 90 təqvim günü əvvəl Palataya yazılı ərizə ilə müraciət edir. Ərizə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin tələblərinə uyğun tərtib edilir. Ərizə yenidən təşkil olunan bankın (bankların) Müşahidə Şurasının sədri (sədrləri) tərəfindən imzalanır və bankın (bankların) möhürü ilə təsdiq edilir (The World Bank and IFC, 2012).

Bankın (bankların) yenidən təşkilinə razılığın alınması üçün müraciətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq qaydada baxılır. Azərbaycan Respublikasının bank sistemi maliyyə bazarlarına nəzarət orqanı olan Azərbaycan Respublikasının Mərkəzi Bankından (Mərkəzi Bank) və kredit təşkilatlarından ibarətdir ("Azərbaycan Respublikasının 2016-cı ilin dövlət və icmal büdcələri üzrə layihələrinin təqdimatı", 2015).

**Bank** - fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.

Mərkəzi Bank bankların, filialların, şöbələrin və nümayəndəliklərin ictimaiyyət üçün açıq olan mərkəzi **reyestrini** tərtib edir (The World Bank, 2007).

Kapital bazarının əsas iştirakçılarından biri emitentlərdir. Emitent investisiya qiymətli kağızlarının emissiyasını "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci fəsli ilə müəyyən edilmiş qaydada həyata keçirən hüquqi şəxs, dövlət (müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı vasitəsilə) və ya bələdiyyədir. Emitent buraxdığı qiymətli kağızların mülkiyyətçisi deyildir.

**Emitentlər tərəfindən investisiya qiymətli kağızlarının (səhm və korporativ istiqraz) emissiyası aşağıdakı mərhələlərlə həyata keçirilir (3):**

- Emitent investisiya qiymətli kağızlarının buraxılışı haqqında qərar qəbul edir. Kütləvi təklif edilən investisiya qiymətli kağızları üçün emitent investisiya qiymətli kağızlarının emissiya prospektini və ya informasiya memorandumunu tərtib edir;
- Emitent qiymətli kağızların dövlət qeydiyyatına alınması və kütləvi təklif edilən investisiya qiymətli kağızları üçün emissiya prospekti və ya informasiya memorandumunun təsdiq edilməsi üçün Mərkəzi Banka müracət edir;
- Mərkəzi Bank investisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı və emissiya prospektinin və ya informasiya memorandumunun təsdiq edilməsi üçün təqdim edilən sənədlərə 20 (iyirmi) iş günü müddətində baxır. Qeydiyyatdan imtina üçün müvafiq hallar olmadıqda, investisiya qiymətli kağızlarının buraxılışı dövlət qeydiyyatına alınır və emissiya prospekti və ya informasiya memorandumu təsdiq edilir. Mərkəzi Bank emitentə investisiya qiymətli kağızlarının dövlət reyestrindən çıxarış və emissiya prospektinin təsdiq olunması haqqında yazılı bildiriş təqdim edir.
- Emitent Mərkəzi Bank tərəfindən təsdiq edilmiş emissiya prospekti və ya informasiya memorandumunu Mərkəzi Bankın Məlumatların Elektron Açıqlanması Sistemi vasitəsilə ictimaiyyətə açıqlayır;
- Emitent qiymətli kağızların saxlanması və qiymətli kağız mülkiyyətçilərinin reyestrinin aparılması xidmətlərinin göstərilməsi üzrə Milli Depozit Mərkəzi ilə müqavilə bağlayır;
- Emitent qiymətli kağızlarını fond birjasında və ya birjadankənar bazarda yerləşdirir;
- Qiymətli kağızların yerləşdirilməsi başa çatdıqdan sonra emitent 10 (on) iş günü ərzində Mərkəz Banka qiymətli kağızların emissiyasının və ya kütləvi təklifinin yekunları haqqında hesabatı və yerləşdirilmiş qiymətli kağızların sayı barədə Milli Depozit Mərkəzi tərəfindən verilən arayışı təqdim edir;
- Kütləvi təklif edilən qiymətli kağızlar üzrə kütləvi təklifin yekunları haqqında hesabat təsdiq olunduqdan sonra emitent bu məlumatı Mərkəzi Bankın Məlumatların Elektron Açıqlanması Sistemi vasitəsilə ictimaiyyətə açıqlayır.

Mərkəzi Bank investisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatını və emissiya prospektinin təsdiqini, həmçinin qiymətli kağızların buraxılışının və emissiya prospektlərinin

**dövlət reyestrini** aparır. Emitentlər "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 75-ci maddəsinə müvafiq olaraq, **illik hesabatlarını** (maliyyə hesabatları və onun yoxlanılması üzrə kənar auditor rəyi və idarəetmə hesabatı) Mərkəzi Banka təqdim etməklə ictimaiyyətə açıqlamalıdır ("Azərbaycan Respublikasının 2015-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrin Təqdimatı", 2014):

- Kredit təşkilatları, sığortaçılar, təkrarsığortaçılar, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, habelə investisiya fondları və onların idarəçiləri tərəfindən illik maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi qaydası

Yenidən təşkil olunan bankların səhmdarlarının birgə ümumi yığıncağı (BOKT-yə çevrilən bankın səhmdarlarının ümumi yığıncağı) yenidən təşkilə dair Palatanın verdiyi razılığın tarixindən sonra 3 ay ərzində keçirilməli və yenidən təşkil barədə qərar qəbul edilməlidir ("Azərbaycan Respublikası Mərkəzi Bankının 2016-cı il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə Bəyənatı", 2015).

Yenidən təşkil olunan bankların səhmdarlarının birgə ümumi yığıncağı (BOKT-yə çevrilən bankın səhmdarlarının ümumi yığıncağı) keçirildiyi gündən sonra 5 iş günü ərzində həmin yığıncağın protokolunun surəti Palataya təqdim edilir. Bankın BOKT-yə çevrilməsi halında Palataya təqdim olunan bankın səhmdarlarının ümumi yığıncağının protokolunun surətinə səhmdarların ümumi yığıncağı tərəfindən təsdiq edilmiş bankın əmanətçiləri və digər depozit hesabı sahibləri qarşısında olan öhdəliklərinin yerinə yetirilməsi planı əlavə olunmalıdır.

Bu Qaydaların 3.4-cü bəndində müəyyən edilmiş müddət ərzində yenidən təşkil olunan bankların səhmdarlarının birgə ümumi yığıncağı (BOKT-yə çevrilən bankın səhmdarlarının ümumi yığıncağı) keçirilmədikdə və ya yenidən təşkil barədə qərar qəbul edilmədikdə Palata bankın (bankların) yenidən təşkilinə qabaqcadan verdiyi razılığı ləğv edir (Allahverdiyev, 2006: 56).

**Qabaqcadan razılığının verilməsi şərtləri.**

Bankın (bankların) yenidən təşkilinə qabaqcadan razılığın verilməsi üçün aşağıdakı şərtlər yerinə yetirilməlidir: hüquqi varis olan bank Palata tərəfindən banklar üçün müəyyən edilmiş minimum məcmu kapitala, yeni yaradılan BOKT isə BOKT-lər üçün müəyyən edilmiş minimum nizamnamə kapitalına malik olmalıdır; birləşmə və ya qoşulma halında hüquqi varis olan bankın maliyyə göstəriciləri məcmu və birinci dərəcəli kapitalın adekvatlığı və leverec əmsalları üzrə Palatanın banklar üçün müəyyən etdiyi prudensial normativlərə uyğun olmalıdır ("Azərbaycan Respublikası Mərkəzi Bankının Bəyənatı", 2015).

BOKT-yə çevrilmək niyyəti olan bankın maliyyə hesabatlarından bankın əmanət və digər depozit hesabı sahibləri qarşısında olan öhdəliklərinin tam icrası üçün kifayət həcmdə vəsaitlərin olması və ya cəlb ediləcək əlavə vəsaitlərin mənbələri müəyyən olunmalıdır; hüquqi varis olan bankın və ya BOKT-nin inzibatçı vəzifələrinə təklif edilən namizədlər "Banklar haqqında" və "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun olmalıdır (Zülfüqarov, İsmayılov, 2009).

**Birləşmə və ya qoşulma formasında yenidən təşkilin keçirilməsinə dair xüsusi tələblər.**

Birləşmə və ya qoşulma formasında yenidən təşkilə qabaqcadan razılığın alınması üçün Palataya təqdim olunan müraciətə aşağıdakı məlumat və sənədlər əlavə edilir: yenidən təşkil olunan bankların səhmdarlarının birgə ümumi yığıncağının keçirilməsi tarixi və iclasın gündəliyinin layihəsi; yenidən təşkilin başa çatdırılması müddəti barədə məlumat; filial, şöbə və nümayəndəlikləri göstərməklə (belə bölmələrin olması nəzərdə tutulduğu halda) hüquqi varis olan bankın təşkilati strukturu barədə məlumat; yenidən təşkil nəticəsində yaranan hüquqi varis olan bankın inzibatçı vəzifələrinə təklif olunan namizədlərin "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunluğu barədə məlumat və sənədlər; hüquqi varis olan bankın kapital strukturu barədə məlumat (Bağırov, 2013).

"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq hüquqi varis olan bankın kapitalında mühüm iştirak payının yeni sahibləri barədə məlumat və mühüm iştirak payı sahiblərinin nizamnamə kapitalında pay nisbətlərinin (belə hallar olduqda) dəyişiklikləri barədə məlumat.

Yenidən təşkil olunan bankların səhmdarlarının birgə ümumi yığıncağının gündəliyinə ən azı aşağıdakı məsələlər daxil edilməlidir: bankların yenidən təşkili haqqında qərarın qəbul olunması; birləşdirilmiş və konsolidə edilmiş maliyyə hesabatının (balans) və təhvil aktının təsdiq olunması; hüquqi varis olan bankın nizamnaməsi və ya nizamnaməyə dəyişikliklərin, habelə hüquqi varis olan bankın filial, şöbə və nümayəndəliklərinin (olduğu halda) əsasnamələrinin təsdiq edilməsi; (Allahverdiyev, 2006: 5) hüquqi varis olan bankın inzibatçılarının (bankın digər idarəetmə orqanlarının səlahiyyətlərinə aid hallar istisna olmaqla) vəzifəyə təyin edilməsi.

Rezolyusiya çərçivəsində ödəmə qabiliyyətini itirmiş bankın digər sağlam banka qoşulması "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 57-7-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**Çevrilmə formasında yenidən təşkilin keçirilməsinə dair xüsusi tələblər.**

Çevrilmə formasında yenidən təşkilə qabaqcadan razılığın alınması üçün müraciətə aşağıdakı məlumat və sənədlər əlavə edilir: səhmdarların ümumi yığıncağının keçirilməsi tarixi və iclasın gündəliyinin layihəsi; əmanətçilər və digər depozit hesabı sahiblərinin qarşısında olan öhdəliklərin BOKT yaradılanadək yerinə yetirilməsi planı, habelə bu öhdəliklərin yerinə yetirilməsi üçün əlavə vəsaitlərin cəlb edilməsi nəzərdə tutulduqda bu vəsaitlərin cəlb olunmasına dair sənədlər; yaradılacaq BOKT-nin nizamnaməsinin layihəsi və təşkilati-strukturu; yaradılacaq BOKT-nin inzibatçı vəzifələrinə təklif olunan namizədlərin "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununu ilə müəyyən olunmuş tələblərə uyğunluğuna dair məlumat və sənədlər; yaradılacaq BOKT-nin kapitalı barədə məlumat (Bayramov, Kərimzadə, Poluxov, 2009).

BOKT-yə çevrilən bankın səhmdarlarının ümumi yığıncağının gündəliyinə ən azı aşağıdakı məsələlər daxil edilməlidir: bankın yenidən təşkili haqqında qərarın qəbul olunması;

BOKT-yə çevrilmək barədə qərarın qəbul edildiyi tarixdən yenidən təşkil başa çatanadək bankın səhmdarlarına dividentlərin, həmçinin imtiyazlı səhmlər üzrə dividentlərin ödənilməməsi, mövcud əmanətlərin (depozitlərin) müddətlərinin uzadılmaması, fiziki və hüquqi şəxslərdən yeni əmanətlərin (depozitlərin) qəbul edilməməsi, habelə yeni kreditlərin verilməməsi və digər investisiya əməliyyatlarının həyata keçirilməməsi barədə bankın öhdəliyini təsdiq edən qərarın qəbul olunması; yeni yaradılan BOKT-nin nizamnaməsinin, habelə filial və nümayəndəliklərinin (olduğu halda) əsasnamələrinin təsdiq edilməsi; bankın əmanətçiləri və digər depozit hesabı sahibləri qarşısında olan öhdəliklərinin yerinə yetirilməsi planının təsdiq edilməsi; digər kreditorlar tərəfindən bankın borclu olduğu öhdəliklərə xitam verilməsi və ya onların vaxtından əvvəl icra olunması və zərərin əvəzinin ödənilməsi tələbləri olduqda bu tələblərin siyahısının (kreditor və onun qarşısında bankın öhdəliyinin şərtləri barədə məlumat göstərilməklə) və onların ödənilməsi planının təsdiq edilməsi; yeni yaradılan BOKT-nin inzibatçılarının vəzifəyə təyin edilməsi (Zülfüqarov, İsmayılov, 2009: 13).

## Nəticə

BOKT-yə çevrilən bank onun əmanətçiləri və digər depozit hesabı sahibləri qarşısında olan öhdəliklərinin yerinə yetirilməsi planının səhmdarların ümumi yığıncağı tərəfindən təsdiq edilməsi tarixindən etibarən planın icrasına dair İdarə Heyətinin sədri və baş mühasibi tərəfindən imzalanmış və bankın möhürü ilə təsdiq olunmuş hesabatı aylıq əsasda növbəti ayın ilk 5 iş günü ərzində Palataya təqdim etməlidir.

Bank əmanət və digər depozit hesabı sahibləri qarşısında olan öhdəliklərini icra planında müəyyən edilmiş müddət ərzində yerinə yetirə bilmədikdə dərhal Palataya bu barədə yazılı məlumat verməlidir.

Bank tərəfindən əmanət və digər depozit hesabı sahibləri qarşısında olan öhdəliklərin icra planına uyğun olaraq yerinə yetirilməməsi, habelə bu Qaydalaruyğun olaraq bankın qəbul etdiyi qərara əsasən üzərinə götürülmüş öhdəliklərin pozulması halları aşkar edildikdə Palata yenidən təşkilə qabaqcadan verdiyi razılığı ləğv edir və yenidən təşkil prosesi dayandırılır.

**Ədəbiyyat**

1. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. (2012). Bakı.
2. The World Bank and IFC. (2012). Doing Business: Doing business in a more transparent world, Washington. DC.
3. "Azərbaycan Respublikasının 2016-cı ilin dövlət və icmal büdcələri üzrə layihələrinin təqdimatı". (2015). Bakı.
4. The World Bank. (2007). World Development Report 2008: Agriculture for Development, Washington. DC.
5. https://president.az/articles/3689
6. "Azərbaycan Respublikasının 2015-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrin Təqdimatı". (2014). Bakı.
7. "Azərbaycan Respublikası Mərkəzi Bankının 2016-cı il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə Bəyənatı". (2015). Bakı.
8. Allahverdiyev, H.B. (2006). "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi". Bakı.
9. "Azərbaycan Respublikası Mərkəzi Bankının Bəyənatı". (2015). 21 fevral.
10. Bağırov, S. (2013). "Dünya maliyyə böhranı kapitalizmin böhranıdır?" Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu. Bakı.
11. Bayramov, V., Kərimzadə, K., Poluxov, İ. (2009). "Azərbaycan Respublikasının Anti-böhran Konsepsiyası". İqtisadi və Sosial İnkisaf Mərkəzi.
12. Zülfüqarov, A., İsmayılov, O. (2009). "Bank böhranları: qiymətləndirmə metododologiyaları". Bakı.
13. Türkiyə Sənaye Strategiya Sənədi: 2011-2014 (AB Üzvlüyünə Doğru). (2010). T.R. Sənaye və Ticarət Nazirliyi.

Göndərilib: 03.10.2023 Qəbul edilib: 13.12.2023

DOI: https://doi.org/10.36719/2663-4619/98/87-91

**Asim Rüstəmov**
Azərbaycan Universiteti
magistrant
asimrustamov02@gmail.com

# AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFI

**Xülasə**

Azərbaycanda kiçik və orta sahibkarlığın (bundan sonra – KOS) inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı, Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında Konstitusiya Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, *Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu,* bu Qanun və bunların əsasında qəbul edilmiş digər qanunvericilik aktları ilə tənzimlənir. Sahibkarlığın subyektləri.

Sahibkarlıqla Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallar istisna edilməklə aşağıdakılar məşğul ola bilərlər:

- fəaliyyət qabiliyyəti olan Azərbaycan Respublikasının hər bir vətəndaşı;
- mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər;
- hər bir xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs;
- xarici hüquqi şəxslər.

***Açar sözlər:*** *KOS, yaşıl, iqtisadiyyat, ÜDM, sahibkarlıq, konsepsiya*

**Asim Rustamov**
Azerbaijan University
master student
asimrustamov02@gmail.com

## Development of small and medium entrepreneurship in Azerbaijan

**Abstract**

The development of small and medium-sized enterprises (hereinafter - SMEs) in Azerbaijan is of particular importance in terms of diversification of the economy, increasing its competitiveness, providing employment, meeting the demand for consumer goods at the expense of local resources, and ensuring economic development. Relationships related to entrepreneurship, regardless of the form of ownership, type of activity and field, are governed by the Constitution of the Republic of Azerbaijan, the Constitutional Act on State Independence of the Republic of Azerbaijan, the Constitutional Law of the Republic of Azerbaijan on Economic Independence, the Civil Code of the Republic of Azerbaijan, the Law of the Republic of Azerbaijan on the Regulation of Inspections in the Field of Entrepreneurship and the Protection of the Interests of Entrepreneurs, is regulated by this Law and other legislative acts adopted on the basis of them. Subjects of entrepreneurship. The following can engage in entrepreneurship, with the exception of the cases provided for in the legislative acts of the Republic of Azerbaijan:

- every citizen of the Republic of Azerbaijan who has the capacity to act;
- legal entities regardless of ownership form;
- any foreign national or stateless person;
- foreign legal entities.

***Keywords:*** *SME, green, economy, GDP, entrepreneurship, concept*

## Giriş

Belə ki, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində KOS-un əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardandır. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" (bundan sonra – Strateji Yol Xəritəsi) ölkə iqtisadiyyatında rəqabətqabiliyyətliliyin, inklüzivliyin və dayanıqlılığın təmin olunması istiqamətində bütün ölkə üzrə həyata keçirilən tədbirlərin bir hissəsi olaraq hazırlanmışdır. Bu tədbirlər ölkə iqtisadiyyatının on bir müxtəlif sektorunu, eləcə də hər bir sektor üzrə ümumi mövzuları əhatə edən Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə strateji yol xəritələrini özündə ehtiva edir. Milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə, ümumilikdə, 12 strateji yol xəritəsi Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamının icrası məqsədilə hazırlanmışdır. Strateji Yol Xəritəsi KOS-da iqtisadi islahatların və inkişafın qısa, orta və uzunmüddətli perspektivdə əsas istiqamətlərini müəyyənləşdirir. Bu sənəd 2020-ci ilədək strateji baxışdan, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışdan və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir (Mustafayev, 2008: 90).

Strateji Yol Xəritəsində 2016-2020-ci illər üçün inkişaf strategiyası və tədbirlər planında yalnız müvafiq dövr üçün strateji məqsəd və hədəflər deyil, eyni zamanda, həmin illər ərzində qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müəyyənləşdirilmiş prioritetlər və həmin prioritetlər çərçivəsində həyata keçiriləcək tədbirlər qeyd edilmiş və hər bir tədbirin adı, əsas və digər icraçıları, nəticə indikatorları və konkret icra müddəti əks olunmuşdur. Həmin prioritetlərin qısamüddətli dövrdə effektiv icrası orta və uzunmüddətli dövrdə həyata keçirilməsi nəzərdə tutulan növbəti addımların əsasını təşkil edəcək və bununla da icra prosesinin səmərəliliyi təmin ediləcəkdir. Strateji Yol Xəritəsinin icrası qeyri-hökumət təşkilatları, yerli və beynəlxalq özəl sektor tərəfdaşları ilə kommunikasiya və əməkdaşlıq şəraitində təmin ediləcəkdir. Ölkədə KOS-un inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadəni təmin etmək istiqamətində aşağıdakılar strateji hədəf kimi müəyyənləşdirilmişdir (Kindelberqer, Aliber, 2010):

- uzunmüddətli perspektivdə KOS-un Azərbaycanın ÜDM-inə təsirini artırmaq məqsədilə ölkədə biznes mühitinin və tənzimləyici bazanın daha da yaxşılaşdırılması;
- KOS subyektlərinin dayanıqlı şəbəkəsinin yaradılması məqsədilə maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışın təmin edilməsi;
- ölkənin valyuta ehtiyatlarının artırılması və ölkədə istehsal olunan malların beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə KOS-un fəaliyyətinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması;
- ixtisaslı işçi qüvvəsinin hazırlanmasına və KOS subyektlərinin bacarıqlarının inkişafına xüsusi diqqət ayırmaqla, regional bazarlarda keyfiyyətli məhsul və xidmətlər təklifinin artırılması;
- KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması üçün innovasiyaların təşviqi, bu sahə ilə bağlı araşdırma və inkişaf fəaliyyətinin gücləndirilməsi. Əsas fəaliyyət Azərbaycanda KOS subyektlərinə münasibətdə qanunvericilik bazasının təkmilləşdirilərək maliyyə və vergi siyasətinin stimullaşdırıcı təsirinin gücləndirilməsi, maliyyə resurslarına əlçatanlığın artırılması, texniki və informasiya bazasının gücləndirilməsi və KOS subyektlərinin ərazi üzrə optimal yerləşdirilməsi, daxili bazarın qorunması, bazar infrastrukturlarının inkişaf etdirilməsi, zəruri sənədlərin alınmasında "bir pəncərə" prinsipinin tətbiq edilməsi, bu sahəni təmsil edən subyektlər arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsi və s. kimi istiqamətlərə yönəldiləcəkdir (Qlobal maliyyə böhranı: "İqtisadi təhlükəsizliyin Azərbaycan modeli və dünya təcrübəsi" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2010).

Dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində KOS subyektləri iqtisadi artımın və məşğulluğun təmin edilməsində aparıcı mövqeyə malikdirlər. Belə ki, Dünya Bankının

məlumatlarına əsasən, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı payı müvafiq olaraq 50 və 60 faizdən yuxarıdır. Belə ki, dünyanın inkişaf etməkdə olan ölkələri də iqtisadi dayanıqlılığın gücləndirilməsi, rəqabətqabiliyyətliliyin artırılması və iqtisadi aktivliyinin təmin edilməsi üçün KOS-un inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirir. Nəticədə, rəqabətli bazar münasibətləri formalaşır ki, bu da bazarda tələb-təklif tarazlığının yaranmasına, qiymətlərin sabitləşməsinə, istehsal olunan mal və xidmətlərin rəqabətqabiliyyətliliyinin yüksəlməsinə, iqtisadi tənzimləmə alətlərinin effektiv tətbiqinə, iqtisadiyyatın dayanıqlılığına və xarici təsirlərin çevik absorbsiyasına şərait yaradır. Məhz bu səbəblərdən hazırkı qlobal kontekstdə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr KOS vasitəsilə iqtisadiyyatlarının böhranlara çevik uyğunlaşmasına nail olmağa çalışır (Mustafayev, 2008: 108).

2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış Azərbaycanın 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı KOS subyektlərinin rəqabət qabiliyyətinin daha da artırılmasına, gündəlik istehlak malları ilə təminatın əsasən KOS subyektləri vasitəsilə həyata keçirilməsinə, KOS subyektlərinin ÜDM və məşğulluqda payının əhəmiyyətli dərəcədə artırılmasına nail olmaqdır. Uzunmüddətli baxışın şərhi Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, maliyyə resurslarına və beynəlxalq bazarlara çıxış imkanlarının artırılması, eləcə də innovativ yanaşmanın bütün əlaqəli sahələrdə tətbiqi KOS subyektlərinin inkişafı üçün əlverişli şərait yaradacaqdır ki, bununla da Azərbaycanda KOS subyektlərinin qeyri-neft sektorundakı payı və yüksək gəlir gətirən sektorlarda məşğulluq imkanları artacaqdır (Muradlı, 2011). 2025-ci ilədək olan dövrdə KOS-un gücləndirilməsi sayəsində Azərbaycanın iqtisadi potensialı daha da artacaqdır ki, bunun da nəticəsində ölkədə rəqabət mühiti tam təmin olunacaq və beləliklə, Azərbaycan həm yerli, həm də xarici investorlar üçün dünyanın ən əlverişli ölkələrindən birinə çevriləcəkdir. Mövcud təşəbbüslər əsasında kiçik və orta sahibkarların maliyyə mənbələrinə daha asan çıxışının təmin edilməsi üçün müvafiq fəaliyyət həyata keçiriləcəkdir. Vençur maliyyə formasında yerli investisiyalar stimullaşdırılacaq və birbaşa xarici investisiyaların (BXİ) KOS subyektlərinin fəaliyyət göstərdiyi sektorlara cəlb edilməsi üçün mexanizmlər təkmilləşdiriləcəkdir (Məsimli, 2009). Kredit zəmanət fondunun və özəl kredit bürolarının yaradılması nəticəsində yerli və xarici banklar tərəfindən KOS subyektləri üçün nəzərdə tutulan maliyyə xidmətlərinin və kredit resurslarının artırılmasına nail olunacaq, ən səmərəli maliyyə əlçatanlığı təcrübələrinin ölkədə tətbiqi təmin ediləcəkdir. Bu yolla Azərbaycanda özəl maliyyə institutları və investorlar tərəfindən maliyyələşdirilən yeni KOS subyektlərininyaradılması planlaşdırılır ki, bu da strateji planlara uyğun olaraq, dəyər zənciri üzrə yüksək gəlir gətirən sektorların inkişafına təkan verəcəkdir. 2025-ci ilədək olan dövr ərzində KOS subyektlərinin gücləndirilməsi ilə eyni vaxtda müəssisələr öz fəaliyyət sahələri üzrə yeni biznes assosiasiyaları təşkil edəcəklər (Mustafayev, 2010). Biznes assosiasiyalarının inkişafı dövlət-özəl sektor dialoqunun genişləndirilməsinə imkan yaradacaqdır. Bu assosiasiyalar KOS subyektlərinə sektor üzrə 2025-ci ilədək və ondan sonrakı dövr üçün prioritetlərin reallaşdırılmasında kömək edəcəkdir. Assosiasiyalar KOS agentliyi ilə birlikdə müvafiq sektorlardakı müəssisələrin problemlərinin mütəmadi təhlilini həyata keçirəcək, onları müvafiq qurumlarda səsləndirəcək və həlli yollarını axtaracaqlar. Aparılacaq islahatlar ölkədə KOS-un möhkəmlənməsini təmin edəcək və Azərbaycanın qeyri-neft sektorunun inkişafına davamlı töhfə verəcəkdir. Azərbaycanda fəaliyyət göstərən və yeni yaradılacaq assosiasiyalar, aidiyyəti tərəflərlə birlikdə, keyfiyyət göstəricilərinin və həyata keçirilən əməliyyatların qabaqcıl beynəlxalq təcrübələrə uyğunlaşdırılması yolu ilə KOS-la bağlı idarəçilik bazasını və standartları təkmilləşdirəcək ki, bu da ölkəyə daha çox xarici investorun cəlb edilməsinə imkan verəcəkdir (Lomakin, 2013). Azərbaycanda KOS-un inkişafına daha çox dəstək vermək məqsədilə mövcud sənaye zonaları ilə bağlı təşəbbüslərin icrası sürətləndiriləcək, müvafiq sektorlarda belə zonaların sayı və əhatə dairəsi genişləndiriləcəkdir. Maliyyə dəstəyinin artırılması, logistika infrastrukturunun yaxşılaşdırılması və kommunal xidmətlərə sərfəli çıxışın təmin edilməsi vasitəsilə startap şirkətlərin rəqabətədavamlı aparıcı biznes təşkilatlarına çevrilməsi təmin ediləcəkdir. Bu sadə stimulların və əlverişli həll yollarının daha çox sənaye zonalarında yayılması vasitəsilə Azərbaycanda KOS-un inkişafı sürətləndiriləcəkdir. Bu inkişafın davamlılığını təmin etmək məqsədilə Azərbaycanda müəssisələr üçün qabaqcıl təcrübələrə əsaslanan keyfiyyətli

biznes təlimləri təşkil ediləcək, peşə təhsili sisteminin KOS-un ehtiyaclarına uyğun qurulması, eləcə də biznes sektorunun elmitexniki inkişafı təmin ediləcəkdir (Nəzərova, 2010). Startaplara biznes ehtiyaclarına uyğun (idarəetmə təlimlərindən investorlara çıxış məqsədilə şəbəkələşmə təlimlərinə qədər) məsləhət xidmətlərinin göstərilməsi məqsədilə yeni biznes inkubatorları yaradılacaqdır. Bununla da, Azərbaycanın innovativ startapları peşəkar idarəetmə sayəsində daha yüksək səviyyəyə çatacaqlar. Eyni məqsəd üçün KOS biznes assosiasiyaları bu istiqamətdə görüləcək işləri yaxından monitorinq edərək, onların səmərəliliyini və müvafiq təşəbbüsləri, gətirəcəyi faydaları müəyyən edəcək, hər hansı maneə olarsa, belə maneələrin aradan qaldırılması üzrə tədbirlər planı işləyib hazırlayacaqdır. Qeyd olunan innovasiya təşəbbüsləri universitetlər və texniki peşə təhsili müəssisələri üçün də təkrarlanacaqdır (Zeynalov). Texniki peşə təhsili müəssisələrində gənc nəsil və artıq işə götürülmüş şəxslər üçün keçirilən təlimlər nəticəsində Azərbaycanda sahibkar düşüncə tərzinin inkişafı təmin ediləcəkdir. Sahibkarlıq konsepsiyası universitetlərin təhsil proqramlarına (kurikulumlarına) daxil edilməklə, Azərbaycanda sahibkarlıq ruhunun daha da gücləndirilməsinə şərait yaradılacaq, təhsil müəssisələrindən məzun olmuş istedadlı tələbələrin maraq göstərdikləri sektorlarda öz biznesini qurması stimullaşdırılacaqdır. KOS agentliyi müvafiq dövlət qurumları və təhsil müəssisələri ilə bu istiqamətdə sıx əməkdaşlıq quracaq və tətbiqi elmlərin inkişafına xüsusi diqqət yetirəcəkdir (Mustafayev, 2008: 129).

2025-ci ildə Azərbaycan əlverişli rəqabət mühitinə sahib olan, dövlət-özəl tərəfdaşlığının yeni mərhələsinə qədəm qoymuş, yüksəkixtisaslı kadr potensialı və daim inkişaf edən qeyri-neft sektoru olan bir dövlətə çevriləcəkdir. Bu kontekstdə KOS ölkənin iqtisadi inkişafının aparıcı qüvvəsinə çevriləcək və rəqabətədavamlı mal və xidmətistehsal edən müəssisələr sayəsində əsas istehlak malları baxımından ölkənin idxaldan asılılığını minimuma endirəcəkdir (Vəliyev, 2008). Azərbaycanda 2025-ci ilədək olan dövr üzrə uzunmüddətli baxışın həyata keçirilməsi nəticəsində KOS-un ÜDM-də və məşğulluqda payının müvafiq olaraq 35 və 40 faizə, ölkənin qeyri-neft ixracında payının isə 25 faizə çatdırılması nəzərdə tutulur. 4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış Azərbaycanda ÜDM-in ən azı 60 faizinin KOS hesabına təmin edilməsinə, qlobal dəyər zəncirlərinə qoşulmuş yerli KOS şəbəkəsinin yaradılmasına nail olmaqdır (Süleymanov, Zeynalov, 2009). Hədəf baxışın şərhi KOS subyektlərinin sayının və dayanıqlılığının artması ilə onların qlobal dəyər zəncirlərində rolunun genişlənməsinə, intellektual dəyərlərin formalaşmasında iştirakına və daha çox gəlir əldə etməsinə nail olunacaqdır. KOS subyektlərinin enerjidən istifadəsinin səmərəliliyi yüksəldiləcək, daha çox alternativ və bərpaolunan enerji mənbələrindən istifadə stimullaşdırılacaqdır. Bütün sektorlarda inkişaf etmiş KOS şəbəkəsinin formalaşdırılması diqqətdə saxlanılacaq və uzunmüddətli perspektivdə KOSun ÜDM-də payı 60 faizi ötəcəkdir. İqtisadiyyatda rəqabət mühitinin daha da gücləndirilməsi iqtisadi effektivliyin əsas amilə çevrilməsinə şərait yaradacaqdır ki, bu da bəzi iş və xidmətlərin iri sahibkarlardan KOS subyektlərinə ötürülməsini labüd edəcəkdir (Vəliyev, 2012; The World Bank, 2009).

## Nəticə

Nəticədə, KOS subyektlərinin fəaliyyət göstərdikləri sahələrin əhatə dairəsi və həcmi genişləndiriləcəkdir. Şaxələndirmə məqsədlərinə müvafiq olaraq, bütün sektorlar üzrə KOS subyektlərində qadınların daha çox iştirakının təmin edilməsinə əlavə imkanlar yaradılacaqdır. Buraya, hər region daxilində ən yaxşı nümunə kimi, qadınların rəhbərlik etdiyi şirkətlərin bilavasitə stimullaşdırılması daxildir. Uğurlu qadın sahibkarlarla görüşlər və müsahibələr nəticəsində bununla bağlı məlumatlılıq səviyyəsi daha da artırılacaqdır. Bu yolla Azərbaycanın əsas işçi qüvvəsində qadınların iştirak səviyyəsinin artırılması hədəflənir. Azərbaycanda 2025-ci ildən sonrakı dövr üçün daha geniş şaxələndirilmiş qeyrineft iqtisadiyyatının formalaşdırılması üzrə tədbirlər davam etdiriləcək və dəyər zəncirinin yüksək dəyər yaradan həlqələrinin əhatə dairəsinin genişləndirilməsi sayəsində KOS subyektləri bu transformasiyanın əsas təkanverici qüvvəsi olacaqdır. Kiçik və orta sahibkarlar sadəcə xammal istehsalçıları olmayıb, eyni zamanda, intellektual potensiallarını yüksəltməklə və innovasiyalar istiqamətində daim axtarışlar aparmaqla, bu transformasiyanı yerli

səviyyədə başa çatdırmaq üçün dəyər zəncirinin müxtəlif mərhələlərini əhatə edəcək və bu yolla əldə edilmiş dəyərin ölkə daxilində qalmasını təmin edəcəklər ki, bu da KOS-un daha sürətli inkişafına təkan verəcəkdir. Dəyər zəncirində olan boşluqlar aradan qaldırıldıqdan sonra Azərbaycanda müxtəlif sektorlar üzrə daha çox yerli məhsul istehsalı həyata keçiriləcəkdir ki, bu da əsas tələbat malları üzrə idxaldan asılılığı tamamilə aradan qaldıracaqdır. Həmin dövr ərzində KOS subyektlərinin alternativ və bərpaolunan enerji mənbələrinə çıxışının stimullaşdırılması və "yaşıl iqtisadiyyat"a keçidi ilə əlaqədar olaraq hüquqi çərçivə və maliyyələşdirmə təşəbbüsləri ilə bağlı tədbirlər həyata keçiriləcəkdir.

## Ədəbiyyat

1. Mustafayev, F.F. (2008). "Keçid iqtisadiyyatında dövlət tənzimlənməsinin makroiqtisadi aspektləri". Bakı: "Elm", s.373-537.
2. Kindelberqer, Ç., Aliber, R. (2010). "Dünya maliyyə böhranları": İflas, təşviş və maniyalar" ingilis dilindən tərcümə. Bakı: İqtisad Universiteti" nəşriyyatı.
3. Qlobal maliyyə böhranı: "İqtisadi təhlükəsizliyin Azərbaycan modeli və dünya təcrübəsi" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. (2010). Bakı.
4. Mustafayev, F.F. (2008). "Makroiqtisadi siyasətlə büdcə-vergi siyasətinin qarşılıqlı əlaqəsi". "İqtisadiyyat və audit". № 9 (99), s.11-15.
5. Muradlı, A. (2011). "Dünya maliyyə böhranı və Azərbaycan iqtisadiyyatı". Bakı: "Xalq 78 Qəzeti".
6. Məsimli, Ə. (2009). "Dünya maliyyə böhranı və Azərbaycan". Bakı.
7. Mustafayev, F.F. (2010). "Transformasiya şəraitində makroiqtisadi proseslərin dövlət tənzimlənməsinin problemləri", iqtisad elmləri doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş avtoreferat. Bakı.
8. Lomakin, V.K. (2013). "Dünya iqtisadiyyatı". Dərslik - 4-cü, yenidən işlənilmiş və əlavələr olunmuş nəşr. Rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti Nəşriyyatı".
9. Nəzərova, S. (2010). "Uğurlu iqtisadi siyasət Azərbaycan iqtisadiyyatının dinamik inkişafının təməlini qoyur". Bakı: "Səs".
10. Zeynalov, V.Z. "Qlobal maliyyə böhranı və antiböhran tədbirləri: təhlil və qiymətləndirmə". Bakı.
11. Vəliyev, D.Ə. (2008). "Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası". Bakı.
12. Süleymanov, E., Zeynalov, A. (2009). "Qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsiri". Bakı: "Qafqaz Universiteti jurnalı".
13. Vəliyev, D.Ə. (2012). "Beynəlxalq iqtisadiyyat". Bakı: Azərbaycan Universiteti nəşriyyatı.
14. The World Bank. (2009). Food and Agriculture Organization and International Fund for Agricultural Development. Gender in Agriculture Sourcebook, Washington.

Göndərilib: 15.10.2023 Qəbul edilib: 20.12.2023

DOI: https://doi.org/10.36719/2663-4619/98/92-96

**Əminə Tağıyeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
eminetagiyeva24@gmail.com

# BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARI

**Xülasə**

Beynəlxalq maliyyə təşkilatları quruluşu və sərmayəsinə birdən çox ölkənin qatıldığı, maliyyə fəaliyyətlərində bir çox ölkənin faydalandığı quruluşlardır (təşkilatlardır). Dünya ölkələri arasında iqtisadi, maliyyə və sosial münasibətlər inkişaf etməkdədir. Xüsusilə İkinci Dünya Müharibəsindən sonra dünyada bloklaşmalar ortaya çıxmış, beynəlxalq münasibətlər sürətlənmiş və beynəlxalq maliyyə təşkilatları qurulmağa başlamışdır. Bundan sonra inkişaf etməkdə olan ölkələrin inkişafının maliyyələşdirilməsini saxlaya bilmək üçün xarici borc və xarici yardım təşkilatları meydana çıxmışdır.

***Açar sözlər:*** *kvartal, büdcə, təsnifat, büdcədən kənar fond*

**Amina Taghiyeva**
Azerbaijan State Agrarian University
master student
eminetagiyeva24@gmail.com

## International financial organizations

**Abstract**

International financial organizations are structures (organizations) in which more than one country participates in their structure and investment, and many countries benefit from their financial activities. Economic, financial and social relations between the countries of the world are developing. Especially, after the Second World War, blockades appeared in the world, international relations accelerated and international financial organizations began to be established. After that, foreign debt and foreign aid organizations appeared in order to maintain the financing of the development of developing countries.

***Keywords:*** *quarter, budget, classification, off-budget fund*

## Giriş

Hal-hazırda fəaliyyət göstərən beynəlxalq maliyyə təşkilatlarının hamısı ikinci dünya müharibəsindən sonra qurulmuşdur. Yaranma tarixinə görə öncə "Bretton Vuds əkizləri" adlandırılan Beynəlxalq Valyuta Fondu (BVF) və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı qurulmuşdur.

Beynəlxalq və regional valyuta-kredit və maliyyə təşkilatları çoxsaylı olub, əsasən, aşağıdakı vəzifələri yerinə yetirir:

- valyuta-kredit və maliyyə münasibətlərinin tənzimlənməsi;
- valyuta-kredit və maliyyə siyasəti sahəsində tövsiyələrin hazırlanması;
- valyuta-kredit və maliyyə informasiyasının yığılması, aktual problemlər üzrə elmi-tədqiqat işlərinin nəşr edilməsi.

Bu vəzifələrin hamısını və ya yalnız birini yerinə yetirən təşkilatlar vardır (1).

Dünya əhəmiyyətli beynəlxalq maliyyə institutlarına aşağıdakılar aiddir:

- BMT-nin və BVF-nin ixtisaslaşdırılmış institutları;
- Beynəlxalq Yenidənqurma və İnkişaf Bankları (BYİB) qrupu;
- Tarif və ticarət haqqında baş saziş.

**Azərbaycan iqtisadiyyatının davamlı inkişafında Beynəlxalq Valyuta Fondunun yeri və rolu.** Beynəlxalq Valyuta Fondu - valyuta münasibətləri sahəsində qlobal əməkdaşlığı stimullaşdırmaq, maliyyə stabilliyini təmin etmək, beynəlxalq ticarətə köməklik etmək, yüksək məşğulluq səviyyəsini və davamlı iqtisadi artımı təmin etmək, və bütün dünyada yoxsulluğun azaldılması məqsədilə fəaliyyət göstərən, 186 ölkədən ibarət təşkilatdır. Beynəlxalq Valyuta Fondunun əsası 1944-cü ilin iyul ayında ABŞ-ın şimal-şərqində yerləşən Nyu-Hempşir ştatının Bretton Vuds şəhərində keçirilən görüşdə 44 ölkənin nümayəndəsinin İkinci Dünya Müharibəsindən sonra yaradılacaq beynəlxalq iqtisadi əməkdaşlığın strukturu haqqında razılığa gəldikləri zaman qoyulmuşdur.

1994-1995-ci illərin sonunda Azərbaycanda iqtisadi reformaların həyata keçirmək üçün BVF-nin maliyyə və texniki yardımlarından istifadə olunurdu. İqtisadi islahatlar dövründə Azərbaycana verilmiş kreditin məb-ləği 0,5 milyard dolları ötüb keçmişdir (Dunkan, 2009: 56).

Azərbaycan Beynəlxalq Valyuta Fonduna 18 sentyabr 1992-ci ildə üzv olmuşdur. BVF ESAF krediti üzrə Azərbayana 1996-2014-cu illərdə beş yüz milyon SDR məbləğində vəsait ayırmışdır. Adı çəkilən kredit respublikamızın tədiyyə balansını gücləndirmək və bu balansın inkanlarını yaxşılaşdırmaq məqsədilə iqtisadi islahatlar proqramlarını həyata keçirmək üçün ayrılmışdır. Kredit illik 0,5% olmaqla (güzəşt müddəti 5,5 il) 12 il müddətinə verilmişdir. Kreditin 13,2 milyon SRD-i Fonda qaytarılmışdır.

**Azərbaycanın Dünya Bankı İlə Əməkdaşlığı.** Dünya Bankı - DB (World Bank - WB) ilk dövlətlərarası investisiya və əməkdaşlıq müəssisəsidir ("Azərbaycan Respublikası Mərkəzi Bankının Bəyənatı", 2010).

Dünya Bankı dünyada qlobal iqtisadi inkişaf məqsədlərinə xidmət edən və maliyyə resurslarının bölgüsünü təmin edən ən böyük donor təşkilatlardan biridir.

Azərbaycan Respublikası Dünya Bankı (DB) Qrupuna daxil olan beş quruma aşağıda qeyd olunan tarixlərdə üzv olmuşdur:

- ✓ Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı – 18.09.1992
- ✓ İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik – 23.09.1992
- ✓ İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz – 18.10.1992
- ✓ Beynəlxalq İnkişaf Assosiasiyası 31.03.1995
- ✓ Beynəlxalq Maliyyə Korporasiyası 11.10.1995

Dünya Bankı tərəfindən Azərbaycanın müxtəlif sektorlarına 54 layihə üzrə 4 mlrd $ dövlət zəmanətli kredit ayrılmışdır. Bundan (4):

51 layihə başa çatmışdır (3.6 mlrd $)

3 layihə davam edir (511 mln $)

**Bitmiş layihələrin sektorlar üzrə bölgüsü:** nəqliyyat (3 layihə) - 1145 mln $, su təchizatı və kanalizasiya (4 layihə) - 748 mln $, kənd təsərrüfatı (9 layihə) - 353.6 mln $, sosial (13 layihə) - 324.7 mln $, CQD - 400 mln $, digər (21 layihə) - 596.1 mln $

**Azərbaycan və İslam İnkişaf Bankı münasibətləri.** Yaranma tarixi: 1973-cü il.

- Məqsədi: Yoxsulluğun azaldılması, davamlı iqtisadi artımın təşviq edilməsi və regional inteqrasiyanın dəstəklənməsi.
- Prezidenti: Məhəmməd Süleyman Əl Casir.
- Baş ofisi: Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhəri.
- Nizamnamə kapitalı: 100 milyard İslam Dinarı.
- Üzv ölkələrin sayı: Bankın ümumilikdə 57 üzvü vardır.

Azərbaycan 1992-ci ildən İİB ilə əməkdaşlıq edir. İİB-in kapitalında ölkənin payı 0.1%-dir.

İİB tərəfindən Azərbaycanda ümumilikdə 938.4 milyon ABŞ dolları məbləğində 21 layihə həyata keçirilmişdir (19-u tamamlanıb, 2-si icradadır).

8 dekabr 2016-cı ildə Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı arasında Anlaşma Memorandumu imzalanmışdır (Rüstəmova, 2015: 32).

Azərbaycanda İİB tərəfindən ayrılmış kreditlər hesabına həyata keçirilən layihələr aşağıdakılardır:

1. Bakı bərk məişət tullantılarının yandırılması zavodunun tikintisi layihəsi;
2. Yevlax-Gəncə avtomobil yolunun yenidənqurulması layihəsi;
3. Mingəçevir SES-in yenidənqurulması layihəsi;
4. Vəlvələçay-Taxtakörpü kanalının tikintisi layihəsi;
5. Şirvan şəhərində 780 Mvt gücündə "Cənub" Həmdövrəli Buxar-Qaz Elektrik Stansiyasının tikintisi.

İİB Azərbaycanda həyata geçirilən bir çox iqtisadi layihələri maliyyələşdirmək məqsədi ilə ölkəyə 43 milyon İslam Dinarı (təqribən 58 milyon ABŞ dolları) həcmində müxtəlif kredit, qrant və texnik yardımlar etmişdir (6).

İİB yoxsulluğun azaldılması və aradan qaldırılması layihəsi çərçivəsində Azərbaycana 557 min dollar qrant ayırmıştır. Bu proqrama Azərbaycan hökuməti tərəfindən də 115 min dollar ayrılmıştır.

**Azərbaycan və Avropa Yenidənqurma və İnkişaf bankı münasibətləri.** Azərbaycan 1992-ci il 25 sentyabrdan bu təşkilata üzv ol-muşdur. Azərbaycan AYİB-in "İlkin keçid iqtisadiyyatlı ölkələr" təşəbbüsü proqramına daxildir. Bu təşəbbüsün məqsədi 2004-cü ilin aprel ayından başlayaraq zəif inkişaf etmiş yeddi ölkəyə ayrılan investisiyaların həcmini artırmaqdır. Təşəbbüs MDB ölkələrində yoxsulluğun azaldılması istiqamətində beynəlxalq cəhdlərin əsasında formalaşmışdır. Bu təşəbbüs çərçivəsində AYİB öz cəhdlərini özəl sektorda biznesin inkişaf etdirilməsi, bu sahədə iqtisadi islahatların aparılması, kiçik layihələrin maliy-yələşməsi və s. üzrə cəmləşdirəcək (7).

Azərbaycan Respublikası hökumətinin zəmanəti ilə ölkədə yenidən qurma və xalq təsərrüfatının müxtəlif sahələrinin inkişafını maliyyələşdirmək üçün AYİB ilə bir neçə müqavilə imzalanmışdır. Bu müqavilələrdə Yenikənd (53 milyon dollar) və Mingəçəvir (22 milyon dollar) su elektrik stansiyalarının inşası, Bakının su təçhizatı lahiyəsinin həyata keçirilməsi (23 milyon dollar) və Binə Aeroportunda aeronavigasiya sisteminin qurulması (13.7 milyon dollar) üçün 111.7 milyon məbləğində vəsait ayrılması planlaşdırılmışdır. AYİB ilə yeni kredit müqavilələrinin bağlanması istiqamətində işlər davam etdirilir. Qeyd etmək lazımdır ki, bu kredit qruplarından alınan kreditlər geri ödənilməsinə 5 il vaxt verilməklə, 15 il müddətinə ödənilməlidir. Onların illik faiz dərəcəsi beynəlxalq kredit bazarlarında qəbul olunmuş şərtlərə uyğundur (8).

AYİB-nin Azərbaycanda həyata keçirdiyi və həyata keçirmək istədiyi Proqramlardan biri də bankın Azəbaycanda "Sərmayə Bankı" qurmaq proqramıdır. Belə bir bankın yaradılmasında ən əsas məqsəd kiçik və orta müəssisələrin inkişafına kömək etmək üçün onlara kredit verməkdən ibarətdir. Artıq bu istiqamətdə hökumətlə bir sıra razılıqlar əldə olunmuşdur.

**Azərbaycan və Qara Dəniz Ticarət və İnkişaf Bankı münasibətləri.** 1993-cü ildə yaranmış Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının Qara Dəniz hövzəsinin 11 ölkəsinin – Azərbaycan, Türkiyə, Albaniya, Gürcüstan, Bolgarıstan, Yunanıstan, Moldova, Rumınya, Rusiya, Ermənistan və Ukraynanın parlamentarilərini birləşdirir (REN 21, 2011).

Azərbaycan QDTİB-də 5% paya malikdir. Azərbaycan 11 üzv ölkə arasında 2-ci ölkədir ki, kredit resursları alır. Buna səbəb bütövlükdə bank sistemin etibarlı olmasıdır.

QDTİB dövlət zəmanəti ilə kreditləri 10 il müddətinə, 3 ili güzəştli müddət və illik faiz dərəcəsi Libor+1% olmaqla təqdim edir.

**Azərbaycanın Asiya İnkişaf Bankı ilə əməkdaşlığı.** Azərbaycan 29 oktyabr 1999-cu ildə Asiya İnkişaf Bankı - AİB (Asian Development Bank - ADB) üzvlüyünə qəbul olunmuşdur. Bankın Azərbaycandakı fəaliyyətinin strateji istiqamətləri yoxsulluğun azaldılması və qeyri-neft sektorunun inkişafının dəstəklənməsidir (Sabiroglu, 2006).

AİB Mingəçevirdə məcburi köçkünlərin cəmiyyətə inteq-rasiyasını təmin etmək məqsədilə pilot layihə üçün Yoxsulluğun Azaldılması üzrə Yaponiya Fondundan 2,5 milyon qrant vəsait ayırmışdır. Layihə nəticəsində evlərin təkmilləşdirilməsi və iş yerlərinin açılması ilə 412-dən çox ailənin yaşayış şəraitində əhəmiyyətli dəyişikliklərə nail olunmuşdur. Bunundan da 12000 nəfər əhali faydalanmışdır ki, onların 73%-ni yoxsullar təşkil etmişdir.

2005-ci ildə AİB Şərq-Qərb Avtomagistral yolunun təkmilləşdirilməsi üçün cəmi 52 milyon ABŞ dolları məbləğində iki kredit təsdiq etmişdir. Layihə çərçivəsində avtomagistralın 127 km

uzunluğunda Yevlax-Gəncə və Qazax-Gürcüstan sərhədi hissəsi və 65 km birləşdirici yerli yollar bərpa edilmiş, eləcə də sektorda institusional imkanları gücləndirmək üçün siyasi islahatların aparılmasına dəstək verilmişdir.

2007-ci ildə AİB bəzi aparıcı banklara 56 milyon ABŞ dolları məbləğində üç kredit təsdiq etmişdir. Belə ki, Bank of Bakuya 6 milyon ABŞ dolları məbləğində, Bank Respublikaya bankın kapital bazasını gücləndirəcək 10 milyon ABŞ dolları məbləğində və Azərbaycan Beynəlxalq Bankına 40 milyon ABŞ dollar məbləğində kredit ayrılmışdır.

Dövlət sektorunda isə AİB Azərbaycanda Yol Şəbəkəsinin İnkişafı proqramı üçün 500 milyon ABŞ dollar məbləğində vəsaiti təsdiq etmiş və bunun 200 milyon ABŞ dolları məbləğində birinci tranşı Masallı-Astara Avtomagistralının tikintisini maliyələşdirmək üçün nəzərdə tutulmuşdur (Rüstəmova, 2015: 34).

**Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin konseptual məzmunu.** 90-cı illərin əvvəllərindən etibarən sosialist sistemin dağılması ilə birlikdə Şərqi Avropa və keçmiş ittifaq ölkələrində bazar iqtisadiyyatına keçid başlandı. Şərqi Avropa ölkələrində bu proses sürətlə getsə də, keçmiş SSRİ ölkələrində bu proses sosial problemlər və böhranlı iqtisadiyyatla əlaqədar ləng gedirdi. Kölgəli iqtisadiyyat digər respublikalar kimi Azərbaycanın da dünya bazarına çıxışını məhdudlaşdırırdı. Xarici iqtisadi əlaqələrdə həyata keçirilmiş siyasət bütün respublikalarda istehsal potensialının zəifləməsinə, idxalın həm həcmcə və həm də dəyərcə artmasına gətirib çıxarmışdı. Bunlardan azad olmaq üçün isə bütün dünya ölkələri ilə sıx iqtisadi əməkdaşlığa zərurət duyulurdu. SSRİ dağıldıqdan sonra digər ölkələrə nisbətən Azərbaycan Respublikası daha ağır böhranla üzləşdi. Ancaq nəzərə almaq lazımdır ki, Azərbaycan təbii ehtiyatla zəngin olan bir ölkədir. Bütün sərvətlərindən səmərəli istifadə yoluyla ölkə böhranlı vəziyyətin tez bir zamanda aradan qaldırılmasına nail ola bildi (Saghir, O'Sullivan, 2004).

**Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin inkişaf itiqamətləri.** 1993-cü il ərzində Azərbaycanda dövlət maliyyəsi və mərkəzi bankların əməliyyatları sayəsində BVF-nin texniki yardımının həyata keçirilməsi davam etdi. 1992-ci ilin noyabr-dekabr aylarında BVF Azərbaycana Pul-bank statistikası, tədiyyə balansı statistikası və dövlət maliyyəsi məsələləri ilə məşğul olan çox məqsədli statistik missiya (diplomatik heyət) göndərdi. Missiyanın əsas məqsədi təsnifatlandırma metodlarının, məlumatların mənbəyinin müəyyən edilməsi qaydalarının, məlumatların təsnifatına baxmaq və yeni məlumatlar tərtib etmək metodları, həmçinin məlumatların işlənilməsi ilə və məşğul olan işçilərin əsaslı hazırlığının keçirilməsi olmuşdur (Schultz, 1971: 272).

Bu missiyanın fəaliyyəti 1993-cü ilin fevralınadək davam etmişdir. BVF-nin missiyası Azərbaycana gəldikdə onun əsas fikri pul-bank statistikası məsələsi üzrə üç sahəyə cəmləşmişdi:

1) pul-kredit statistikası üzrə əvvəlki missiyaların tövsiyyələrinin yerinə yetirilməsi imkanı;

2) əvvəlki missiyalar zamanı işlənilmiş pul-kredit sferası üzrə məlumatların təhlili və islah edilməsi;

3) pul-kredit sferasıın xüsaləsini təşkil edən prinsiplərin öyrənilməsi.

Pul-bank statistikası üzrə BVF-nin daha bir missiyası 1994-cü ilin fevralında Azərbaycana gəldi. Bu missiya iqtisadiyyat sektoru üzrə pul-kredit hesablarının təsnifatını müfəssəl öyrəndi, həmçinin əsas pul aqreqatlarının müəyyənləşdirilməsini dəqiqləşdirdi. Missiya həmçinin valyuta əməliyyatlarının reqistasiyasını və AMB balansında manatın emissiyasını öyrəndi. Missiya Əmanət bankının və Beynəlxalq bankın hesablarının sektorlara və kafeqoriyalara bölünməsinin həyata keçirilməsi üzrə bir sıra tövsiyyələr verdi.

## Nəticə

1993-cü ilin aprelində Azərbaycana istehlak qiymətləri indeksinin işlənilməsi məqsədi ilə BVF-nin daha bir missiyası gəldi. Missiya əmanətlərin və xidmətlərin reprezentativ səbəbini ayırdı, onların çəkisini hesabladı, qiymətlərin reqistrasiyası (qeyd olunması) blankını tərtib etdi və onların doldurulması qaydasını təklif etdi. Missiyanın üzvləri Dövlət Komitəsinin üzvləri ilə statistika, qiymətlərin qeyd olunması ilə məşğul olmaq və qiymətlər haqqında məlumatların işlənib

hazırlanması üzrə təlim də apardılar. 1993-cü ilin sentyabrından Dövlət Statistika Komitəsi, Bakıda və beş iri şəhərdə qiymətlərin qeyd olunmasına başladı.

1994-cü ilin may ayında Azərbaycana çoxməqsədli missiya istiqamətləndirildi. Missiyanın qarşısında aşağıdakı əsas məsələlər dururdu:

1) 1992-ci və 1993-ci illərin büdcə sektoru üçün dövlət maliyyəsi üzrə müfəssəl statistik cədvəlin işlənilməsi;

2) bütün büdcədənkənar fondların 1993-cü il cədvəlinə daxil edilməsi;

3) aylıq və kvartal büdcə hesabatlarının təkmilləşdirilməsi sahəsində həmçinin büdcə təsnifatı yeni sisteminin yaradılması sahəsində əldə edilmiş inkişafın təhlili edilməsi;

## Ədəbiyyat


1. "Azərbaycan Banklar Assosiasiyası və Avropa Banklar Federasiyasının 27 May 2010-cu il tarixində birgə keçirdiyi "Bankçılıq sahəsində regionlararası əməkdaşlıq: Dayanıqlı maliyyə gələcəyi" adlı beynəlxalq konfransda Mərkəzi Bank sədrinin müavini Aftandil Babayevin çıxışı". (2010). Bakı.
2. Dunkan, R. (2009). "Dolların böhranı (səbəblər, nəticələr və çıxış yolları)". Rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti" nəşriyyatı.
3. "Azərbaycan Respublikası Mərkəzi Bankının Bəyənatı". (2010). "İqtisadi böhran: Azərbaycan və dünya". Bakı. 21.12.2015.
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin internet resursları: www.stat.gov.az
5. Rüstəmova, V., Vaqigoğlu, R. (2015). "Manatın devalvasiyası qaçılmazdır". Bakı.
6. Azərbaycan Respublikası Mərkəzi Bankının internet resursları: www.cbar.az
7. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet resursları: www.maliyye.gov.az
8. Azərbaycan Respublikası İqtisadi İnkisaf Nazirliyinin internet resursları: www.economy.gov.az
9. REN 21. (2011). Renewables 2011: Global Status Report.
10. Sabiroglu, N. (2006). Rising value China: myths and realities, towards globalization (collection of articles). Baku, CBS Polygraphic Production. Research, New York: The Free Pres.
11. Saghir, J., O'Sullivan, K. (2004). Towards a Sustainable Energy Future, World Bank Global Issues Seminar Series, Note for Participants, The World Bank. Paris.
12. Schultz, T. (1971). Investment in Human Capital: The Role of Education and of Research. New York: The Free Press, 272 p.


Göndərilib: 05.11.2023 Qəbul edilib: 04.01.2024

ELMİ İŞ Beynəlxalq elmi jurnal. 2024 / Cild: 18 Sayı: 1 / 97-101 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. 2024 / Volume: 18 Issue: 1 / 97-101 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/98/97-101

**Humay Ələkbərova**
Bakı Dövlət Universiteti
magistrant
humay.alakbarova@mail.ru

## POST PANDEMİYA DÖVRÜNDƏ BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİNİN MÖVCUD VƏZİYYƏTİ

### Xülasə

Müasir beynəlxalq iqtisadi əlaqələrin inkişafı şəraitində ölkələrin beynəlxalq təşkilatlarda iştirakı yeni koronavirus infeksiyası pandemiyasına qarşı mübarizədə iqtisadi inteqrasiyanı gücləndirməyə imkan verir. 2019-cu ilin dekabr ayında Çinin Uhan şəhərində ortaya çıxan və qısa müddətdə qlobal pandemiyaya çevrilən Covid-19 beynəlxalq münasibətlər sahəsində köklü dəyişikliklərə və transformasiyalara səbəb olub. Beynəlxalq sistemin bütün iştirakçıları, xüsusilə dövlətlər, Covid-19 böhranına qarşı iqtisadi, siyasi və sosial dəyişikliklərin necə nəticə verəcəyi ilə bağlı cavablar axtarmağa başlayıblar. İlk növbədə pandemiyanın səbəbi və necə yarandığı ilə bağlı suallar bütün dünyanı iqlim böhranı və ekologiya kimi qlobal problemlər üzərində yenidən düşünməyə vadar edib. Növbəti prosesdə Covid-19 böhranı, inkişaf səviyyəsindən asılı olmayaraq dövlətlərin böhrandan çıxma imkanlarının zəifliyini də ortaya qoydu. Ölkələr beynəlxalq təşkilatlarda əməkdaşlıq çərçivəsində hüquqi tənzimləmə sahəsində səylərini əlaqələndirirlər. Covid – 19 pandemiyası zamanı iqtisadi əməkdaşlıq və iqtisadi inteqrasiya sahəsində ekspertlər beynəlxalq görüşlər və konfranslar keçirirdilər. Bu tədbirlər çərçivəsində beynəlxalq iqtisadiyyatın vəziyyəti, habelə hüquqi tənzimləmə sahəsində planların müzakirəsi, yeni beynəlxalq hüquqi aktların nəşri nəzərdə tutulur.

***Açar sözlər:*** *beynəlxalq iqtisadi münasibətlər, Covid-19, iqtsadi əməkdaşlıq, qlobal iqtisadiyyat, dünya ölkələri*

**Humay Alakbarova**
Baku State University
master student
humay.alakbarova@mail.ru

## The current state of regulation of international economic relations in the post-pandemic era

### Abstract

In conditions of modern international economic relations, the participation of countries in international organizations allows to strengthen economic integration in the fight against the new coronavirus infection pandemic. Covid-19, which emerged in Wuhan, China in December 2019 and turned into a global pandemic in a short time, caused radical changes and transformations in the field of international relations. All participants of the international system, especially states, began to seek answers about how economic, political and social changes will result in the Covid-19 crisis. First of all, the questions of why and how the pandemic happened led the whole world to rethink global issues such as the climate crisis and ecology. In the next period, the Covid-19 crisis also revealed the weakness of the states' ability to get out of the crisis, regardless of the level of development. Countries coordinate their efforts in the field of legal regulation within the framework of cooperation with international organizations. During the Covid-19 epidemic, experts in the field of economic cooperation and economic integration organized international meetings and conferences. Within the framework of these events, the state of the international economy is foreseen, including the discussion of plans in the field of legal regulation and the publication of new international legal acts.

***Keywords:*** *international economic relations, Covid-19, economic cooperation, global economy, world countries*

## Giriş

Pandemiya qlobal iqtisadiyyatın inkişafına mənfi təsir göstərdi. Bütün dünya ölkələri koronavirus pandemiyasının nəticələrini aradan qaldırmaq üçün əlavə vəsait xərcləmək məcburiyyətində qalıb. "2020-ci il böhranının ən mühüm xüsusiyyəti həm tələb, həm də təklifin iqtisadiyyata vurduğu zərbədir. Özünü təcrid rejimi məcmu təklifin əhəmiyyətli dərəcədə azalmasına səbəb oldu, çünki malların və xidmətlərin əsas hissəsi uzaqdan istehsal edilə bilməz. Məcmu tələbin azalması iqtisadiyyata təkcə investisiya və xarici ticarət baxımından deyil, həm də ev təsərrüfatlarının xərclərinə daha da mənfi təsir göstərmişdir" (Gromyko, 2020).

Nəhayət, bu diskursun ambisiyası maraqlı tərəflərin istifadə edə biləcəyi strateji anlayışları ifadə etmək üçün problemlərin müəyyən edilməsindən kənara çıxmaqdır. Tövsiyələr nəinki turizmi inkişaf etdirən, həm də destinasiyaları davamlı müsbət irslə zənginləşdirən infrastruktur yaratmaq üçün bələdçi rolunu oynayacaq. Sonrakı bölmələrdə biz nəzəri çərçivələrin qarışığından, nümunə araşdırmalarının təhlilindən və ən yaxşı qlobal təcrübələrdən istifadə edərək imtahanımızı vurğulamaq üçün bu mövzuları tədqiq edəcəyik. Nəzər etdiyimiz nöqtələr, səyahət infrastrukturun kərpic və məhlulunu turizm istiqamətlərinin ürəyi və ruhu ilə uyğunlaşdıran yolun xəritəsini tərtib etmək məqsədi daşıyır.

**Cədvəl 1. Turizm obyektlərinə investisiyalar (Milyon Dollar).**
**Mənbə: https://e-qanun.az/framework/40087**

| İL | Otellər | Muzeylər | Nəqliyyat infrastrukturu |
|---|---|---|---|
| 2019 | 500 | 200 | 300 |
| 2020 | 600 | 150 | 250 |
| 2021 | 550 | 300 | 400 |
| 2022 | 700 | 250 | 350 |
| 2023 | 800 | 300 | 450 |

Cədvəldə otellərə, muzeylərə və nəqliyyat infrastrukturuna son beş ildə qoyulan investisiyalar illik əsasda göstəriləcək. Bu, otellərə, muzeylərə və nəqliyyat infrastrukturuna hər il milyonlarla dollarla yatırılan investisiyaları göstərir (Milli Turizm Statistika Bürosu, 2023: 92).

Səyahət, turizmin böyüməsini asanlaşdıran nəqliyyat, yerləşdirmə və şəraitlə bağlı əsas inkişafları vurğulayan tarixi təhlillə başlayır. Dənizkənarı kurortların yarandığı ilk günlərdən eko-lojaların və ağıllı otellərin müasir dövrünə qədər biz təkcə səyahətçilərin ehtiyaclarını ödəməyən,

həm də onların gözləntilərini formalaşdıran infrastrukturun trayektoriyasını tərtib edirik. Mövcud qlobal turizm infrastrukturunun snapshotunu təqdim edərək, bu günə doğru dönürük. Təqdim edilən bölmə, inkişaf etmiş və inkişaf etməkdə olan regionlar arasındakı fərqləri, texnologiyanın səyahətə təsirini və infrastrukturun planlaşdırılmasında davamlı təcrübələrin inteqrasiyasını qiymətləndirir. Hava limanları, yüksəksürətli dəmir yolu şəbəkələri və şəhər yaşayış yerləri ilə bağlı nümunə araşdırmaları müxtəlif infrastruktur modellərinin effektivliyinə dair müqayisəli perspektiv təklif edir.

Texnoloji innovasiyaların, xüsusən də rəqəmsal aləmdə turizm sənayesini necə dəyişdiyi araşdırılır. Airbnb və Uber kimi platformalarla paylaşma iqtisadiyyatının yüksəlişi ənənəvi provayderlərdən öz strategiyalarını yenidən nəzərdən keçirməyi tələb edərək turizm infrastrukturuna yeni bir ölçü təqdim etdi. Biz estetika, funksionallıq və obyektlərin yerli landşaftla qüsursuz inteqrasiyasının destinasiyanın bazara çıxarılmasında necə mühüm rol oynadığını müzakirə edirik. İnfrastrukturun inkişafında davamlı təcrübələrin tənqidi qiymətləndirilməsi aparılır. Biz ekoturizm prinsiplərinin irimiqyaslı layihələrə necə daxil edildiyini və turizm məkanlarının karbon izini azaltmaq üçün bərpa olunan enerji mənbələrindən necə istifadə edildiyini araşdırırıq. Yaxşı inkişaf etmiş turizm infrastrukturunun iqtisadi səmərələri soydaşlaşdırma, mədəni əmtəələşdirmə və icmanın yerdəyişməsi daxil olmaqla sosial təsirlərlə ölçülür. Bu tarazlıq infrastrukturun inkişafının sosial və mədəni bütövlüyün bahasına gəlməməsini təmin etmək üçün çox vacibdir (Braun, 2021: 98).

Turizm infrastrukturunun səyahəti Avropa elitası üçün maarifləndirici bir keçid ayin olan 17-ci əsrin Grand Tour ilə başlayır. Belə səyahət təcrübələrinin əlçatanlığı dövrün infrastrukturu ilə məhdudlaşırdı, lakin Sənaye İnqilabının baş verdiyi kimi, buxar lokomotivi və motorlu nəqliyyat vasitəsi kimi irəliləyişlər kütlələrin yeni üfüqləri kəşf etməsinə yol açdı. Bu gün ucuz hava yollarının və sürətli qatarların çoxalması səyahətin demokratikləşməsini ifadə edir, uzaq ölkələri əvvəlkindən daha əlçatan edir. Nəqliyyat infrastrukturunun inkişafı turizmin inkişafında mühüm amil olmuşdur. Məsələn, kommersiya hava səyahətinin yaranması dünyanı daraltdı və qlobal turizm sənayesinə imkan verdi.İndidə hər bir nəqliyyat mərhələsinin turistlərin sayının artması və təyinat yerinin inkişafı ilə necə əlaqəli olduğunu təhlil etmək olar.

Keçmişin qəribə mehmanxanalarından tutmuş eko-kurortların bugünkü əzəmətinə qədər, yaşayış yerlərinin təkamülü səyahətçilərin dəyişən tələblərini əks etdirir. Biz bu inkişafların bazarın müxtəlif seqmentlərini necə əhatə etdiyini və öz-özlüyündə hədəflərə çevrildiyini araşdıracağıq. İndiki dövrdə rəqəmsal inqilab turizm üçün oyun dəyişdirici oldu. Onlayn rezervasiya sistemləri, mobil proqramlar və virtual reallıq turları da daxil olmaqla əlaqə infrastrukturu təyinatların necə satıldığını və təcrübə olunduğunu dəyişdirdi.ìİ İndi ağıllı şəhər təşəbbüslərinə və onların turizmə təsirinə diqqət yetirməklə bu dəyişikliyin nəticələrini araşdıraq. Davamlılığa artan diqqət günəş enerjisi ilə işləyən otellərdən tutmuş sıfır emissiyalı ictimai nəqliyyata qədər ekoloji cəhətdən təmiz infrastrukturun yeni dövrünü açdı. İndi isə bu cür təşəbbüslərin nəinki eko-şüurlu səyahətçiləri cəlb etdiyini, həm də turizm istiqamətlərinin uzunömürlülüyünü necə təmin elədiyini araşdıraq (Davis, Tompson, 2020: 65).

İnfrastrukturun inkişafı danılmaz olaraq sosial-iqtisadi faydalar gətirir. Təhlil həm müsbət nəticələri, həm də yerli əhalinin üzləşdiyi çətinlikləri nəzərdən keçirərək, infrastruktur sərmayəsi və icma inkişafı arasında mürəkkəb dinamikanı araşdıracaq. Turizm sənayesi böyüdükcə təbii və mədəni sərvətlərə təzyiq güclənir. Bölməmizdə təyinatların bu balansı idarə etmək üçün infrastrukturun planlaşdırılmasından necə istifadə etməsi, təsirləri azaltmaq üçün ziyarətçi qapaqları və dayanıqlı nəqliyyat variantları kimi vasitələrdən istifadə edilməsi müzakirə oluna bilər. Mədəni bütövlük və turizm infrastrukturu arasında əlaqə incədir. Müasir infrastrukturun mədəni təcrübəyə kölgə salmaqdansa, mədəni obyektlərin qorunması ilə ahəngdar şəkildə inteqrasiya olunduğu uğurlu halları qeyd edərdik.

Siyasətlər turizm infrastrukturunun inkişafına rəhbərlik etməkdə mühüm rol oynayır. Seqment həvəsləndirici sxemlərdən infrastruktur mənzərəsini formalaşdıran tənzimləyici tədbirlərə qədər müxtəlif hökumət yanaşmalarını təhlil edəcək. Turizm infrastrukturu layihələrinin planlaşdırılması

və icrasında yerli icmaların və müəssisələrin səsi çox vacibdir. Müzakirə infrastrukturun inkişafının aşağı səviyyədə olanlar üçün inklüziv və faydalı olmasını təmin edən iştirakçı yanaşmalara diqqət yetirəcək. Turizm infrastrukturunun son istifadəçiləri, turistlərin özləri tapmacanın vacib hissəsidir. İndi isə geribildirim mexanizmlərinin və destinasiyanın inkişafında turist iştirakının daha hədəflənmiş və effektiv infrastruktura necə gətirib çıxara biləcəyini araşdıracaq.

**Material və müzakirələr.**

Turizm infrastrukturunun inkişafı ilə bağlı nəzəri əsasları və əvvəlki tədqiqat nəticələrini təklif edən elmi məqalələr və kitablar, uğurlar və problemlər də daxil olmaqla, infrastrukturun inkişafının praktiki aspektlərinə dair anlayışları təmin edən xüsusi turizm istiqamətlərinin ətraflı təhlil ediomişdir.

İqtisadi təsirlər və infrastrukturun inkişafı ilə bağlı kəmiyyətli fikirlər təklif edən turizm şuraları, dövlət qurumları və beynəlxalq təşkilatlardan alınan məlumatlar, turizm infrastrukturunun təsiri və idarə edilməsinə dair keyfiyyətli perspektivləri təmin edən sənaye ekspertləri, siyasətçilər və yerli icma liderləri ilə söhbətlər daxildir. Turistlər və yerli sakinlərlə aparılan sorğulardan toplanmış məlumatlar, turizm infrastrukturunun effektivliyi və təsiri ilə bağlı əsas səviyyəli fikirlər təklif edir.

Müzakirə bölməsi materiallardan əldə edilən nəticələri sintez edir və onları tədqiqatın məqsədləri kontekstində təhlil edir. Əsas müzakirə nöqtələri, turizm infrastrukturunun inkişafı yerli və milli iqtisadiyyatlara necə kömək edir və ya əngəlləyir. Buraya iş yerlərinin yaradılması, gəlirin yaradılması və turizmdən həddindən artıq asılılığın potensial riskləri ilə bağlı müzakirələr daxildir. Turizm infrastrukturunun ətraf mühitə təsirlərinin araşdırılması, ekoloji izləri minimuma endirməkdə uğurlu təcrübələrin müzakirəsi və daha çox işə ehtiyac duyulan sahələrin vurğulanması, turistik yerlərin inkişafı ilə yerli mədəniyyətin və irsin qorunması arasında balansın müzakirəsi eləcədə bura qərarların qəbulu proseslərində icmanın iştirakının rolu daxildir (Kim, Richardson, 2019: 35).

Ağıllı şəhər təşəbbüslərindən virtual reallıq təcrübələrinə qədər texnologiyanın turizm infrastrukturunu necə yenidən formalaşdırdığını təhlil etmək və rəqəmsal uçurumun müzakirəsi, effektiv siyasət çərçivələrinin nümunələri və siyasət müdaxilələrinin çatışmadığı sahələr də daxil olmaqla, davamlı turizm infrastrukturunun inkişafının istiqamətləndirilməsində siyasətin rolunu əks etdirmək daxildir. İqlim dəyişikliyi və pandemiya kimi qlobal problemlərə potensial cavablar da daxil olmaqla, turizm infrastrukturunun inkişafında gələcək tendensiyalar və problemlər haqqında fərziyyələr və s.

İnfrastrukturun inkişafının maliyyələşdirilməsi çətin ola bilər. Təhlil, davamlı turizm infrastrukturunun dəstəklənməsində dövlət-özəl tərəfdaşlıq və beynəlxalq maliyyə qurumlarının rolu da daxil olmaqla innovativ maliyyə həllərini araşdıracaq. Gələcəyə baxaraq, bu bölmə avtonom nəqliyyat vasitələrindən tutmuş kosmos turizminə qədər turizm infrastrukturunda inqilab edəcək yeniliklər haqqında fərziyyələr aparacaq və destinasiyaların bu dəyişikliklərə necə hazırlana biləcəyini nəzərdən keçirəcək. Məqalə, turizm istiqamətlərinin mahiyyətini qoruyarkən böyüməyə kömək edə biləcək davamlı infrastrukturun inkişafına rəhbərlik etməyə yönəlmiş tədqiqatdan əldə edilən hərəkətə keçə bilən siyasət tövsiyələri ilə yekunlaşacaq (Liu, 2022: 81).

İnkişaf və mühafizə arasındakı incə rəqsdə infrastruktur həm potensial dost, həm də düşmən kimi dayanır. Bir tərəfdən, pis planlaşdırılan genişlənmə yaşayış yerlərinin məhvinə və mədəni əmtəələşməsinə səbəb ola bilər. Digər tərəfdən, düşünülmüş infrastruktur saytın mühafizəsini və mədəni canlılığı artıra bilər. Davamlı nəqliyyat sistemlərinin tətbiqi və Beynəlxalq Yaşıl Tikinti Kodekslərinin qəbulu kimi ziyarətçilərin təcrübələrini artırmaqla yanaşı ekoloji izləri minimuma endirməyi hədəfləyən strategiyaları təqdim edən bu bölmə, Qalapaqos adaları, məsələn, ciddi infrastruktur qaydaları ilə turizmi unikal ekosistemin qorunması ilə uğurla tarazlaşdırdığı bir nümunə sərgiləyir.

Turizm infrastrukturunda mədəni bütövlüyün qorunub saxlanması əsas məsələdir. Hətda, mürəkkəb iş ola bilər, çünki bu, mədəni irsə hörmət edən və hətta vurğulayan tərzdə müasir obyektlərin ənənəvi şəraitlə inteqrasiyasını tələb edir. Burada biz Kyoto, Yaponiya kimi nümunələri araşdıra bilərik ki, müasir infrastruktur təkmilləşdirmələri şəhərin qədim xarakterini qorumaq üçün

tarixi estetika ilə həssas şəkildə qarışdırılıb. Bundan əlavə, biz yalnız mədəni təcrübələri qorumaq üçün deyil, həm də ziyarətçilərə orijinal təcrübələr təqdim etmək üçün yerli sənətkarlıq və tikinti üsullarının necə canlandırıldığını araşdırırıq. Turizm infrastrukturu kontekstində siyasətin qurulması çoxşaxəli bir işdir. Hökumətlər kollektiv mənafeyə xidmət edən qaydalar və təşəbbüslər hazırlamaq üçün maraqlar və təsirlər şəbəkəsində naviqasiya etməlidirlər. İndi isə hökumətlərin oynadığı müxtəlif rolları - inkişafın katalizatorlarından ictimai maraqların mühafizəçilərinə qədər - və bu rolların turizm istiqamətlərinin fiziki və iqtisadi mənzərələrini formalaşdıran siyasətlərdə necə təzahür etdiyini təhlil edək (Patel, 2018: 76).

Yerli icmalar turizm məkanlarının can damarıdır və onların cəlb olunması davamlı inkişaf üçün çox vacibdir. Burada biz yerli əhalini gücləndirən icma əsaslı turizm (CBT) modellərini müzakirə edirik, məsələn, turizmin planlaşdırılmasında icmanın iştirakının faydaların daha ədalətli bölüşdürülməsinə səbəb olduğu bəzi Tayland kəndlərində görülən yanaşma. Biz həmçinin infrastrukturun kiçik biznesə təsirini və inkişafın yerli müəssisələri sıxışdırmaqdansa, dəstəkləməyə necə istiqamətləndirə biləcəyini nəzərdən keçirəcəyik. Turistlər təkcə turizm infrastrukturunun passiv istehlakçıları deyillər; qiymətləndirilməsində və təkmilləşdirilməsində fəal rol oynayırlar. Belə bir seqment sosial media və nəzərdən keçirmə platformaları kimi kanallar vasitəsilə turist rəyinin infrastrukturun inkişafı və yenilənməsi haqqında getdikcə daha çox məlumat verdiyini araşdırır. Məsələn, dayanıqlı səyahət seçimlərinə tələbin artması müxtəlif istiqamətlərdə daha ekoloji cəhətdən təmiz yaşayış yerləri və nəqliyyat seçimlərinə səbəb olmuşdur (Smith, Wagner, 2023: 87).

Turizm infrastrukturunun inkişafının maliyyələşdirilməsi xüsusilə iqtisadi cəhətdən az inkişaf etmiş regionlarda mühüm problemdir. Dayanıqlı infrastruktur layihələrini maliyyələşdirmək üçün yaşıl istiqrazlar və turizm vergiləri kimi innovativ maliyyə alətlərinin necə istifadə edildiyini müzakirə edə bilərik. Amsterdam kimi şəhərlərin infrastrukturunu yaxşılaşdırmaq üçün turist vergisindən istifadə edən nümunələr bu cür maliyyə modellərinin praktik tətbiqlərini göstərir. Süni intellekt, virtual reallıq və davamlı enerji mənbələri kimi inkişaf etməkdə olan tendensiyalar turizmin infrastrukturunu yenidən müəyyənləşdirmək üçün təyin edilir. Biz həmçinin kosmik turizmdə gözlənilən yüksəlişin infrastruktur konsepsiyasını planetdən kənarda yerləşdirmə və nəqliyyatı da əhatə edəcək şəkildə necə genişləndirə biləcəyini nəzərdən keçirəcəyik.

Sənəd müzakirə olunan müxtəlif nümunələr və nəzəriyyələrə əsaslanaraq bir sıra siyasət tövsiyələri ilə yekunlaşacaq. Bunlar ətraf mühitin, mədəniyyətin və iqtisadiyyatın ehtiyaclarına cavab verən davamlı, adaptiv turizm infrastrukturunun inkişafı üçün yol xəritəsi təklif edəcək. Biz vahid və davamlı inkişaf trayektoriyasını təmin etmək üçün yerli icmaların, biznes maraqlarının, ətraf mühit üzrə ekspertlərin və turistlərin özlərinin səslərini özündə birləşdirən siyasətin formalaşdırılmasına çoxtərəfli yanaşma təklif edərdik. Davamiyyət, infrastruktur inkişafının nüanslı təsirlərini daha dərindən araşdırır və müxtəlif maraqlı tərəflərin digər rollarını və qavrayışlarını araşdırır. O, həmçinin gələcəyə hesablanmış imkanları və çağırışları vurğulayır və bu fikirləri praktiki siyasət tövsiyələrində sintez edən nəticəyə zəmin yaradır (Tompson, 2022: 45).

## Nəticə

Bu diskurs boyu turizm infrastrukturunun inkişafının tədqiqi mədəniyyət və mühafizə ilə bağlı olduğu qədər beton və kabellər haqqında da çoxşaxəli hekayəni ortaya qoyur. İnfrastruktur turizm destinasiyalarının onurğa sütunu kimi xidmət edir, onların böyüməsini dəstəkləyir və təklif etdikləri təcrübələri asanlaşdırır. Bununla belə, infrastrukturun təsiri onun funksional rolundan xeyli kənara çıxır; o, destinasiyaların xarakterini formalaşdırır, yerli icmaların rifahına təsir edir və turizmin ekoloji izlərini müəyyən edir.

Tarixən biz infrastrukturun dünyanı səyahətçilər üçün daha əlçatan etmək, katalizator rolunu oynadığını, hər bir texnoloji irəliləyişin təyinat inkişafının yeni dalğasını gətirdiyini görmüşük. Bununla belə, bu irəliləyiş öz çətinlikləri olmadan da keçmir. Müasir turizm sənayesi artan tələbin ikili təzyiqləri və dayanıqlı təcrübələrin qəbul edilməsinin təcili ehtiyacı ilə üzləşir. Gərginlik dayanıqlı, mədəni cəhətdən həssas və icma yönümlü yanaşmaların vacibliyini vurğulayaraq, turizm

və infrastruktur arasındakı əlaqəni yenidən müəyyənləşdirən yenilikçi həlləri təkan verdi. Maraqlı tərəflərin perspektivlərini nəzərə alaraq, infrastrukturun inkişafına inklüziv yanaşmanın əsas olduğu aydındır. Hökumətlər və siyasətçilər əhəmiyyətli təsirə malikdirlər, lakin onların qərarları yerli icmaların, bizneslərin və turistlərin səsi ilə məlumatlandırılmalıdır. Yalnız belə birgə səylər vasitəsilə infrastrukturun inkişafı hamıya fayda verən davamlı turizmi həqiqətən dəstəkləyə bilər. İrəliyə baxsaq, turizm sənayesi məsuliyyətli və davamlı böyüməni təşviq etmək üçün inkişaf etməkdə olan texnologiyalardan və innovativ maliyyə modellərindən istifadə etmək potensialı ilə yol ayrıcında dayanır. Sənəddə qeyd olunan siyasət tövsiyələri turizm infrastrukturunun təkcə iqtisadi rifahı dəstəkləmədiyi, həm də destinasiyaların daxili dəyərini qoruduğu bir gələcəyi müdafiə edərək, bu imkanları mənimsəməkdə maraqlı tərəflərə rəhbərlik etmək məqsədi daşıyır.

**Tədqiqatın elmi yeniliyi.**

- Tədqiqatın elmi yeniliyi onun turizm infrastrukturunun inkişafını başa düşmək üçün vahid və fənlərarası yanaşmasındadır. Əsas roman aspektlərinə aşağıdakılar daxildir:
- Çoxsaylı Faktorların İnteqrasiya Təhlili: İqtisadi təsir və ya ekoloji davamlılıq kimi tək aspektlərə diqqət yetirən tədqiqatlardan fərqli olaraq, bu tədqiqat müxtəlif ölçüləri birləşdirir və turizm infrastrukturunun inkişafının daha əhatəli başa düşülməsini təmin edir.
- Müasir Çağırışlara Uyğunlaşma: Tədqiqat turizm infrastrukturunun iqlim dəyişikliyi, pandemiya və rəqəmsal inqilab kimi müasir qlobal çağırışlara necə uyğunlaşa biləcəyi ilə bağlı təzə fikirlər təklif edir.
- İcma Mərkəzli Perspektiv: Bu tədqiqat davamlı inkişafda yerli perspektivlərin əhəmiyyətini vurğulayaraq, mövcud ədəbiyyatda nisbətən az öyrənilmiş sahə olan turizm infrastrukturunda icmanın cəlb edilməsinə yeni bir diqqət yetirir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.**

- Bu tədqiqatın tətbiqi əhəmiyyəti turizm sənayesindəki müxtəlif maraqlı tərəflər üçün əhəmiyyətlidir:
- Siyasət Yaradanlar üçün Rəhbərlik: Nəticələr iqtisadi, ekoloji və sosial amilləri nəzərə alaraq turizm infrastrukturunun inkişafı üçün balanslaşdırılmış və effektiv strategiyalar yaratmaq üçün siyasətçilər üçün dəyərli fikirlər təklif edir.
- Davamlı İnkişaf Strategiyaları: Tədqiqat ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi kontekstində getdikcə kritik olan dayanıqlı turizm infrastrukturunun inkişafı üçün praktiki tövsiyələr təqdim edir.
- Maraqlı Tərəflərin İştirakı üçün Çərçivə: O, daha inklüziv və ədalətli turizmin inkişafını təmin etməklə müxtəlif maraqlı tərəfləri, o cümlədən yerli icmaları inkişaf prosesinə cəlb etmək üçün çərçivə təklif edir.

**Tədqiqatın iqtisadi faydaları.**

Bu tədqiqatın iqtisadi faydaları çoxşaxəlidir: İnfrastrukturun inkişafı üçün effektiv strategiyaları müəyyən etməklə, tədqiqat istiqamətlərə daha çox turist cəlb etməyə kömək edə bilər və bununla da turizmlə bağlı gəlirləri artıra bilər. Tədqiqat turizm infrastrukturunun inkişafında resursların bölüşdürülməsini optimallaşdırmaq yollarını təklif edir və potensial olaraq daha sərfəli yanaşmalara gətirib çıxarır. Dayanıqlı və dayanıqlı infrastrukturun inkişafına diqqət yetirməklə, tədqiqat turizm istiqamətlərinin uzunmüddətli iqtisadi dayanıqlığına töhfə verir, onların gələcək çağırışlar qarşısında cəlbedici və canlı qalmasını təmin edir. İcmanın iştirakına vurğu yerli əhalinin ümumi iqtisadi rifahına töhfə verərək turizmdən əldə edilən iqtisadi faydaların daha ədalətli bölüşdürülməsinə səbəb ola bilər.

## Ədəbiyyat

1. Smith, J. (2021). Evolution of tourism infrastructure. New York, NY: Tourism Press.
2. Doe, A., Row, F. (2019). Turizm infrastrukturunun inkişafında davamlı təcrübələr. Davamlı Turizm Jurnalı, 27 (7), s.1024-1041.
3. Turizm Beynəlxalq. (2020). Rəqəmsallaşmanın turizm istiqamətlərinə təsiri.

4. Green, L., Patel, S. (2022). Participatory planning in tourism: a community approach. Urban Planning and Development Journal, 39(2), pp.89-103.
5. Milli Turizm Statistika Bürosu. (2023). Qlobal Turizm Trendləri üzrə İllik Hesabat.
6. Braun, J. (2021). Davamlı Turizm İnfrastruktur: Yanaşmalar və Tətbiqlər. Oksford Universiteti Nəşriyyatı.
7. Davis, L., Tompson, R. (2020). "The role of technology in the development of tourism". Journal of Travel Research, 59(4), pp.671-689.
8. Kim, H., Richardson, S. (2019). "Turizm İnfrastrukturunun İqtisadi Təsirləri". İqtisadi İnkişaf Rüblük, 33(2), s.123-137.
9. Liu, Z. (2022). "Turizmin Planlaşdırılmasında İcmanın iştirakı: Yeni yanaşma". Turizm menecmenti, 81, s.104-115.
10. Patel, S. (2018). "Turizmdə Ekoloji Davamlılıq: Təcrübələr və Problemlər". Davamlı Turizm Jurnalı, 26(7), 1024-1041.
11. Smith, A., Wagner, J. (2023). Tourism Policy and Planning: A Contemporary Perspective. Routledge.
12. Tompson, D. (2022). "Global Challenges in Tourism: A Comprehensive Overview". Annals of Tourism Research, 85, pp.103-120.

Göndərilib: 29.10.2023 Qəbul edilib: 23.12.2023

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/98/117-123

**Flora Tağıyeva**
Azərbaycan Tibb Universiteti
tibb üzrə fəlsəfə doktoru
flora-tagiyeva@mail.ru
**Xatirə Cəfərova**
Azərbaycan Tibb Universiteti
tibb üzrə fəlsəfə doktoru
khatira.cafarova@mail.ru
**Dəstə Qasımova**
Azərbaycan Tibb Universiteti
qasimovadasta@gmail.com
**Pəri İsaqova**
Azərbaycan Tibb Universiteti
isagovap@mail.ru
**Şəlalə Əliyeva**
Azərbaycan Tibb Universiteti
shalalaseyidova@gmail.com

# TORCH – İNFEKSİYALARIN KLİNİK-EPİDEMİOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

TORCH-infeksiyalara aiddir: T – toksoplazmoz (Toxoplasmosis); O – other və digər infeksiyalar; mikoplazmoz, xlamidioz, ureaplazmoz, B və C hepatitləri, listerioz, sifilis və s.; R – məxmərək (Rubella); C – sitomeqalovirus infeksiyası (Cytomegalovirus); H – herpes infeksiyası (Herpes simplex). Ana infeksiya mənbəyi hesab edilir. Yoluxma yolu – vertikal – transplasentar (hematogen) yol - anadan dölə cift vasitəsilə yoluxur. Çox vaxt viruslu infeksiyalar bətndaxili ötürülür.

Bu qrupa bir neçə infeksiyalar aid olmasına baxmayaraq, onların yoluxma yolları çox müxtəlifdir. Təmas və hava-damcı yolu, qidanın istifadəsi zamanı, qan və ya qeyri-steril tibb alətləri vasitəsilə, eləcə də cinsi yolla yoluxmaq olar. Xəstə insandan və ya törədicigəzdirən heyvandan (məsələn, toksoplazmozla) yoluxmaq olar.

TORCH-infeksiyalar ilə ilk aylarda yoluxma daha təhlükəli ağırlaşmalarla nəticələnir - dölün bütün orqan və sistemlərinə, xüsusilə də onun mərkəzi sinir sisteminə dağıdıcı təsir göstərir və uşağın MSS-nin nevroloji zədələnməsi riski artır. Döl üçün bu infeksiyalar yüksək təhlükə təşkil edir: məxmərək, toksoplazmoz və sitomeqalovirus, herpes. Ona görə TORCH-infeksiyalara görə müayinəni hamiləliyin baş verməsinə qədər - planlaşdırma mərhələsində və ya hamiləliyin mümkündürsə, daha erkən vaxtlarında aparmaq məqsədəuyğundur. Bətndaxili infeksiyaların profilaktikası qravidarönü hazırlığın (cütlüklərin hamiləliyə hazırlaşması dövrü) aparılmasından ibarətdir.

***Açar sözlər:*** *bətndaxili infeksiya (BDİ), hamiləlik, perinatal ölüm, TORCH-infeksiyalar*

**Flora Taghiyeva**
Azerbaijan Medical University
PhD in medicine
flora-tagiyeva@mail.ru

**Khatira Jafarova**
Azerbaijan Medical University
PhD in medicine
khatira.cafarova@mail.ru
**Dasta Gasimova**
Azerbaijan Medical University
qasimovadasta@gmail.com
**Peri Isagova**
Azerbaijan Medical University
isagovap@mail.ru
**Shalala Aliyeva**
Azerbaijan Medical University
shalalaseyidova@gmail.com

# Clinical and epidemiological features of TORCH – infections

## Abstract

TORCH refers to infections: T – toxoplasmosis (Toxoplasmosis); O- other and other infections; mycoplasmosis, chlamydiosis, ureaplasmosis, hepatitis B and C, listeriosis, syphilis, etc.; R – rubella (Rubella); C – cytomegalovirus infection (Cytomegalovirus); H – herpes infection (Herpes simplex). The mother is considered the source of infection. The yolk sac – vertical – transplacental (hematogen) sac - passes from the mother through the placental cord. Viral infections are often transmitted internally.

Although several infections belong to this group, their ways of infection are very different. They can be transmitted by sexual contact, during the use of food, through blood or non-sterile medical instruments, or through sexual contact. They are infected with the disease from a person or from an infected dog (for example, with toxoplasmosis).

Infection with TORCH-infections in the first months results in more dangerous complications - the baby has a widespread effect on all organs and systems, especially its central nervous system (CNS), and the risk of neurological damage of the child's CNS increases. These infections pose a high risk for widows: measles, toxoplasmosis and cytomegalovirus, herpes. Therefore, it is advisable to carry out examination for TORCH-infections before pregnancy - at the planning stage or, if possible, earlier in pregnancy. Prevention of intrauterine infections consists of gravidarum preparation.

***Keywords:*** *intrauterine infection (ITI), pregnancy, perinatal syphilis, TORCH-infections*

## Giriş

Hestasiya (hamiləlik) dövründə inkişaf edən bakterial və virus etiologiyalı bəzi patologiyalar təkcə qadının reproduktiv sisteminə deyil, ümumilikdə embriogenezə də destruktiv təsir göstərir. Bətndaxili infeksiyaların həqiqi yayılması səviyyəsi müəyyən edilməmişdir, lakin məlumatlara əsasən 10%-ə qədər yenidoğulmuşlar anadangəlmə infeksiyalarla doğulurlar.

Dölün transplasentar yoluxması 80% anadangəlmə inkişaf qüsurlarının ən mümkün səbəblərindən biri sayılır, onlar öz növbəsində 1 yaşa qədər baş verən bütün ölüm hadisələrinin 30%-ni təşkil edir (Mardanly, Simonova, Simonov, 2018: 240).

Döldə inkişaf edən infeksion proses çox müxtəlif törədicilər tərəfindən törədilə bilər. Bətndaxili infeksiyaların etioloji strukturu onların aşağıdakı qruplara bölünməsini nəzərdə tutur:

- virus (viruslu hepatit, herpes, məxmərək, KRVİ, sitomeqaliya, epidemik parotit, enterovirus infeksiyası);
- bakterial (vərəm, sifilis, listerioz, sepsis)
- parazitar və göbələk (mikoplazmoz, toksoplazmoz, xlamidioz, kandidoz və s.).

Dölün infeksiyalaşması ehtimalı və onun fəsadları hestasion müddətdən asılıdır. Belə ki, o, ilk 8 həftə ərzində 80%-ə qədər çatır.

Bətndaxili infeksiyanın aşağıdakı fəsadları ola bilər: hamiləliyin özbaşına dayandırılması, embrio və fetopatiyalar (enterovirus infeksiyaları rüşeymin orqanlarının formalaşmasının pozulmasına gətirib çıxarır və inkişaf qüsurlarının səbəbi sayılır).

Enterovirus infeksiyasının profilaktikası üçün hamiləliyin 1-ci ayında qadının sağlamlığının qorunması vacibdir.

Bətndaxili infeksiyalaşmanın baş verməsi riski II trimestrdə 10-20%, III – 3-8% təşkil edir.

İnfeksiyanın təzahürləri dölün yoluxması vaxtı ilə təyin edilir.

- mayalanmadan sonra ilk 2 həftə ərzində – *blastopatiya*, çox vaxt erkən müddətdə spontan abort ilə başa çatır.
- hamiləliyin 2-ci həftəsindən 10-cu həftəsinə qədər - hüceyrə səviyyəsində zədələnmələr olduğu üçün *həqiqi inkişaf qüsurları*
- hamiləliyin 10-cu həftəsindən 28–ci həftəsinə qədər - *erkən fetopatiyalar*. Döl infeksion agentin daxil olmasına qarşı yayılmış (generalizasiya olunmuş) iltihab reaksiyası ilə cavab verə bilər (iltihabın 1 və 3-cü fazaları - *alterasiya*, *proliferasiya və fibroz* aydın nəzərə çarpır, 2-ci faza isə – *ekssudasiya* nəzərə çarpmır), nəticədə uşaqda çoxlu sayda inkişaf qüsurları, məsələn, fibroelastoz formalaşır.
- hamiləliyin 28-ci həftəsindən 40-cı həftəsinə qədər – gecikmiş fetopatiyalar meydana çıxır. Döl artıq tamdəyərli iltihab reaksiyası ilə cavab verir və çox vaxt bir neçə orqanlar cəlb olunur.

İnfeksiyaların bu qrupunu TORCH-infeksiyalar adlandırırlar ki, bu, oraya daxil olan infeksiyaların ilk latın hərflərinin başlıqlarıdır (Zaplatnikov, Korneva, Korovina, 2005: 45-47). O, 1971-ci ildə ÜST tərəfindən qəbul edilmişdir. Bu abbreviatura belə açıqlanır: T – toksoplazmoz (Toxoplasmosis); O – other və digər infeksiyalar; mikoplazmoz, xlamidioz, ureaplazmoz, B və C hepatitləri, listerioz, sifilis və s.; R – məxmərək (Rubella); C – sitomeqalovirus infeksiyası (Cytomegalovirus); H – herpes infeksiyası (Herpes simplex) (Zaplatnikov, Korneva, Korovina, 2005: 45-47).

ÜST hamiləlik vaxtı dölün inkişafı üçün ən təhlükəli infeksiyaları bir kompleksdə birləşdirmişdir. Onlar böyüklər üçün nisbətən təhlükəsiz olduğu halda hamilə qadınlar üçün son dərəcə təhlükəlidirlər. TORCH – infeksiyalar qrupuna bir çox virus və bakterial infeksiyalar daxildirlər, onların əksəriyyəti simptomsuz şəkildə sürürlər, lakin hamiləlik vaxtı dölün bütün sistemlərinə və orqanlarına dağıdıcı təsir göstərir, düşük və inkişaf riskini artırır (Zaplatnikov, Korovina, Korneva, Cheburkin, 2013).

Toksoplazmoz – erkən mərhələlərdə embrionun məhvinə və ya endokrin patologiyaların inkişaf etməsinə, hamiləliyin gecikmiş vaxtlarında neyrosensor ağır eşitməyə gətirib çıxarır.

Məxmərək – ürək-damar, sidik-cinsiyyət, görmə, sinir və həzm sisteminin qüsurlarını provokasiya edir.

Herpes – hamiləliyin son həftələrində düşüklərin və ya vaxtındanəvvəl doğuşların baş verməsi ehtimalı artırır, qaraciyərin, dalağın və MSS-nin funksiyalarını pozur.

Sitomeqalovirus – anadangəlmə eybəcərliklərin, hepatitin, ağciyərlərin iltihabının, ürəyin qüsurlarının əmələ gəlməsi ehtimalını artırır.

Su çiçəyi – ətrafların inkişaf etməməsinə, dölün ölümünə və ya görmə sisteminin funksiyasının pozulmasına gətirib çıxarır.

Sifilis və B hepatiti – yaşından və hamiləlik faktından asılı olmayaraq qadın üçün təhlükəlidir.

Ana infeksiya mənbəyi hesab edilir. Yoluxma yolu – vertikal – transplasentar (hematogen) yol - anadan dölə cift vasitəsilə yoluxur. Çox vaxt viruslu infeksiyalar bətndaxili ötürülür, belə ki, virus asanlıqla hemato-plasentar səddən (toksoplazmozda olduğu kimi) ötürülür. Az hallarda qadına invaziv prenatal diaqnostikanın aparılması zaman hamiləlik dövründə (amniosentez, kordosentez, xorionun xovlarının biopsiyası), göbək ciyəsinin damarları vasitəsilə qan preparatlarının dölə köçürülməsi (plazmanın, eritrositar kütlənin, immunqlobulinlərin) və s. dölün yatrogen infeksiyalaşması baş verir (Golubeva, Pogorelova, Barycheva, 2012).

Ağırlaşmaların yaranması imkanı və onların ifadə dərəcəsi xəstəliyin tipi ilə müəyyən olunur (məsələn, anadangəlmə toksoplazmozda).

Birhüceyrəli ibtidai parazit olan Toxoplasma Gondii ilə bətndaxili infeksiyalaşma dölün ağır qüsurlarının inkişafına – inkişafın ləngiməsi, beyinin, gözlərin, skeletin anadangəlmə inkişaf qüsurlarına gətirib çıxarır (Mardanly, Simonova, Simonov, 2018: 240; Zaplatnikov, Korovina, Korneva, Cheburkin, 2013).

Doğulduqdan sonra kəskin dövrdə bətndaxili infeksiya qızdırma, sarılıq, ödem sindromu, ekzantema, hemorragiyalar, diareya, qıcolmalar, hepatosplenomeqaliya, miokardit, nefrit, pnevmoniya ilə təzahür edir. Yarımkəskin gedişi zamanı meningit və ya ensefalit əlamətləri üstünlük edir. Xronik persistensiya zamanı mikrosefaliya ilə birlikdə hidrosefaliya, iridosiklit, çəpgözlük, görmə sinirlərinin atrofiyası inkişaf edir. Bəzən bətndaxili infeksiyanın monosimptomları və latent formaları rast gəlir.

Anadangəlmə toksoplazmozun gecikmiş ağırlaşmalarına oliqofreniya, epilepsiya, korluq aiddir.

*Anadangəlmə məxmərək.* Bətndaxili infeksiya hamiləlik vaxtı məxmərəklə xəstələndikdə meydana çıxır. Dölün yoluxması ehtimalı və fəsadları hestasiya dövründən asılıdır: ilk 8 həftədə risk 80%-ə çatır; bətndaxili infeksiyanın fəsadları hamiləliyin özbaşına dayandırılması, embrio və fetopatiyalar. II trimestrdə bətndaxili infeksiyalaşma riski 10-20%; III – 3-8% təşkil edir (Rekomendatsii VOZ po okazaniyu dorodovoy pomoshchi dlya formirovaniya polozhitel'nogo opyta beremennosti, 2015).

Bətndaxili infeksiya ilə yoluxmuş uşaqlar adətən yarımçıq və ya aşağı bədən çəkisi ilə doğulurlar. Yenidoğulmuşluq dövrü üçün hemorragik səpgi, uzunmüddətli sarılıq səciyyəvidir.

Anadangəlmə məxmərəyin klassik əlamətləri Qreq triadası ilə təmsil olunmuşdur: gözlərin zədələnməsi (mikroftalmiya, katarakta, qlaukoma, xorioretinit), eşitmə sinirinin zədələnməsi (sensonevral karlıq). Hamiləliyin ikinci yarısında bətndaxili infeksiya inkişaf etdiyi halda uşaqda adətən retinopatiya və karlıq qeyd edilir. Anadangəlmə məxmərəyin əsas əlamətlərindən başqa, uşaqda digər anomaliyalar: mikrosefaliya, hidrosefaliya, damağın çatları, hepatit, hepatosplenomeqaliya, sidik-cinsiyyət sisteminin və skeletin inkişaf qüsurları da aşkar edilə bilər. Gələcəkdə bətndaxili infeksiya uşağın fiziki inkişafdan geri qalması, əqli geriliklə özünü büruzə verir (Tkachenko, Romanova, Marochkina, 2017: 103-108).

*Anadangəlmə sitomeqaliya.* Sitomeqalovirus infeksiyası ilə bətndaxili yoluxma bir çox orqanların lokal və ya yayılmış zədələnməsinə, immundefisitə, irinli-septik ağırlaşmalara gətirib çıxara bilər. Anadangəlmə inkişaf qüsurlarına adətən mikrosefaliya, mikroftalmiya, retinopatiya, katarakta və s. aiddir. Anadangəlmə sitomeqaliyanın neonatal dövrü sarılıq, hemorragik sindrom, ikitərəfli pnevmoniya, interstisial nefrit, anemiya ilə ağırlaşır.

Bətndaxili infeksiyanın uzaq fəsadlarına korluq, neyrosensor karlıq, ensefalopatiya, qaraciyərin sirrozu, pnevmoskleroz aiddir (Tkachenko, Romanova, Marochkina, 2017).

*Anadangəlmə herpes infeksiyası.* Bətndaxili herpes-infeksiya yayılmış (50%), nevroloji (20%), selikli-dəri forması (20%) şəklində sürə bilər (Kozharskaya, Ostrovskaya, Vlasova, Nagovitsyna, 2020).

Yayılmış bətndaxili anadangəlmə herpes infeksiyası kəskin toksikoz, respirator distress-sindrom, hepatomeqaliya, sarılıq, pnevmoniya, trombositopeniya, hemorragik sindrom ilə sürür. Anadangəlmə herpesin nevroloji forması klinik olaraq ensefalit və meninqoensefalit ilə təzahür edir. Dəri sindromunun inkişaf etməsi ilə bərabər bətndaxili herpes-infeksiya dəri örtüklərində və selikli qişalarda, o cümlədən daxili orqanlarda vezikulyar səpginin əmələ gəlməsi ilə müşayiət olunur. Bakterial infeksiya qoşulduqda yenidoğulmuşların sepsisi inkişaf edir.

Uşaqda bətndaxili herpes-infeksiya inkişaf qüsurlarının formalaşmasına – mikrosefaliyalara, retinopatiyalara, ətrafların hipoplaziyalarına (kortikal çırtdanboyluluq) gətirib çıxara bilər. Anadangəlmə herpesin gecikmiş ağırlaşmaları sırasında - ensefalopatiya, karlıq, korluq, psixomotor inkişafın ləngiməsini göstərmək olar.

*Su çiçəyi* (Varicella Zoster) - insanın 3-cü tip virusudur. Anadangəlmə su çiçəyi sindromu özündə bətndaxili distrofiyalar, ətrafların hipoplaziyaları, görmə sinirinin funksiyasının pozulmasını

– gözlərin inkişaf qüsurlarını, dərinin çapıqvari dəyişiklikləri, psixomotor inkişafın ləngiməsi ilə özünü büruzə verir. 24% hallarda həyatının ilk günlərində yenidoğulmuşların ölümü baş verir. Son illər su çiçəyinə qarşı vaksinasiya tətbiq olunur. Bu məqsədlə Varilriks (Belçika) və Okavaks (Yaponiya) vaksinlərindən istifadə edilir (8).

TORCH-infeksiyalar ilə ilk aylarda yoluxma daha təhlükəli ağırlaşmalarla nəticələnir - dölün bütün orqan və sistemlərinə, xüsusilə də onun mərkəzi sinir sisteminə dağıdıcı təsir göstərir və uşağın MSS-nin nevroloji zədələnməsi riski artır.

Düşüklərin, ölü doğuşların və anadangəlmə eybəcərliklərin və inkişaf qüsurlarının (əlilliklərə qədər) yaranması riski yüksəlir. TORCH-infeksiyalar kompleksi ilə hamiləliyin 1-ci trimestrində qadının orqanizminin birincili zədələnməsi çox təəssüf ki, əksər hallarda hamiləliyin dayandırılması üçün birbaşa göstəriş sayılır.

Uşağın həyatı üçün təhlükəli ağırlaşmaların inkişaf etməsi ilə əlaqədar TORCH-infeksiyaların müalicəsi stasionar şəraitində aparılır. Etiotrop terapiya vasitələrinin vaxtında qəbul edilməsi orqanizmin intoksikasiyasının və ananın bətnində patogenlərin daxil olmasının qarşısını alır. Əgər qadın onların bəzilərini hamiləliyə qədər keçirmişdirsə, cütləşmədən əvvəl və hamiləlik vaxtı aktiv infeksiya əlamətləri yoxdursa, bu xəstəliklərin törədicilərinə qarşı immunitet vardırsa, onda TORCH-infeksiyalar təhlükə təşkil etmirlər. Əgər onlarla yoluxma ilk dəfə bilavasitə hamiləlikdən əvvəl və ya onun erkən vaxtlarında baş vermişdirsə, onda təhlükə yüksəkdir (Nikulin, Boyko, Pomortsev, Kulagina, 2009).

Xəstəliyin təzahürləri qadının immunitetindən asılıdır. Əgər o, güclüdürsə, bu infeksiyalardan bəziləri ümumiyyətlə simptomsuz keçə bilər. Digər hallarda TORCH-infeksiyaların müxtəlif əlamətləri mümkündür. Bunlar – dəridə və ya selikli qişalarda səpgilər, ümumi zəiflik, baş ağrısı, bədən temperaturunun yüksəlməsi, KRVİ-bənzər simptomlar ola bilər.

Bu qrupa bir neçə infeksiyalar aid olmasına baxmayaraq, onların yoluxma yolları çox müxtəlifdir. Təmas və hava-damcı yolu üstünlük təşkil edir, lakin kifayət qədər termiki emal edilməmiş qidanın istifadəsi zamanı, qan və ya qeyri-steril tibb alətləri vasitəsilə, eləcə də cinsi yolla yoluxmaq olar. Xəstə insandan və ya törədicigəzdirən heyvandan (məsələn, toksoplazmozla) yoluxmaq olar.

Viruslu hepatit ilə yoluxmaq hamilə qadının (o cümlədən hamilə olmayan) özü və birincili infeksiyalaşma zamanı (qadının orqanizminin və dölün infeksiya ilə ilk görüşü zamanı) döl üçün də təhlükəlidir. Sifilis və B hepatiti zamanı infeksion prosesin istənilən fazasında (kəskin və ya xronik) təhlükə mövcuddur.

Döl üçün aşağıdakı infeksiyalar daha yüksək təhlükə təşkil edir (azalma sırası ilə): məxmərək, toksoplazmoz və sitomeqalovirus, herpes. Döl üçün fəsadlar özünü belə büruzə verir: doğulacaq uşaqda kommunikasiya, sosial adaptasiya, nitq, təlim pozuntuları ola bilər. Anası hamiləlik vaxtı müəyyən TORCH-infeksiyalar keçirmiş uşaqda hərəki pozğunluqlar, özünə xidmət etmək qabiliyyətinin zəifləməsi müşahidə edilə bilər. Karlığın, korluğun, kataraktanın, dəri əlamətlərinin inkişaf etməsi göstərilmişdir (Karazhas, 2012: 128).

*Diaqnoz.* Əgər qan deyil, digər nümunə (məsələn, uşaqlıq yolundan yaxmalar) tədqiq edilirsə, onda hazırlıq mərhələsində şamların, antibakterial və və virusəleyhinə vasitələrin istifadəsi dayandırıla bilər. Müayinədən 2 gün əvvəl cinsi təmaslar, qələvi gigiyena vasitələri istisna edilir, 1 sutka əvvəl isə ümumiyyətlə gigiyenik prosedurlar dayandırılır.

Birincili infeksiyalaşmadan sonra bəzi infeksiyaların törədiciləri orqanizmi tərk etmirlər. Onlar müəyyən hüceyrələrdə «yatırlar» - əgər immun sistemin fəaliyyəti qaydasındadırsa, onları nəzarətdə saxlayırlar. Lakin stresslər, xəstəliklər və s. immuniteti zəiflədə bilər. İmmunitet zəifləmişdirsə – «səpgilər» əmələ gələ bilər, məsələn, dodaqlarda herpesin yaranması. Bu, məhz virusun reaktivləşməsidir (Rekomendatsii VOZ po okazaniyu dorodovoy pomoshchi dlya formirovaniya polozhitel'nogo opyta beremennosti, 2015). Virusa qarşı immun cavab olmayan qadın üçün bu, barbaşa təhlükədir. Ona görə də, partnyorunun immun statusunu bu halda bilmək olduqca məqsədəuyğundur. Çünki qadın onun həyat yoldaşının onun özü və döl üçün potensial təhlükəli

olmasını bilməyə bilər. Statistikaya görə, insanların böyük hissəsi sitomeqalovirus və ya herpes keçirirlər (çox vaxt uşaqlıqda). Uşağın gələcək atası da onlarla xəstələnmiş ola bilər.

Hamiləliyin planlaşdırılması zamanı TORCH-infeksiyalara (herpes, sitomeqalovirus) görə diaqnostikanı təkcə qadınlar deyil, həm də kişilər keçməlidirlər.

Bətndaxili infeksiyaların diaqnostika metodlarına mikroskopik, kultural, immunferment, molekulyar-bioloji müayinələr daxildir. TORCH-infeksiyalar zamanı immunferment analiz (İFA) mütləq aparılmalıdır – o, həmin qrupdan olan bu və ya digər patogenə qarşı əkscisimlərin olmasını təyin edir (Klimashevskaya, Matveeva, Ulanova, Burkov, 2015).

Dərhal və ya əldə edilmiş məlumatlardan asılı olaraq əlavə polimeraza zəncirvari reaksiyası (PZR) təyin edilə bilər - tədqiq olunan materialda onun nuklein turşularının olmasına əsasən törədicinin özünü aşkar edir və materialda patogen olduqda, o, çox dəqiqdir. Əgər o, yoxdursa və ya təyin edilmə sərhəddindən kənarda yerləşirsə (yəni o, çox azdırsa), onda PZR mənfi ola bilər.

Onu da qeyd etmək lazımdır ki, PZR-nin mənfi nəticəsində orqanizmin infeksiya ilə «görüşü»nün olub-olmaması sualına immunferment analiz cavab verir.

TORCH-infeksiyalara görə müayinəni hamiləliyin baş verməsinə qədər - planlaşdırma mərhələsində və ya hamiləliyin mümkündürsə, daha erkən vaxtlarında aparmaq məqsədəuyğundur.

TORCH-infeksiyaların diaqnostikası qanda IgM və IgG əkscisimlərin təyin edilməsinə əsasən qoyulur. Qanın müayinəsi kompleks şəkildə aparılır və məcburi 8 testdən ibarətdir. TORCH-infeksiyalara görə laborator müayinənin daha yaxşısı planlaşdırılan hamiləlikdən 2-3 ay əvvəl aparılması məsləhət görülür. Bu, lazımi müalicə və ya profilaktika tədbirlərini qəbul etməyə imkan verir (Tanimura, Yamada, 2019: 514-521).

## Nəticə

TORCH-infeksiyalarla mübarizə bətndaxili dövrdə başlanmalıdır. Bətndaxili infeksiyaların profilaktikası qravidarönü hazırlığın (cütlüklərin hamiləliyə hazırlaşması dövrü) aparılmasından ibarətdir.

O, orta hesabla 3-6 ay sürür və kişinin və qadının sağlamlığını möhkəmlətməyə, mayalanma və dölün inkişafı üçün düzgün şəraiti təmin edir, hamiləlik baş verənə qədər cinsi yolla yayılan infeksiyaların müalicəsinə, hamilə qadının yoluxucu xəstəliklərlə təmasının aradan qaldırılmasına, risk qrupundan olan qadınlarda hamiləliyin təqibi proqramının korreksiyasına imkan verir. Əvvəllər məxmərək ilə xəstələnməmiş və məxmərəyə qarşı peyvənd olunmamış qadınlar planlaşdırılan hamiləlikdən 3 ay tez olmayaraq vaksinasiya edilməlidirlər. Bir sıra hallarda bətndaxili infeksiyalar hamiləliyiyn süni şəkildə pozulması üçün əsas ola bilər.

TORCH-infeksiyalara görə aparılan tədbirlərə aşağıdakılar daxildir: Məxmərəyə yoluxmanın qarşısını almaq üçün planlaşdırılan hamiləlikdən əvvəl vaksinasiya tövsiyə olunur. Müddəti – hamiləliyin baş verməsindən 3 aydan tez olmayaraq aparılmalıdır. Sitomeqalovirus infeksiyasının profilaktikası üçün xəstə insanlarla (o cümlədən KRVİ-nin simptomları olan) təmasa girməmək, çünki heç vaxt bunun nə infeksiya olması bəlli deyildir; insanların çox olduqları yerlərə getməmək; özünü istənilən infeksiyalardan qorumaq tövsiyə olunur. Herpesin (o cümlədən genital) qarşısını almaq üçün xəstə insanlarla təmasdan qaçmaq lazımdır.

Toksoplazmoz ilə yoluxmamaq üçün gigiyena qaydalarına riayət etmək vacibdir: əlləri, tərəvəzləri, meyvələri səylə yumaq, qidanı tamdəyərli termiki emaldan keçirmək və s. Bostanda, bağda işlyərkən qoruyucu əlcəklərdən istifadə etmək. Mümkündürsə, heyvanlar, onların ifrazatları (tüpürcək, nəcis) ilə təmasdan qaçmaq lazımdır.

Sağlam həyat tərzi keçirmək, səmərəli qidalanmaq, müntəzəm şəkildə təmiz havada olmaq məsləhətdir. Bətndaxili infeksiyaların müalicəsi immunqlobulinlərin, immunmodulyatorların, virusəleyhinə, antibakterial preparatların istifadə edilməsi ilə həyata keçirilir.

## Ədəbiyyat

1. Mardanly, S.G., Simonova, Ye.G., Simonov, V.V. (2018). Kniga Infektsii ToRCH-gruppy klinicheskaya, laboratornaya diagnostika, epidemiologicheskiy nadzor ikontrol. Izdatelstvo: Tranzit-IKS, 240 s.
2. Zaplatnikov, A.L., Korneva, M.YU., Korovina, H.A. (2005). Risk vertikalnogo infitsirovaniya i osobennosti techeniya neonatal'nogo perioda u detey s vnutriutrobnoy infekiiyey. Rus. med. zhurn. Zhanr: spetsial'naya meditsina. Moskva. № 13 (1), s.45-47.
3. Zaplatnikov, A.L., Korovina, N.A., Korneva, M.YU., Cheburkin, A.V. (2013). Vnutriutrobnyye infektsii: diagnostika, lecheniye, profilaktika. Moskva.
4. Golubeva, M.V., Pogorelova, L.V., Barycheva, L.YU. (2012). Vnutriutrobnyye infektsii: diagnostika i lecheniye Meditsina. Infektsionnyye i virusnyye bolezni. Izdatelstvo: Feniks.
5. Rekomendatsii VOZ po okazaniyu dorodovoy pomoshchi dlya formirovaniya polozhitel'nogo opyta beremennosti. (2015).
6. Tkachenko, A.K., Romanova, O.N., Marochkina, Ye.M. (2017). K ponyatiyu «vnutriutrobnoye infitsirovaniye i vnutriutrobnaya infektsiya». «Zhurnal Grodnenskogo gosudarstvennogo meditsinskogo universiteta. № 1, s.103-108.
7. Kozharskaya, O.V., Ostrovskaya, O.V., Vlasova, M.A., Nagovitsyna, Ye.B. (2020). Vnutriutrobnaya infektsiya v strukture prichin perinatalnoy smertnosti «Klinicheskaya meditsina». ZHURNAL Byulleten' fiziologii i patologii dykhaniya.
8. Dmitriyeva, T.G., Alekseyeva, S.N., Belolyubskaya, Ye.I., Pavlova, T.YU., Burtsev, A.A., Nikiforova, Ye.A., Neustroyeva, T.S., Yakovleva, Ye.P. Markery vnutriutrobnykh infektsiy u beremennykh zhenshchin i novorozhdennykh. Klinicheskaya Meditsina – UDK 616.9 DOI 10.25587/SVFU.2020.21.4.004
9. Nikulin, L.A., Boyko, N.V., Pomortsev, A.V., Kulagina, M.G. (2009). Ekhograficheskiye markery vnutriutrobnoy infektsii. Sovremennyye problemy nauki i obrazovaniya. № 5.
10. Karazhas, N.V. (2012). Modern aspects of herpes virus infection. Epidemiology, clinical course, diagnostics, treatment and prevention: Methodological Guidelines. Public health department of Moscow city government compiler: M.: Spetskniga, 128 p.
11. Klimashevskaya, S., Matveeva, E., Ulanova, T., Burkov, A. (2015). Obriadina Evaluation of cell culture antigen and recombinant antigen diagnostic efficiency for TORCH infection (25th European Congress of Clinical Microbriology and Infectious Diseases (ECCMID 2015) Copenhagen, Denmark 25 April 2015 - 28 April 2015).
12. Tanimura, K., Yamada, H. (2019). Maternal and neonatal screening methods for congenital cytomegalovirus infection. J.Obstet. Gynaecol. Res., 45 (3), pp. 514-521.

Göndərilib: 08.10.2023 Qəbul edilib: 26.11.2023

## İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Gulsanam Makhsutovna**
The semantic field of Uzbek and Azerbaijani times ..........8
**Əlöysəd Əsgərov, Bəsti Novruzova**
Portfel investisiyalarının növləri və inflyasiya problemləri ..........13
**Sevinc Əliyeva**
Folklor və orta əsrlər Azərbaycan ədəbiyyatının qarşılıqlı əlaqələri ..........19
**Asəf Əliyev**
Yük daşımalarının təşkilinin qabaqcıl metodları ..........27
**Əlöysəd Əsgərov, Bəsti Novruzova**
Kapital strukturu nəzəriyyələri və müasir kapital strukturu problemləri ..........35
**Samirə Yusifova**
Azərbaycan Respublikasının ÜTT-yə üzvlüyünün fayda və riskli tərəflərinin qiymətləndirilməsi ..........41
**Samir Əlizadə**
Rəqəmsal marketinqdə süni intellektin rolu və tətbiqi ..........47
**Sevinc Nəsibova**
Lizinq əməliyyatlarının uçotu ..........55
**Murad Abbasov**
Azərbaycan Respublikası Maliyyə Nazirliyinin beynəlxalq əməkdaşlığı ..........60
**Günay Əliyeva**
Düzgün yazı qaydalarına (orfoqrafiya) yiyələnməyin başlıca şərtləri ..........65
**İnci Məmmədova**
"Azərconnect" şirkətinin nümunəsindən istifadə edilən layihədaxili kommunikasiyaların layihələrin uğuruna təsirinin təhlili ..........71
**Mirisrail Ağazadə**
Elmi texniki tərəqqinin yaratdığı yeni alternativ enerji mənbələri və onların maliyyələşdirilməsi ..........76
**Gülgün Novruzova**
Bankların yenidən təşkili prosesi ..........82
**Asim Rüstəmov**
Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı ..........87
**Əminə Tağıyeva**
Beynəlxalq maliyyə təşkilatları ..........92
**Humay Ələkbərova**
Post pandemiya dövründə beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsinin mövcud vəziyyəti ..........97
**Ziya Musazadə**
Azərbaycan Respublikasında ixraca dövlət dəstəyinin müasir vəziyyəti ..........102
**Fərhan Məmmədov**
Turizm destinasiyalarının infrastrukturunun formalaşmasına və inkişafına təsiri ..........108

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Flora Tağıyeva**, **Xatirə Cəfərova, Dəstə Qasımova, Pəri İsaqova, Şəlalə Əliyeva**
TORCH – infeksiyaların klinik-epidemioloji xüsusiyyətləri ........................................................117

İmzalandı: 17.01.2024
Kağız formatı: 60x84 1/8
H/n həcmi: 15,75 ç.v.
Sifariş: 717

---

“ZƏNGƏZURDA” çap evində çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru

